# AZƏRBAYCAN BOKSU 80 İLDƏ



# AZƏRBAYCAN BOKSU 80 İLDƏ

*Sənədli publisistika*

TURAN EVİ

Bakı 2004

**Az**
**Az-39**

M Ü Ə L L İ F L Ə R :

Ağacan Abiyev
Tofiq Babanlı
Qabil Mehdiyev

**Az-39** Azərbaycan boksu 80 ildə, sənədli publisistika, 208 səh.
Bakı, "Turan evi" - 2004

Kitab Azərbaycan Boks Federasiyasının yaradılmasının 80-ci ildönümünə həsr edilib. Kitabda boksun respublikamızda yaranma tarixindən, eləcə də 80 il ərzində bu idman növünün Azərbaycanda inkişafından geniş söhbət açılıb. Azərbaycan boksunun ötən müddət ərzində şərəfini qorumuş idmançılar və mütəxəssislər, həmçinin boksçularımızın beynəlxalq rinqlərdə qazandıqları uğurlar barədə geniş məlumat verilib.

M $\frac{47020606021 04}{113\text{-}2004}$ sifarişlə

© Azərbaycan Boks Federasiyası



*"Fərəhli haldır ki, boksçularımızın son illərdə beynəlxalq yarışlarda əldə etdikləri nailiyyətlər Azərbaycanı bu idman növü üzrə qabaqcıl ölkələr sırasına çıxarmışdır".*

**Heydər ƏLİYEV**
***Azərbaycan xalqının ümummilli lideri***



*"Boks Azərbaycanda çox yüksək səviyyədədir. Bunun başlıca səbəbi Azərbaycan Boks Federasiyasının çox gözəl fəaliyyətidir. Azərbaycan Boks Federasiyasının fəaliyyəti digər federasiyalar üçün nümunə olmalıdır. Boksda əksər çəkilərdə güclü rəqabət var və bu gözəl kadr potensialından xəbər verir.*

**İlham ƏLİYEV**
***Azərbaycan Respublikasının prezidenti,***
***Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti***



*Azərbaycan bu gün dünyanın ən güclü boks ölkələrindən biridir. Son illərdə boksçularımızın beynəlxalq yarışlarda, qitə və dünya çempionatlarında, olimpiya oyunlarında uğurlu çıxışları bunun bariz göstəricisidir. Sidneydə bir bürünc medal qazanmış boks yığma komandamız, Afinada keçirilən XXVIII Yay Olimpiya Oyunlarında daha iki medal qazanaraq boksumuzun 80 illik tarixi ərzində ən böyük uğurlarını məhz müstəqillik illərində əldə etmiş oldu. İnanıram ki, boksçularımız bu uğurlarını davam etdirərək gələn olimpiya oyunlarında daha çox və yüksək əyarlı medallarla bizləri sevindirəcəklər.*

**Əbülfəs QARAYEV**
***Azərbaycan Respublikasının***
***Gənclər, İdman və Turizm naziri***



*Azərbaycanda boksa maraq həmişə güclü olub. Lakin boksumuz heç vaxt indiki kimi dünya miqyasında ardıcıl uğurlar qazanmayıb. Bu gün Azərbaycan beynəlxalq aləmdə aparıcı boks ölkələrindən biri sayılır. Azərbaycan boksu böyük nailiyyətlərə son bir neçə ildə nail olub. Bunun isə bir səbəbi var: ümummilli liderimiz Heydər Əliyevin boks da daxil olmaqla idmana böyük qayğısı və Azərbaycan prezidenti İlham Əliyevin idmanı daim diqqət mərkəzində saxlaması.*

**Ağacan ABİYEV**
***Azərbaycan Boks Federasiyasının prezidenti,***
***Avropa Həvəskar Boks Assosiasiyasının vitse-prezidenti***
***və hakimlər komitəsinin sədri***

## MÜƏLLİFLƏRDƏN

Azərbaycan Boks Federasiyasının yaradılmasının 80 illiyi tamam oldu. Dünyada ən populyar idman növlərindən biri olan boks ölkəmizdə böyük tarixə malikdir. 1924-cü ildə rəsmi olaraq ilk dəfə Azərbaycanı təmsil edən boksçular bir çox yarışlarda qüvvələrini sınamağa başlamışlar.

Ötən 80 il ərzində isə respublikamızda boksa maraq ildən-ilə artmış və bunun da nəticəsi olaraq Azərbaycan boksçuları bir sıra tarixi uğurlara nail olmuşlar.

Boks Azərbaycanda mövcud olduğu dövrün 70 ilə yaxın bir hissəsini sovet idman siyasətinin təsiri altında formalaşmışdır. Bu müddət ərzində boksçularımız Azərbaycanın şərəfini SSRİ məkanında qorumalı olmuşlar. Lakin buna baxmayaraq respublikamızın boks məktəbi həmin dövrdə bir çox tanınmış boksçu və mütəxəssislər yetişdirmişdir. Həmin boksçular isə təkcə SSRİ deyil, eləcə də beynəlxalq miqyaslı yarışlarda da uğurla çıxış etmişlər.

Ötən əsrin 90-cı illərində Azərbaycanın öz tarixi müstəqilliyini bərpa etməsindən sonra isə boksçularımız qitə və dünya çempionatlarında, eləcə də bir sıra digər beynəlxalq yarışlarda üçrəngli bayrağımız altında çıxış etməyə başlamışlar. Tam qətiyyətlə demək olar ki, boks tariximizdə ən böyük uğurlar da məhz bundan sonra qazanılmışdır.

Boksçularımız iştirak etdikləri əksər nüfuzlu beynəlxalq yarışlarda uğurla çıxış etmiş, Vətənə medallarla qayıtmışlar. Müstəqil Azərbaycan dövlətinin boksçuları bu müddət ərzində Dünya Kubokunun, dünya çempionatının qızıl medalının, Olimpiya oyunları medallarının ölkəmizə gətirilməsinə nail olmuşlar.

Azərbaycan təkcə beynəlxalq boks yarışlarında uğurlu nəticələri ilə deyil, eyni zamanda bir sıra nüfuzlu beynəlxalq yarışların təşkilatçısı kimi də dünya boks aləmində böyük imic qazanmışdır.

Azərbaycan boks mütəxəssislərinin dünya və qitə boks qurumlarında məsul vəzifələrə seçilmələri isə ölkəmizin dünya boks ailəsində özünə böyük hörmət qazandığının bariz nümunəsi olmuşdur.

Boksumuzun qazandığı böyük nailiyyətlər dövlət tərəfindən də yüksək qiymətləndirilmişdir. Bir sıra boksçu və mütəxəssislərimiz ən ali dövlət mükafatlarına layiq görülmüşlər. Müstəqil dövlətimizin memarı olan ümummilli liderimiz Heydər Əliyevin və respublikamızın prezidenti İlham Əliyevin Azərbaycan boksu barədə dedikləri ən xoş sözlər hər halda bu idman növünün nailiyyətlərinə böyük qiymət olmuşdur.

Əziz oxucu! Azərbaycan Boks Federasiyasının təşkil olunmasının 80 illik yubileyi münasibətilə işıq üzü görən "Azərbaycan boksu 80 ildə" kitabı bu idman növünün ötən müddət ərzində keçdiyi böyük yola nəzər salmaqla bərabər boksumuzun qazandığı uğurlara da geniş yer ayırıb.

Kitabın müəllifləri Azərbaycan boksunun 80 illik yubilyei münasibətilə bütün boks həvəskarlarımızı təbrik edir, onlara yeni-yeni qələbə sevincləri arzulayır və bu nəfis tərtibatlı nəşri sizlərə yubiley hədiyyəsi edirlər.



I FƏSİL

# BOKSUN AZƏRBAYCANDA TƏŞƏKKÜLÜ VƏ İNKİŞAF YOLU

## BOKSUN AZƏRBAYCANDA TƏŞƏKKÜLÜ VƏ İNKİŞAF YOLU

Boks Azərbaycanda XX əsrin əvvəllərində təşəkkül tapıb. Həmin dövrdə Bakıya işləməyə gələn əcnəbi fəhlə və mühəndislər, neft sənayesi üzrə mütəxəssislər özləri ilə idmanın bu növünü Azərbaycana gətirmişlər.

Ötən əsrin iyirminci illərində Bakıda həvəskar boksçuların ilk döyüşləri keçirilməyə başlandı. Azərbaycan boksçuları beynəlxalq rinqlərdə isə qüvvələrini iyirminci illərin sonlarında sınamağa başlamışlar.

1924-cü ildə Azərbaycan Boksçular İttifaqının üzvləri ilk dəfə olaraq Azərbaycan Boks Federasiyasını təsis etmişlər.

Azərbaycan Boks Federasiyası yalnız SSRİ-nin dağılmasından və ölkəmizin öz müstəqilliyini bərpa etməsindən sonra, 1992-ci ildə beynəlxalq (AİBA) və Avropa (EABA) həvəskar boks assosiasiyalarının tamhüquqlu üzvü ola bilmişdir.

Azərbaycan boksunu beynəlxalq aləmdə ilk dəfə 1928-ci ildə Abbas Ağalarov və Vladimir Tolstoy ümumdünya fəhlə



*Azərbaycan boks yığma komandası 30-cu illərdə.*
*1-ci sırada sağdan 1-ci Abbas Ağalarov*




olimpiadasında təmsil etmişlər.

Bir il sonra isə Azərbaycan boksunda önəmli bir hadisə baş vermişdir. Bakının Mərkəzi Bədən Tərbiyəsi Evində (indiki Azərbaycan Dövlət Filarmoniyası) Türkiyə milli yığma komandası ilə Azərbaycan boksçularının beynəlxalq yoldaşlıq görüşü keçirilmişdir. Azərbaycan boksunun parlaq siması olan Abbas Ağalarovla türkiyəli Hacıbəy arasında keçən gərgin görüş heç-heçə nəticələnmiş, digər boksçularımız Vyazmetdinov, Şepelev və Krivonos yüksək ustalıq nümayiş etdirsələr də ümumi nəticədə Türkiyə boksçuları qalib gəlmişlər. Lakin boksçularımız bu məğlubiyyətin əvəzini 1931-ci ildə keçirilən təkrar qarşılaşmada çıxa bilmişlər.

1933-cü ildə İngiltərə, Danimarka və İsveç fəhlə klublarından olan boksçular Bakıya beynəlxalq görüşə gəlmişlər. Azərbaycan boksçuları uğurla çıxış edərək qonaqları məğlub etmişlər. Bu görüşlərdə idmançılarımızdan A.Kayurov, N.Kitasov, Q.Kondruşkin və A.Vlasov xüsusilə fərqlənmişlər. Həmin il tərkibində Azərbaycan boksçularından A.Ağalarov, A.Kayurov, A.Barışev, A.Nikolayev və İ.Aşumovun da yer aldığı SSRİ yığma komandası Finlandiya, Fransa və başqa ölkələrdə keçirilən beynəlxalq yarışların iştirakçısı olmuşlar.

Uzun müddət fəaliyyətsiz qalan Azərbaycan boksunun beynəlxalq yarışlarda təmsil olunması yalnız İkinci Dünya Müharibəsindən xeyli sonra bərpa olunmuşdur.

1955-ci ildə gənc və istedadlı Azərbaycan boksçusu Boris Qolubenko keçmiş SSRİ yığma komandasının tərkibində bir neçə beynəlxalq yarışda Azərbaycanı uğurla təmsil etmişdir. O, İngiltərədə, Finlandiyada və Şotlandiyada keçirilən beynəlxalq görüşlərdə qalib adına layiq görülmüş, Polşada keçirilmiş gənclərin ümumdünya festivalında gümüş medal qazanmışdır.

Azərbaycan yığma komandasının növbəti beynəlxalq görüşü 1958-ci ilə təsadüf etmişdir. Bu dəfə Bakıya İranın ən güclü boksçuları gəlmişdilər. Dövlət Sirkində keçirilən

bu görüşdə tamaşaçıların sayı o qədər çox idi ki, nəinki oturacaqlarda, heç pilləkənlərdə belə, oturmağa yer qalmamışdı.


*Azərbaycan-Finlandiya görüşü. A.Abiyev rəqibə hücum edir.*

Bu qarşılaşmada Azərbaycan boksçuları 6:4 hesabı ilə qalib gəlmişlər. Maraqlıdır ki, komandamızın ilk qələbəsini bu kitabın müəlliflərindən biri olan Tofiq Babanlı qazanmışdır.

Azərbaycan boksçuları üçün 1960-cı il xüsusilə uğurlu olmuşdur. Həmin il Bakıya gələn Finlandiya yığma komandasını boksçularımız iki dəfə böyük hesabla (9:1 və 7:3) məğlub etmişlər. Bu görüşlərdə qonaq komandadan Avropa çempionu titullu Olli Myakki, Azərbaycan boksçularından isə Azərbaycan Boks Federasiyasının hazırkı prezidenti Ağacan Abiyev və eləcə də Rafiq İmanov və Nağı Hacıyev xüsusilə fərqlənmişlər. Maraqlıdır ki, A.Abiyev rəqibi Pasi Vertanı görüşün elə ilk saniyələrindəcə güclü zərbə ilə nokauta salmışdır.

Həmin il Azərbaycan boksçuları digər yoldaşlıq görüşünü Bakıda Almaniya boksçuları ilə ilə keçirmişlər. 7:3 hesabı ilə bizimkilərin xeyrinə başa çatan bu qarşılaşmada boksçularımızdan idman ustaları Rafiq İmanov, Vyaçeslav Arxipov, Əkbər Vəliyev və Nağı Hacıyev fərqlənmişlər.

1965-ci ildə gənc boksçularımız Məmməd və Nadir Babayev qardaşları SSRİ yığması tərkibində Finlandiya, Macarıstan, Fransa və Norveçdə keçirilən beynəlxalq yarışlarda öz ustalıqlarını nümayiş etdirmişlər. Həmyerlimiz Balahəsən Eynullayev Finlandiyada Sovet tələbə komandasına qələbə qazandırmışdır.

1966-cı ildə gənclər arasında keçirilən “Emil Qrimonun Kuboku” uğrunda Avropa komanda yarışlarında Kamal Babayev parlaq qələbə qazanaraq qızıl medala layiq görülmüşdür.

Azərbaycan yığma komandası 1967-ci ildə Kambocada keçirilən beynəlxalq turnirdə iştirak etmişdir. Boksçularımızdan Z.Yusifov və B.Eynullayev hərəyə bir, D.Sərdarov isə iki görüşdə qalib gəlmişdir. 7 nəfərdən ibarət boks komandamız 11 görüş keçirmiş və 7:4 hesabı ilə məğlub olmuşdur.

Həmin il B.Eynullayev və M.Babayev SSRİ yığma komandası tərkibində Finlandiya ilə yoldaşlıq görüşündə uğurla çıxış etmişlər.

1968-ci ildə Bakıda Danimarkanın boks klub komandası ilə Azərbaycan yığma komandası arasındakı görüş heç-heçə (5:5) ilə nəticələnmişdir.

1976-cı ildə həmyerlimiz Aleksandr Belyavtsev Almaniya Federativ Respublikası ilə SSRİ arasında yoldaşlıq görüşündə sovet komandasının qələbə qazanmasında xüsusi rol oynamışdır.

1985-ci ildə Nikaraqua paytaxtı Manaqua şəhərində keçirilən III beynəlxalq boks turnirində SSRİ yığma komandası tərkibində Azərbaycan boksçusu Oqtay İbrahimov bütün rəqiblərinə qalib gələrək qızıl medala və çempion kəmərinə layiq görülmüşdür.

Həmin il Monqolustan paytaxtı Ulan-Batorda keçirilən “Dostluq” beynəlxalq turnirində də Oqtay İbrahimov uğurla çıxış etmişdir. Həmyerlimiz üç parlaq qələbə ilə



*1962-ci il. T.Babanlı məşq zamanı*

fəxri kürsünün ən yüksək pilləsinə qalxmaqla bərabər, həm də turnirin ən güclü və ən texnikalı boksçusu adına layiq görülmüşdür.

1986-cı ildə Oqtay İbrahimov və Polad Rzayev Nikaraqua və İndoneziyada keçirilmiş beynəlxalq turnirlərdə qızıl medallara layiq görülmüşlər.

Polşada 1987-ci ildə keçirilmiş Dinamiada yarışlarında Oqtay İbrahimov yenidən fərqlənmişdir. O.İbrahimov yenidən fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq öz çəkisinin lideri olduğunu sübut etmişdir.

Həmin il Nikaraquada keçirilən beynəlxalq turnirdə isə digər boksçumuz Malik Ağayev bütün rəqiblərini məğlub edərək qızıl medala layiq görülmüşdür.

Bundan başqa Ümumafrika oyunlarına hazırlıq məqsədilə Bakıya gəlmiş Efiopiya yığma komandası respublikamızda təlim-məşq toplanışı və yoldaşlıq görüşləri keçirmişdir.

1990-cı ildə Türkiyənin İstanbul şəhərində keçirilən beynəlxalq boks turnirində iştirak edən Azərbaycan yığma komandasının tərkibində 12 boksçu respublikamızın şərəfini qorumuşdur.

51 kq çəki dərəcəsində Ceyhun Şərifov Mərakeş, İraq, Rusiya və Əlcəzair boksçuları üzərində parlaq qələbələr qazanaraq qızıl medala layiq görülmüşdür. 60 kq çəki dərəcəsində idman ustası Eldar Əbilov İngiltərə və Kuba boksçularına qalib gəlsə də, yarımfinalda yerli boksçuya məğlub olaraq bürünc medala layiq görülmüşdür. Nəticədə Azərbaycan yığma komandası bu turnirdən Vətənə 1 qızıl və 1 bürünc medalla qayıtmışdır.

Türkiyənin paytaxtı Ankarada isə Atatürkün xatirəsinə həsr edilmiş beynəlxalq turnirdə Azərbaycan 16 idmançı ilə təmsil olunmuşdur.

48 kq çəki dərəcəsində Vaqif Mirzəyev Rusiya, Türkiyə, Özbəkistan və Ukrayna boksçularına qalib gəlmiş və fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır.

57 kq çəkidə Valeh Əliyev Ukraynanın bir və Türkiyənin iki boksçusunu məğlub edərək finala çıxmış və həlledici görüşdə yerli idmançıya məğlub olaraq gümüş medala layiq görülmüşdür. Beləliklə, bu turnirdə də komandamız 2 medal (1 qızıl və 1 gümüş) qazanmışdır.

Türkiyənin digər şəhəri İzmirdə keçirilən beynəlxalq boks turnirində isə 9 boksçumuzdan yalnız Ədalət Ağayev medal qazana bilmişdir. Ədalət 67 kq çəki dərəcəsində Türkiyə və Gürcüstan idmançılarını məğlub edərək yarımfinalda Əlcəza-

ir boksçusuna məğlub olaraq bürünclə kifayətlənmişdir.



*Beynəlxalq dərəcəli hakim Ağacan Abiyev qalib boksçunu elan edir*

1991-ci il aprelin 9-dan 14-dək Əhməd Comərtin xatirəsinə həsr olunmuş İstanbul beynəlxalq boks turnirində Azərbaycanı 11 boksçu təmsil etdi. Həmyerlimiz Hüseyn Məmmədov 48 kq çəki dərəcəsində uğurla çıxış edərək ukraynalı Şkipdanı nokautla, Rusiya təmsilçisi Əbdülrəhmanovu xal hesabı ilə məğlub edərək yarımfinala çıxmış və bu mərhələdə Kuba boksçusu Asençtoya uduzaraq bürünc qazanmışdır. 51 kq-da yarışan idman ustası Ceyhun Şərifov Monqolustanın bir və Türkiyənin iki idmançısını məyus edərək finala çıxsa da gümüş medalla kifayətlənməli olmuşdur. Burada onun qarşısını Türkiyə boksçusu kəsmişdir.

67 kq çəki dərəcəsində həmyerlimiz Malik Ağayev daha uğurla çıxış edərək Vətənə qızıl medalla qayıtmışdır. Bunun üçün Malik Suriya, Bolqarıstan və Türkiyə boksçularını və Rusiyanın iki idmançısını yarışdan çıxarmalı olmuşdur.

İyulun 20, 21 və 23-də Bakıda Azərbaycan və Türkiyə boksçuları arasında üç yoldaşlıq görüşü keçirilmişdir. İlk iki görüşdə qonaqlar 5:7 və 5:6 hesabları ilə qalib gəlsələr də sonuncu qarşılaşmada Azərbaycan boksçuları 7:2 hesabı ilə qonaqları məğlub edə bilmişlər.

48 kq çəkidə boksçumuz Xanlar Mahmudov Macarıstanda keçirilən beynəlxalq turnirdə keçmiş SSRİ yığma komandası tərkibində bürünc medal qazanmışdır. Digər

boksçumuz Ədalət Məmmədov isə İtaliyada keçirilən beynəlxalq turnirdə qızıl medala layiq görülmüş, sovet yığma komandası tərkibində Rumıniya və Fransada keçirilmiş turnirlərdən gümüş medallarla qayıtmışdır.

Sentyabrın 23-dən 29-dək respublikamızın gənclərdən ibarət yığma komandası qardaş Türkiyənin İzmir şəhərində keçirilən beynəlxalq turnirdə iki medal qazanmışdır.

8 boksçudan ibarət komandamızın ilk medalını 48 kq çəkidə Xanlar Mahmudov bürünclə qazandı. 51 kq-da Rövşən Hüseynov bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır.

1991-ci ilin dekabr ayında 11 Azərbaycan boksçusu Türkiyə paytaxtında keçirilən Mustafa Kamal Atatürkün xatirəsinə həsr olunmuş II beynəlxalq turnirdə öz qüvvəsini sınadı.

48 kq-da yarışan idmançımız Vaqif Mirzəyev bütün rəqiblərinə qalib gələrək qızıl medala və xüsusi kuboka layiq görüldü. Yüngülvari çəkidə mübarizə aparan boksçumuz Əsgər Əsgərov bürünc medaladək irliləyə bildi.

71 kq çəkidə Ədalət Ağayev yalnız finalda büdrəyərək gümüş medala layiq görüldü. Beləliklə, Azərbaycan boksçuları bu turnirdən bir dəst medalla qayıtdılar.

1991-ci ildə Azərbaycan müstəqillik əldə etsə də Azərbaycan Boks Federasiyası yalnız bir il sonra beynəlxalq və Avropa boks qurumlarına üzv qəbul olunduğu üçün yalnız 1992-ci ildən başlayaraq boksçularımız beynəlxalq yarışlarda suveren dövlətin təmsilçiləri kimi iştirak etməyə başladılar.

1992-ci il fevralın 12-dən 17-dək İran paytaxtı Tehranda, İran İslam Respublikası inqlabına həsr olunmuş beynəlxalq turnirdə Azərbaycan 10 boksçu ilə təmsil olundu. 67 kq çəkidə yarışan gənc boksçumuz Əli İsmayılov İran rinqində yerli idmançılardan ikisini və bir erməni rəqibini məğlub edərək qızıl medal qazanmışdır. Ədalət və Malik Ağayev qardaşları da Əlinin uğurunu təkrarlayaraq fəxri kürsünün ən yüksək pillələrinə yüksəlmişlər. 71 kq-da yarışan Ədalət İranın iki və Suriyanın bir, 75 kq çəkidə Malik isə İranın iki və Ermənistanın bir boksçusunu məyus etmişlər. 48 kq çəki dərəcəsində Xanlar Mahmudov gümüş medala layiq görüldü. Digər boksçularımızdan Vaqif Mirzəyev (51 kq), Emil İsrafilbəyov (63.5 kq), Ədalət Məmmədov (+91 kq) bürünc medallarla kifayətlənməli oldular.

Aprel ayında Şotlandiyanın Edinburq şəhərində keçi-

rilən Avropa çempionatında superağır çəkili boksçumuz Ədalət Məmmədov yuqoslav, polyak və alman rəqiblərinə qalib gələrək qızıl medala layiq görülmüşdür. Bununla da Azərbaycan boksunda qitə çempionu adını qazanan ilk idmançı olaraq Ədalət öz adını tarixə həkk etmiş oldu.

Mayın 12-dən 17-dək Türkiyənin İstanbul şəhərində keçirilən növbəti beynəlxalq boks turnirində Azərbaycanı 9 idmançı təmsil etdi. 51 kq çəkidə yarışan Rövşən Hüseynov Türkiyə, Rusiya və Kuba boksçularını məğlub edərək qızıl medala layiq görülmüşdür. Malik Ağayev (71 kq) isə Suriya və Qazaxıstan boksçularına qalib gəlsə də, yarımfinalda Almaniyalı rəqibinə uduzaraq bürünc medalla kifayətlənmişdir.

Superağır çəkili həmyerlimiz Ədalət Məmmədov da uğurla çıxış edərək Misir, Almaniya və Bolqarıstan boksçularını ram edərək qızıl medala layiq görülmüşdür.

Ədalət Məmmədov Kanadanın Monreal şəhərində gənclərin dünya birinciliyində bürünc medal qazanmışdır.

1993-cü il aprelin 1-dən 4-dək Çexiyanın Ust na Labe şəhərində keçirilən beynəlxalq boks turnirində ölkəmizi 4 nəfər təmsil etmişdir. 48 kq çəkidə yarışan Xanlar Mahmudov bir qələbə, bir məğlubiyyətlə turnirin gümüş medalını qazanmış, digər boksçularımızdan Dəyanət Kərimov (63.5 kq) və Ədalət Ağayev isə hərəyə bir qələbə, bir məğlubiyyətlə bürünc medala layiq görülmüşlər.

Mayın 5-dən 17-dək Finlandiyanın Tampere şəhərində keçirilmiş dünya çempionatında Azərbaycanı üç boksçu - Rövşən Hüseynov, Ədalət Ağayev və Ədalət Məmmədov təmsil etmişlər. Lakin dünya çempionatı hər üç döyüşçümüz üçün uğursuz olmuşdur.

Çexiyanın digər şəhəri Ostravada keçirilmiş beynəlxalq turnirdə isə boksçularımızdan Ceyhun Qədirli (54 kq) gümüş, Əli İsmayılov (71 kq) isə bürünc medal qazanmışlar.

1993-cü il gənc boksçumuz Rövşən Hüseynov üçün çox uğurlu olmuşdur. Belə ki, həmin il Rövşən Türkiyənin Bursa şəhərində yaşlılar arasında keçirilən Avropa çempionatında Ukrayna boksçuçu İqor Matveyçuku, bolqarıstanlı Yulian Stroqovu, türkiyəli Qədir Yıldırımı və almaniyalı Kubay Rikonu məğlub edərək Azərbaycan boksu tarixində ilk dəfə böyüklər arasında Avropa çempionu adına layiq görülmüşdür.

Həmin il İran paytaxtında keçirilmiş beynəlxalq turnirdə 91 kq-dan yuxarı çəki dərəcəsində Ədalət Məmmə-



*Azərbaycan boksçusu Ədalət Məmmədov və dünya şöhrətli Məhəmməd Əli*

dov gümüş, 81 kq çəkidə Gülü Süleymanov isə bürünc medal qazanmışlar. Gülü Süleymanov İstanbulda keçirilən beynəlxalq turnirdə isə bu uğuru 75 kq çəki dərəcəsində təkrarlamışdır.

İyun ayında Türkiyənin Ərzurum şəhərinin "Qara yollar" idman klubunun boksçuları Bakıya yoldaşlıq görüşünə gəlmiş və Bakının "Dinamo" idman cəmiyyətinin boksçuları ilə 11 döyüş keçirmişlər. Azərbaycan idmançılarından Oqtay Quliyev, Fərhad Rəhmanov, Valentin Danilov və Eldar Əliyev, qonaqlardan isə Zəfər Dumlu, Alparslan Qaya, Ənvər Gül və Özgan Yılmaz fərqlənmişlər.

Yunanıstanın Saloniki şəhərində sentyabrın 26-dan oktyabrın 3-dək keçirilən gənclərin Avropa birinciliyində Azərbaycanı 5 boksçu təmsil etmişdi. Xanlar Mahmudov (48 kq) bürünc, Rövşən Hüseynov isə qızıl medal qazanmış, respublikamız komanda hesabında 36 ölkə arasında 6-cı yeri tutmuşdur.

1994-cü ilə Azərbaycan boksçuları Türkiyənin Trabzon və Samsun şəhərlərində keçirdikləri yoldaşlıq görüşləri ilə başlamışlar.

Çexiyanın Ust na Labe şəhərində keçirilən növbəti beynəlxalq turnirdə yığma komandamızın üzvlərindən Vüqar Məmmədov, Nurəddin Alıbəyli, Əli İsmayılov və Ədalət Məmmədov bürünc medallar qazanmışlar.

Azərbaycan boksu 1994-cü ildə ən böyük uğurunu Ta-

ilandda qazandı. İyunun 3-dən 11-dək keçirilən dünya kuboku yarışlarında 51 kq çəkidə Rövşən Hüseynov bütün rəqiblərinə qalib gələrək Vətənə qızıl medal, qızıl kəmər və Dünya Kuboku ilə qayıtdı. 71 kq-da yarışan Əli İsmayılov isə yarımfinaladək irəliləyərək bürünc medala layiq görüldü. Azərbaycan komanda hesabında 68 ölkə arasında 7-ci yeri tutdu.

Oktyabrın 27-dən 30-dək Varşavada Polşanın dahi boks mütəxəssisi Feliks Ştammın xatirəsinə həsr edilmiş beynəlxalq turnirdə ölkəmizi 4 boksçu təmsil etmişdi. Boksçularımızdan Vüqar Məmmədov gümüş, Nurəddin Alıbəyli isə bürünc medal qazanmışlar.

Sentyabrın 6-dan 18-dək Türkiyənin İstanbul şəhərində gənclərin dünya birinciliyində Azərbaycanı 8 boksçu təmsil etmiş, lakin həlledici görüşlərdə boksçularımız hakim ədalətsizliyi ilə üzləşərək medalsız qalmışlar.

1995-ci il martın 10-dan 17-dək İranın Çalus şəhərində İran İslam Respublikası inqlabına həsr olunmuş beynəlxalq turnirdə ölkəmizi 9 nəfər təmsil edirdi. Turnirdə Vüqar Məmmədov (60 kq) bürünc, Fuad Aslanov (51 kq), beynəlxalq dərəcəli idman ustası Əli İsmayılov (75 kq) və Roman Tağıyev (81 kq) isə gümüş medallar qazanmışlar.

Aprelin 5-dən 10-dək İstanbulda Əhməd Comərtin xatirəsinə həsr olunmuş ənənəvi beynəlxalq turnirdə Azərbaycan 11 boksçu ilə təmsil olunmuşdu. Yığma ko-



*Rövşən Hüseynov məşqçisi Rauf Cabbarovla*

mandamızın tərkibində beynəlxalq yarışlarda debüt edən İslam Nurqudayev (75 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxmış, digər boksçumuz Roman Tağıyev (81 kq) isə yalnız finalda məğlub olaraq gümüş medala layiq görülmüşdür.

Mayın 4-dən 15-dək Almaniyanın Berlin şəhərində dünya çempionatında ölkəmizi 5 idmançı təmsil etmişdir. Çempionatda boksçularımızdan yalnız Əli İsmayılov bir qələbə qazana bilmiş və ikinci döyüşdə o da məğlubiyyətlə barışmalı olmuşdur.

İyun ayında Türkiyə Boks Federasiyasının dəvətilə Azərbaycanın gənclərdən ibarət yığma komandası qardaş ölkənin Elazığ şəhərində 10 günlük təlim-məşq toplanışı zamanı, Türkiyə və Gürcüstan yığmaları ilə yoldaşlıq görüşləri keçirmişdir. Həmin şəhərdə ilk dəfə olaraq oktyabrın 16-dan 22-dək 15-16 yaşlı yeniyetmələrin Avropa birinciliyi keçirilmişdir. Yeniyetmə boksçularımızdan Sahib Bağırov (51 kq) və Rüfət Aslanov bürünc, superağır çəkili boksçumuz Rəşad Süleymanov isə gümüş medallarla ölkəmizin komanda hesabında 12 xalla fəxri 5-ci yeri tutmasına kömək etmişlər.

1996-cı ildə martın 30-dan aprelin 8-dək Danimarkanın Veyla şəhərində keçirilən Avropa çempionatı həm də həmin il Atlantada keçirilən Olimpiya Oyunlarına lisenziya verirdi. Azərbaycanı təmsil edən 9 döyüşçüdən ikisi qarşıya qoyulan tapşırığın öhdəsindən gələrək Atlantaya vəsiqə məsələsini həll edə bilmişlər. Ədalət Məmmədov (+91 kq) ikiqat Avropa çempionu, olimpiya mükafatçısı bolqar Rusinovu I raundun əvvəlindəcə nokauta göndərərək komandamızın ilk lisenziyasını qazanmışdır. Ədalətin medallara gedən yolunu isə ukraynalı Vladimir Kliçko kəsmişdir.

Digər boksçumuz İlham Kərimov isə eston boksçusuna qalib gələrək ikinci olimpiya lisenziyasının sahibi olmuşdur.

İyunun 17-dən 22-dək İtaliyanın Aosta şəhərində yeniyetmələrin Avropa birinciliyində iştirak edən 6 boksçumuzdan 5-i Vətənə medallarla qayıtmışlar. Ağası Məmmədov (48 kq) qızıl, Azər Məmmədov (63.5 kq) gümüş, Rauf İsayev (51 kq), Natiq Tahirov (57 kq) və Sahib Bağırov (60 kq) isə bürünc medallar qazanmışlar. Azərbaycan komanda hesabında 17 ölkə arasında fəxri 3-cü yeri tutmuşdur.

1996-cı il iyulun 20-dən avqustun 4-dək ABŞ-ın Atlanta şəhərində keçirilən olimpiya oyunları proqramına daxil olan boks yarışları keçirilmişdir. Olimpiya Oyunlarında Azərbaycanı İlham Kərimov (81 kq) və Ədalət Məmmədov (+ 91 kq) təmsil edirdilər. İlham Kərimov ilk döyüşdə isveçrəli İsmayıl Konniyə məğlub olaraq mübarizəni dayandırsa da digər təmsilçimiz Ədalət Məmmədov yarışa uğurla başlamışdır. Ədalət çex Petr Xoraçeki ikinci raundda, fransız Bloçus Coseni isə birinci raundda nokauta salaraq qələbə qazanmışdır. Yarımfinala çıxmaq üçün Ədalət Nigeriya bokçusu Dunkan Dokivari üzərində qələbə qazanmalı idi. Bu qələbə həmyerlimizin ən azı bürünc qazanması demək idi. Lakin rinq hakiminin Ədalətə qarşı ədalətsizliyi sayəsində qələbə rəqibə verildi. Beləliklə, boksçumuz 5-ci yerlə kifayətlənməli oldu.

Türkiyə yığma komandası tərkibində həmyerlimiz Malik Ağayevin (75 kq) bu olimpiadada uğurla çıxış edərək qazandığı gümüş Türkiyə boksu tarixində ilk olimpiya medalı olmuşdur.

Həmin il sentyabrın 16-dan 21-dək Pakistanın Karaçi şəhərində beynəlxalq boks turnirində Azərbaycanı təmsil edən 6 idmançıdan ikisi Vətənə medalla qayıtdı. Komandamızın ən gənc üzvü, 54 kq çəkidə yarışan İntiqam Rüstəmov bütün rəqiblərinə qalib gələrək turnirin qızıl medalı ilə yanaşı ən texnikalı boksçu mükafatına da layiq görüldü. Digər idmançımız Natiq Tahirov (57 kq) isə turnirin bürünc medalını qazanmışdır.

Həmin il ilk dəfə olaraq Bakıda AİBA prezidenti Ə.Çoudrinin şərəfinə ənənəvi beynəlxalq boks turnirninin əsası qoyuldu. Bu barədə digər fəsildə bəhs olunduğundan təkrarçılığa yol vermirik.

1997-ci ildə boksçularımızın ilk səfəri qonşu İrana olmuşdur. Fevralın 12-dən 18-dək Nur şəhərində keçirilən beynəlxalq turnirdə ölkəmizi 10 gənc boksçu təmsil edirdi. Onlardan yalnız biri - Rüfət Məmmədov uğurla çıxış edərək gümüş medal qazanmışdı.

Pakistanın 50 illik qızıl yubileyinə həsr olunmuş və Karaçi şəhərində keçirilən beynəlxalq turnirdə Azərbaycan boksçuları 3 medal qazanmışlar. Ceyhun Abiyev (48 kq) və Əli İsmayılov (75 kq) bürünc, İrşad Alxasov (63.5 kq) isə gümüş medallara layiq görülmüşlər.

May ayında İstanbulda Əhməd Comərtin xatirəsinə həsr olunmuş ənənəvi beynəlxalq turnirdə Azərbaycanı

təmsil edən 10 boksçudan yalnız Emil Qurbanəliyev (67 kq) medal qazanmışdır. Emil turnirin finalında məğlub olaraq gümüş mükafata layiq görülmüşdür.

İngiltərənin Birminhem şəhərində iyunun 1-dək 11-dək gənclərin Avropa birinciliyində də Azərbaycan 10 boksçu ilə təmsil olunmuşdur. Bu yarışda isə komandamızın medal qəhrəmanı yeniyetmələr arasında Avropa birinciliyinin ikiqat mükafatçısı Sahib Bağırov (63.5 kq) oldu. Finaladək irəliləyən Sahib son nəticədə gümüş medala layiq görüldü. Azərbaycan isə komanda hesabında 35 komanda arasında 6-8-ci yerləri bölüşdürmüşdür.

1997-ci ilin iyul ayı Azərbaycanın yeniyetmə boksçuları üçün uğurlu ay olmuşdur - desək yanılmarıq. Makedoniyanın Bitola şəhərində keçirilən qitə birinciliyində mübarizə aparan 186 idmançıdan 8-i ölkəmizin təmsilçisi idi. Həmin yarışın 48 kq çəki dərəcəsində final görüşü idmanda bəzən çirkin oyunların baş verdiyinin əyani sübutudur. Belə ki, finalda həmyerlimiz Rüfət Hüseynov yerli idmançı F.Salexlə döyüşə inamla başlamışdı. III raundun başa çatmasına 20 saniyə qalmış hakim kompüter sisteminin göstəricisinə əsasən üstünlüyün 8:1 hesabı ilə Azərbaycan idmançısının xeyrinə olduğunu göstərirdi. Lakin qələbəni yerli idmançıya verməyi qərarlaşdıran hakimlər çirkin əməllərə əl atmaqdan belə çəkinmədilər. Elektrik cərəyanını bəhanə gətirən hakimlər kompüter sisteminin nəticələrini pozdu və baş hakimlər kollegiyası qələbəni yerli boksçuya verdilər. Bu da həmyerlimizin qızıl medaldan məhrum olunması və gümüşlə kifayətlənməsi ilə nəticələndi. 51 kq çəki dərəcəsində yarışan Fərhad Acalov da finaladək irəliləyə bilmişdi. Həlledici döyüşdə Ukrayna boksçusuna məğlub olan Fərhad gümüşlə kifayətlənməli oldu. Digər boksçumuz Orxan Sofiyev (63 kq) da birinciliyin gümüş medalını qazanmışdır. Boksçularımızın gümüş nailiyyətini 66 kq çəkidə yarışan Cavid Tağıyev də təkrarlamışdır. Nəticədə Azərbaycan 30 ölkə arasında ümumi hesabda 4-cü yeri tutmuşdur.

İranın Abadan şəhərində sentyabrın 23-dən 27-dək keçirilən beynəlxalq turnirdə iştirak edən 8 boksçumuzdan 6-sı Vətənə medallarla qayıtmışdır. Elxan Həsənov (51 kq) keçirdiyi hər üç görüşü qələbə ilə başa vuraraq qızıl medala layiq görülmüşdür. Rüfət Məmmədov (48 kq), Tofiq Əhmədov (60 kq) və Rüfət Aslanov (67 kq) gümüş, İl-

ham Hüseynov (57 kq) və İrşad Alxasov (63.5 kq) isə bürünc medal qazandılar.

1998-ci ildə də Azərbaycan boksçularının ilk səfəri, bir il öncə olduğu kimi, qonşu İrana olmuşdur. Fevral ayında Tehranda keçirilən İran İslam Respublikasında inqilaba həsr olunmuş beynəlxalq turnirdə 8 idmançımız iştirak etmişdir. 54 kq çəkidə Zaur Vəkilov gümüş, Rüfət Məmmədov (48 kq) və Tofiq Əhmədov (60 kq) isə bürünc medallar qazanmışlar. Tehran turniri ilə yeni ərəfədə digər qonşumuz Türkiyədə keçirilən beynəlxalq turnir isə Avropa çempionatına seçmə xarakteri daşıyırdı. Belə ki, 1997-ci ildən başlayaraq Avropa Həvəskar Boks Assosiasiyasının (EABA) tətbiq etdiyi yeniliyə əsasən qitə çempionatında idmançıların iştirakı üçün 8 beynəlxalq yarış təsdiq edilmişdir.

4 boksçumuzun mübarizə apardığı İstanbul turniri də belə turnirlərdən biri idi. Lakin həmin yarışda boksçularımız uğurlu nəticə göstərə bilməmişlər. Lakin mart ayında İtaliyanın Venetsiya şəhərində təşkil edilən bu tipli digər yarışda 18 yaşlı boksçumuz S.Bağırov (63.5 kq) bürünc medal qazanmaqla bərabər həm də Avropa çempionatında iştirak hüququ qazanmışdır. Digər boksçumuz, dünya bürüncünün sahibi Əli İsmayılov isə bu vəsiqəni daha böyük qələbə ilə - qızıl medalla qazanmışdır.

May ayında Saratov şəhərində keçirilən beynəlxalq turnirdən Fərhad Acalov (54 kq) və Etibar Tağıyev (60 kq) Vətənə qızıl medallarla qayıtmışlar.

Həmin ərəfədə dörd gün davam edən Dağıstan beynəlxalq turnirində isə Şahin İmranov, Fuad Aslanov və Yadulla Cəlilov yarımfinaladək irəliləyərək bürünc medallar qazanmışlar.

1998-ci ilin ən mötəbər yarışı olan Avropa çempionatında ölkəmizi iki boksçu - Sahib Bağırov (63.5 kq) və Əli İsmayılov (81 kq) təmsil etmişlər. Lakin nə Sahib, nə də ki, Əli ümidləri doğrulda bilməmişlər.

Onlardan fərqli olaraq yeniyetmə boksçularımızın həmin il qitə birinciliyindəki çıxışını uğurlu saymaq olar. Latviyanın Yurmala şəhərində avqustun 22-də start götürən yarışda 29 ölkənin 200 yeniyetmə idmançısı mübarizəyə qoşulmuşdu və bunların 13-ü Azərbaycanı təmsil edirdi. Bir il öncəki uğurunu təkrarlayan Fərhad Acalov (54 kq) yenə finaladək yüksələrək gümüş medal qazanmışdır. Digər boksçumuz Etibar Tağıyev (60 kq) bürünc me-

dalla kifayətlənməli olsa da, daha bir boksçumuz Murad Çupalayev Azərbaycana gətirilən medalların tam dəst olmasına nail ola bilmişdir. 69 kq çəki dərəcəsində bütün rəqiblərini əzişdirən Murad fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır.

Həmin il sentyabrın 23-27-də, Yay Olimpiya Oyunlarının vətəni, Yunanıstan paytaxtı Afinada ilk dəfə Avropa Kuboku yarışı təşkil edilmişdi. Azərbaycanı təmsil edən 7 boksçudan 3-ü medal qazanmışdır. Rüfət Məmmədov (48 kq), Xavaja Xatsiqov (51 kq) və Əli İsmayılov (81 kq) yalnız yarımfinal döyüşlərini xal hesabı uduzaraq fəxri kürsünün üçüncü pilləsinə layiq görülmüş və bürünc medallarla təltif edilmişlər.

Oktyabrın 20-dən 25-dək Pakistanın Karaçi şəhərində keçirilən beynəlxalq boks turnirində Z.Vəkilov (57 kq) və Ə.İsmayılov (81 kq) bürünc medallara layiq görülmüşlər.

1999-cu ildə AİBA prezidenti Ənvər Çoudrinin şərəfinə Bakıda təşkil edilən beynəlxalq boks turniri Azərbaycan boksçuları üçün uğurla nəticələnmişdir. Boks məktəbimizin yetirmələri A.Bayramov, F.Acalov, İ.Rüstəmov, S.Bağırov, C.Tağıyev, V.Ələkbərov, A.Məmmədov, R.Süleymanov və A.Kərimov uğurla çıxış edərək turniri qələbə ilə başa vurmuşlar.

Həmin il ölkəmizdə keçirilən yeniyetmələrin qitə birinciliyində isə Etibar Tağıyev, Ruslan Əlimuradov, Əlibəy Dudayev və Seymur Qurbanov fəxri kürsünün ən yüksək pilləsinə qalxmışlar. Aynutdin Abdullayev gümüş, Emil Məhərrəmov, Kazbek Məhəmmədov, Elnur Hacıyev və Amil Kərimov bürünc medallara layiq görülmüşlər.

Xorvatiyada keçirilmiş gənclərin Avropa birinciliyində isə Şahlar Nağıyev bürünc medal qazanmışdır.

ABŞ-ın Hyuston şəhərində təşkil edilən dünya çempionatında da Azərbaycan medalsız qalmamışdır. Əli İsmayılov yalnız finalçılardan geri qalaraq bürünc medal qazanmışdır.

2000-ci ildə AİBA prezidenti Ənvər Çoudrinin şərəfinə keçirilən ənənəvi beynəlxalq turnirdə boksçularımızdan V.Əmrahov, Ş.Nağıyev, E.Məhərrəmov, E.Zülfüqarov, A.Mirzəyev, E.Hacıyev, Ə.Dudayev, A.Kərimov uğurla çıxış edərək qələbə qazanmışlar.

Finlandiyanın Tampere şəhərində təşkil edilmiş Avropa çempionatında isə Əli İsmayılov bürünc medala layiq görülmüşdür.

Macarıstan paytaxtı Budapeştdə isə gənclərin dünya çempionatında boksçularımızdan Fərhad Acalov qızıl, Ruslan Məhəmmədov isə bürünc medal qazanmışlar.

Azərbaycan boksu həmin ildə ən böyük uğurunu isə XX əsrin son Olimpiya Oyunlarında qazanmışdır. Avstraliyanın Sidney şəhərində keçirilmiş bu mötəbər yarışlarda boksumuzun şərəfini M.Nuritdinov, R.Xairov, V.Ələkbərov, Ə.İsmayılov və M.Arifhacıyev qorumuşlar. 75 ölkədən 310 boksçunun mübarizə apardığı boks yarışlarında gənc boksçumuz Vüqar Ələkbərov yarımfinaladək irəliləyərək Olimpiya bürüncünə layiq görülmüşdür. Digər boksçumuz Ruslan Xairov isə fəxri 5-ci yeri tutmuşdur. Qeyd etmək lazımdır ki, Vüqarın qazandığı bürünc Azərbaycan boksu tarixində ilk Olimpiya medalı idi.

2000-ci ilin oktyabr ayında gənc boksçularımız Dağıstanda keçirilən beynəlxalq turnirdə 2 qızıl, 4 gümüş və 4 bürünc medal qazanmışlar.

Sentyabrın 9-12 aralığında Rusiyanın Həştərxan şəhərində Xəzərətrafı ölkələrin tələbə festivalı keçirilmişdir. Bu yarışlarda boksçularımız 2 gümüş və 2 bürünc medal qazanmışlar.

2001-ci ildə tanınmış idman xadimi Abbas Ağalarovun xatirəsinə həsr edilmiş beynəlxalq turnirdə Azərbaycan boksçularından E.Quliyev, Ə.Vəlişov, A.Əliyev, R.Quliyev, R.Yusifov, E.Tağıyev, R.Bəylərov, R.Əlimuradov, F.Quliyev və A.Kərimov uğurla yarışaraq öz çəkilərində qalib adını qazanmışlar.

2001-ci ildə ilk dəfə olaraq yeniyetmələr arasında dünya birinciliyi təşkil edildi. Ölkəmiz üçün əlamətdar idi ki, bu yarışın keçirilməsi məhz Azərbaycana həvalə edilmişdi. Bu da Azərbaycan boksunun ildən-ilə beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinin məntiqi nəticəsi idi. Bakıda təşkil edilən ilk dünya birinciliyi boksçularımız üçün də uğurlu oldu. Aslan Bayramov və Emil Məhərrəmov bütün rəqiblərinə qalib gələrək qızıl medallara layiq görüldülər. Digər boksçularımız - E.Əlizadə, T.Nağıyev, E.Qədirov, Z.Teymurov ikinci, E.İsmayılov, E.Quliyev, N.Məmmədov və R.Xayırbəyov isə üçüncü yerləri tutaraq ölkəmizin komanda hesabında II yeri tutmasına nail oldular.

Həmin il İstanbulda Əhməd Comərtin xatirəsinə keçirilən ənənəvi beynəlxalq turnirdə isə dörd boksçumuz - R.Hüseynov, N.Aydınov, V.Ələkbərov və Ə.Ağayev bü-

rünc medallar qazandılar.

İngiltərənin Liverpul şəhərində təşkil edilən yeniyetmələrin qitə çempionatından vətənə boksçularımız 5 medalla qayıtmışlar. Zaur Teymurov gümüş, Faiq Həsənov, Bəhruz Babayev, Fərid Əsədullayev və Namiq Dadaşov isə bürünc medallara sahib çıxmışlar.

İrlandiyanın Belfast şəhərində böyüklər arasında keçirilən dünya çempionatında 7 boksçumuzun iştirakı təmin olunsa da onlar bu dəfə ümidləri doğrulda bilməmişlər.

2002-ci ildə İstanbulda Türkiyə Boks Federasiyasının sabiq prezidenti Əhməd Comərtin xatirəsinə təşkil edilən beynəlxalq turnirdə Azərbaycan boksçuları 5 medal əldə etdilər. 20 ölkədən 209 idmançının iştirak etdiyi turnirdə həmyerlilərimizdən Rövşən Hüseynov qızıl, Ruslan Xairovla Əli İsmayılov gümüş, Ceyhun Abiyevlə Şahin İmranov isə bürünc medallar qazandılar.

Macarıstanın Budapeşt şəhərində yeniyetmələrin növbəti dünya birinciliyində E.Qədirov birinci, E.Əlizadə ilə Z.Teymurov isə üçüncü yerləri tutmuşlar.

Tailandda təşkil edilən "Kral kuboku" beynəlxalq turnirində Ağası Məmmədov və Vüqar Ələkbərov bürünc medallar əldə etmişlər.

Rusiyanın Perm şəhərində keçirilən qitə çempionatında gənc boksçumuz Şahin İmranov finala yüksələrək gümüş medala layiq görülmüşdür.

Ukraynanın Lvov şəhərində yeniyetmələrin Avropa birinciliyində Elçin Əlizadə və Cəbi Sailov qızıl, Rahib Bəylərov gümüş, Tural Nağıyev, Turab Məmmədov və Elşən İsmayılov isə bürünc medal qazanmışlar.

İrlandiyanın Dublin şəhərində hərbçilərin dünya birinciliyindən Vətənə Əli İsmayılov qızıl, Şahin İmranov isə bürünc medalla dönmüşlər.

İran paytaxtı Tehranda keçirilən beynəlxalq turnirdə Ceyhun Abiyev və Rəşad Süleymanov fəxri kürsünün ən yüksək pilləsinə qalxmış, Şahin İmranovla Nəsimi Aydınov isə öz çəkilərində üçüncü yerləri tutmuşlar. Digər boksçumuz Zaur Teymurov isə Rusiyanın Volqoqrad şəhərində keçirilən beynəlxalq turnirdə üçüncü yeri tutmuşdur. Mahaçqala şəhərində təşkil edilmiş digər beynəlxalq turnirdə Orxan Sofiyevlə Şahin İmranov birinci olmuşlar. Bundan başqa Rüstəm Səmədov ikinci, Sahib Bağırov, Azər Məmmədov, Ruslan Mukayev və Amil Kərimov isə üçüncü yerləri tutmuşlar.

Ukraynanın Sevastopol şəhərində keçirilən beynəlxalq turnirdə Emil Məhərrəmov gümüş, Aslan Bayramovla Romal Amanov bürünc medallar qazanmışlar.

Yeniyetmə boksçularımız Rusiyanın Kaspiysk şəhərində təşkil edilmiş beynəlxalq turnirdə uğurla çıxış etmişlər. Natiq Alışov birinci, Elşən İsmayılov, Qalib Cahangirov və Taleh Qubatov ikinci, Ağasəf Qəmbərovla Ruslan Dadaşov üçüncü yerləri tutmuşlar.

Rusiyanın Saratov şəhərində təşkil edilmiş beynəlxalq turnirdə Famil Süleymanov, Namiq Hüseynov və Elmuraz Orucov qalib gəlmişlər. O.Hüseynov, E.Ağayev, E.İsmayılov və R.Hüseynov ikinci, N.Cəbrayılov, Q.Cahangirov, A.Bayramov və E.Zülfüqarov isə üçüncü olmuşlar.

2002-ci ildə neft istehsal edən ölkələrin Rusiyanın Nijnevartovsk şəhərində təşkil edilmiş dünya kuboku yarışında Ağası Məmmədov, Əli İsmayılov və Cavid Tağıyev bürünc medallara layiq görülmüşlər.

Bakıda A.Ağalarovun xatirəsinə həsr edilmiş beynəlxalq turnirdə boksçularımızdan T.Qubadov, F.Quliyev, T.Quliyev, R.Nəcəfov, F.Süleymanov, E.İsmayılov, N.Cəbrayılov, N.Alışov və T.Əsgərov öz çəkilərində qalib adını qazanmışlar.

Qazaxıstanın paytaxtı Astanada keçirilən dünya kuboku yarışlarında Avropa qitəsini Rusiya, Rumıniya, Türkiyə və Azərbaycan yığma komandaları qorumuşlar. Kuba, ABŞ, Meksika (Amerika qitəsi), Qazaxıstan, Cənubi Koreya, Tailand (Asiya qitəsi) Avstraliya (Avstraliya və Okeaniya qitəsi), Kamerun (Afrika qitəsi) kimi ölkələrin mübarizə apardığı yarışda Azərbaycan boksçuları 5-ci yeri tutmuşlar.

Bakıda AİBA prezidenti Ə.Çoudrinin şərəfinə təşkil edilən ənənəvi beynəlxalq boks turniri 2002-ci ildən etibarən böyüklər arasında təşkil edilməyə başlamışdır. Boksçularımızdan Ş.İmranov, R.Hüseynov, E.Məhərrəmov, V.Ələkbərov, V.Amanov və R.Süleymanov turnirin qalibləri adını qazanmışlar.

2002-ci ildə Bakıda daha bir beynəlxalq turnir gənclər arasında təşkil edilmiş və bu yarışda boksçularımızdan E.Quliyev, R.Amanov, R.Həsənov, E.Məhərrəmov, Z.Teymurov qələbə qazanaraq ölkəmizin şərəfini yüksək tutmuşlar.

Bu turnirdə ayrıca olaraq yeniyetmələr arasında da yarış təşkil edilmişdir. T.Məmmədov, N.Hüseynov, O.Hü-



*ABŞ. Azərbaycan prezidenti Heydər Əliyev boksçularımız Emil və Rüfət İsrafilbəyov qardaşları ilə birlikdə*

seynov, E.Vəliyev, F.Həsənov, R.Quliyev, H.Vəliyev, R.Bəylərov, E.Əlizadə, C.Sailov və N.Əkbərov rinqi qalib kimi tərk etmişlər.

Azərbaycan boksunun yetirməsi Emil İsrafilbəyov neçə illərdir ki, ABŞ-da peşəkar boksla məşğul olaraq bu tipli yarışlarda Azərbaycanın şərəfini qoruyur. 2002-ci ildə ABŞ-ın Şimali Karolina ştatından olan peşəkar boksçu Şakir Aşanteyə qarşı döyüşün 4-cü raundunda Emil rəqibinə nokautla qalib gəlmişdir. Bu həmyerlimizin peşəkar rinqdə 22-ci qələbəsi idi. Maraqlıdır ki, Emilin bu qələbələrinin 16-sı nokautla əldə edilib.

2003-cü ildə Rumıniya paytaxtı Buxarestdə yeniyetmələrin dünya birinciliyində ölkəmizin şərəfini qoruyan boksçulardan Samir Məmmədov birinci, Turab Məmmədov ikinci, Elşən İsmayılov, Elşah Nadirov və Elçin Əlizadə üçüncü yerləri tutmuşlar. Litvanın Kaunas şəhərində keçirilmiş yeniyetmələrin qitə birinciliyində isə Elşah Nadirovla Elçin Əlizadə birinci, Rəhim Nəcəfov, Nurlan Məmmədov, Cəbi Sailov ikinci, Turab Məmmədov, Elşən İsmayılov və Natiq Cəbrayılov isə üçüncü yerləri tutmuşlar.

2003-cü il Azərbaycan boks tarixinə ən əlamətdar illərdən biri kimi yazılmışdır. Belə ki, tarixdə ilk dəfə boksçumuz dünya çempionu tituluna yiyələnmişdir. Bu tarixi nailiyyəti Ağası Məmmədov Tailandda keçirilən dünya



*Dünya çempionu Ağası Məmmədov*

çempionatında qazanmışdır. Bundan başqa daha iki boksçumuz Tofiq Əhmədov və Ruslan Xairov bürünc medallara layiq görülmüşlər.

Bakıda AİBA prezidenti Ə.Çoudrinin şərəfinə ənənəvi boks turnirində Ceyhun Abiyev, Ağası Məmmədov, Rövşən Hüseynov, Fərhad Acalov, Tofiq Əhmədov, Ruslan Xairov və Əli İsmayılov birinci yerləri tutmuşlar.

Həmin il boksçularımızdan Fərhad Acalov Rusiyanın Sankt-Peterburq şəhərində keçirilmiş beynəlxalq turnirdə üçüncü, Emil Məhərrəmov isə Volqoqrad şəhərindəki turnirdə ikinci yerləri tutmuşlar.

Ukrayna paytaxtı Kiyevdə hərbçilərin beynəlxalq turnirində Ceyhun Abiyev birinci, Şahin İmranovla Cavid Tağıyev ikinci, Ramil Allahverdiyev, Seymur Qurbanov və Amil Kərimov isə üçüncü yerləri tutmuşlar.

Gürcüstanda keçirilən turnirdə Turab Məmmədov birinci, Samir Məmmədovla Kənan Məhərrəmov ikinci, Ravil Quliyevlə Elşən Zülfüqarov isə üçüncü yerləri tutmuşlar.

Estoniyada keçirilmiş beynəlxalq turnirdə Şahin İmranov birinci yeri tutmuşdur. Şahinin bu uğurunu Romal Amanov Rusiyanın İzberbaş şəhərindəki beynəlxalq turnirdə təkrarlamış, E.Quliyevlə S.İsmayılov isə üçüncü yerləri tutmuşlar.

Türkiyənin İstanbul şəhərindəki beynəlxalq turnirdə Əli İsmayılovla Ruslan Xairov qızıl medallara layiq görülmüşlər. Həmin turnirdə digər boksçularımızdan Aslan Bayramov, Cavid Tağıyev, Vüsal Amanov ikinci, Ceyhun Abiyev, Rövşən Hüseynov və Şahin İmranov üçüncü yerləri tutmuşlar.

Yunanıstan paytaxtı Afinada təşkil edilmiş beynəlxalq turnirdə Əli İsmayılov qızıl, Ağası Məmmədov isə bürünc

medal qazanmışlar.

Ukraynanın Berdiçev şəhərində keçirilmiş beynəlxalq turnirdə 5 boksçumuz - E.Quliyev, E.Məhərrəmov, A.Bayramov, K.Qədimov və Z.Teymurov öz çəki dərəcələrində üçüncü yerləri tutmuşlar.

Həmin il Polşanın Varşava şəhərində təşkil edilmiş gənclərin Avropa birinciliyindən Rahib Bəylərovla Elnur Qədirov vətənə gümüş medallarla qayıtmışlar.

Pakistanın Kəraçi şəhərindəki beynəlxalq turnirdə Orxan Sofiyev, Cavid Tağıyev, Vüqar Ələkbərov ikinci, Ceyhun Abiyev, Nəsimi Aydınov və Əli İsmayılov isə üçüncü olmuşlar.

2004-cü ilə Azərbaycan boksçuları Macarıstanın Debresen şəhərində keçirilən beynəlxalq turnirdə qüvvələrini yoxlamaqla başlamışlar. Həmin turnirdə Ağası Məmmədov (57 kq) birinci, Ceyhun Abiyev isə (48 kq) ikinci yerləri tutmuşlar.

2004-cü il Olimpiya ili olduğu üçün Azərbaycan boksçularının iştirak etdikləri yarışlarda əsas məqsədləri Afina Olimpiadasına lisenziya uğrunda mübarizə aparmaq olmuşdur. Bu məqsədlə də fevral ayından başlayaraq boksçularımız Afina Olimpiadasına lisenziya verən turnirlərdə, eləcə də qitə çempionatında yarışmışlar.

Fevralın 19-dan 29-dək Xorvatiyanın Pula şəhərində keçirilmiş qitə çempionatında boksçularımızdan Ruslan Xairov (69 kq) və Cavid Tağıyev (75 kq) bürünc medalları qazanmaqla bərabər Olimpiya Oyunlarına lisenziyalarını da əldə etmişlər.

Bu arada, fevralın 23-dən 28-dək Rusiyanın Volqoqrad şəhərində gənclər arasında keçirilən beynəlxalq turnirdə 81 kq çəki dərəcəsində Zaur Teymurov və 91 kq çəkidə Elçin Əlizadə fəxri kürsünün 3-cü pilləsinə yüksəlmişlər.

Polşanın paytaxtı Varşavada (29 mart-4 aprel) təşkil edilən lisenziya turnirində Vüqar Ələkbərov (91 kq) bütün rəqiblərinə qalib gələrək turnirin qalibi adını qazanmış, Şahin İmranov isə yalnız final mübarizəni dayandıraraq gümüş medala layiq görülmüşdür. Nəticədə hər iki boksçumuz Afina Olimpiadasına lisenziya qazanmışlar.

Aprelin 19-dan 26-dək boksçularımız Bolqarıstanın Plovdiv şəhərində və İsveçin Geteborq şəhərlərində eyni vaxtda müxtəlif çəki dərəcələri üzrə lisenziya turnirlərində yarışmışlar. 60 kq çəki dərəcəsində Rövşən Hüseynov

Bolqarıstanda, 51 kq çəkidə Fuad Aslanov isə İsveçdə Olimpiya lisenziyalarını qazanmışlar. Qeyd edək ki, hər iki boksçumuz yalnız finalda məğlub olaraq gümüş medallara layiq görülmüşlər.

Gənc boksçularımız Nəsimi Aydınov (69 kq), Rəşad Abbasov (81 kq) və Cahangir Ələsgərov (57 kq) aprelin 25-dən 29-dək Kiyevdə Ukrayna Silahlı Qüvvələrinin açıq birinciliyində öz qüvvələrini sınamışlar. Bu yarışda Rəşadla Nəsimi gümüş, Cahangir isə bürünc medallara layiq görülmüşlər.

Gənc boksçularımız Türkiyənin İstanbul şəhərində Əhməd Comərtin xatirəsinə həsr edilən ənənəvi beynəlxalq turnirdə daha uğurla çıxış etmişlər. Belə ki, Nicat Əkbərov (81 kq) və Elçin Əlizadə (91 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxmış, Firdovsi Quliyev (+91 kq) gümüş, Zaur Teymurov (81 kq), Elnur Qədirov (75 kq), Tural Nağıyev (64 kq), Rahib Bəylərov (69 kq), Elşən İsmayılov (54 kq) və Ravil Quliyev (60 kq) isə bürünc medallara layiq görülmüşlər.

Avropadan Afina Olimpiya Oyunlarına lisenziya verən sonuncu beynəlxalq turnir aprelin 27-dən mayın 2-dək Bakıda təşkil edilmişdir. Ə.Çoudrinin şərəfinə keçirilən bu ənənəvi turnirdə 4 boksçumuz mübarizə aparmışdır. Ceyhun Abiyev (48 kq), Ağası Məmmədov (54 kq) və Əli İsmayılov (81 kq) turnirin qalibi adını qazanaraq olimpiadaya lisenziya əldə etmişlər. Digər boksçumuz İlqar Məmmədov (+91 kq) isə üçüncü yerə layiq görülmüş və lisenziya qazana bilməmişdir.

Yeniyetmə boksçularımız isə Dağıstanın Pervomaysk şəhərində beynəlxalq turnirdə uğurla çıxış etmişlər. Mayın 24-29-u aralığında keçirilən bu yarışda Araz Səfərzadə (36 kq), Anar Babayev (46 kq) və Orxan Mustafayev (54 kq) fəxri kürsünün ən yüksək pilləsinə yüksəlmişlər. Elşən Nəbiyev (58 kq) və Elvin Novruzov (38 kq) isə gümüş medallara layiq görülmüşlər.

Həmin ərəfədə, mayın 23-dən 30-dək Yunanıstan paytaxtı Afinada olimpiya oyunlarına hazırlıq məqsədilə boks turniri keçirilmişdir. 69 kq çəkidə yarışan idmançımız Ruslan Xairov finaladək yüksəlmiş və yalnız həlledici görüşdə uduzmuşdur.

İyunun 11-dən 20-dək Koreyanın Cecu şəhərində gənclərin dünya birinciliyində dörd boksçumuz - Elşən İsmayılov (54 kq), Elnur Qədirov (75 kq), Zaur Teymurov

(81 kq) və Elçin Əlizadə (91 kq) vətənə bürünc medallarla qayıtmışlar.

Digər boksçumuz Fərhad Acalov (60 kq) iyulda Ukraynanın Dnepropetrovsk şəhərində təşkil edilmiş beynəlxalq turnirin qalibi olmuşdur. Fərhad bu uğurunu bir daha bir ay sonra Qazaxıstanın Aktau şəhərində keçirilmiş beynəlxalq turnirdə təkrarlamışdır. 64 kq çəkidə döyüşən Aslan Bayramov isə həmin turnirin gümüş medalını qazanmışdır.

Dağıstanın İzberbaş şəhərindən 5 boksçumuz ölkəmizə medallarla qayıtmışdır. Bu turnirdə Emil Məhərrəmov (64 kq) və Amal Ramanov (60 kq) qızıl, Aslan Bayramov (64 kq), Elşad Quliyev (51 kq) və İlqar Məmmədov (+91 kq) isə bürünc medallara layiq görülmüşlər.

Gənc boksçumuz Fərhad Acalov sentyabrın 8-dən 12-dək Qazaxıstanın Jourkənd şəhərində keçirilən beynəlxalq turnirdə öz çəkisində qızıl medal qazanmaqla üç ay dalbadal eyni uğuru təkrarlamış oldu. Həmin turnirdə digər boksçumuz Rüstəm Səmədov 81 kq çəkinin bürünc medalını qazanmışdır.

Sentyabrın 8-dən 12-dək gənclərimizdən Emil Məhərrəmov Dağıstanın mərkəzi Mahaçqala şəhərində beynəlxalq turnirin qalibi olmuşdur. Namiq Dadaşovla (57 kq), Zaur Teymurov isə (81 kq) isə üçüncü fəxri yerləri tutmuşlar.

Sentyabrın 12-dən 19-dək Rusiyanın Saratov şəhərində yeniyetmələrin Avropa birinciliyində Azərbaycan boksçuları 7 medal əldə etmişlər. 50 kq çəki dərəcəsində Samir Məmmədov qitə çempionu adına layiq görülmüşdür. Bundan başqa Anar Sadıqov (48 kq), Namiq Hüseynov (54 kq), Rüfət Behbudov (63 kq), Natiq Cəbrayılov (60 kq), Rüstəm Şamilov (86 kq) gümüş, Asim İskəndərov (75 kq) isə bürünc medal qazanıblar.

Sözsüz ki, 2004-cü ilin ən böyük idman yarışları məhz avqustda Yunanıstan paytaxtında keçirilmişdir. Azərbaycan boksçuları XXVIII Yay Olimpiya Oyunlarına 9 lisenziya qazanmışlar. Bu isə boks yığma komandamızın Rusiya və Kubadan sonra dünyada üçüncü ən böyük sayda lisenziya qazanan boks komandası idi. Ceyhun Abiyev, Əli İsmayılov və Ağası Məmmədov Bakıda, Fuad Aslanov İsveçdə, Vüqar Ələkbərov və Şahin İmranov Polşada, Rövşən Hüseynov Bolqarıstanda keçirilmiş olimpiya təsnifat turnirlərində, Ruslan Xairovla Cavid Tağıyev isə Xorva-

tiyada keçirilmiş Avropa çempionatında qazanmışlar.

Boksçularımız Afinadakı çıxışlarına uğurla start vermişlər. Belə ki, Olimpiadada yalnız Azərbaycan boks yığma komandasının bütün üzvləri ilk mərhələni itkisiz irəliləyə bilmişdir. 9 boksçumuzun hamısı öz rəqiblərinə qalib gələrək növbəti mərhələyə vəsiqə qazanmışlar. Boks həvəskarlarımıza unudulmaz anlar yaşadan rinq ustalarımız Ağası Məmmədov və Fuad Aslanovun simasında iki bürünc medal qazanaraq Azərbaycan boksu üçün yeni parlaq səhifənin müəlliflərinə çevrilmişlər.

# II FƏSİL



# BOKSÇULARIMIZ SOVET RİNQİNDƏ

## AZƏRBAYCAN BOKSÇULARI SSRİ-nin KOMANDA ÇEMPİONATLARINDA

Azərbaycan boksçuları SSRİ-nin komanda çempionatlarında ilk dəfə 1936-cı ildə iştirak etmişlər. Çempionat həmin ildə Moskvada iki qrupda keçirilmişdir. Birinci qrup yarışlarına ancaq idman ustaları və birinci dərəcəli idmançılar buraxılmışdılar. Yarış dairəvi sistemlə 5 raund, 3 dəqiqədən ibarət olmuşdur. Qrupda birinci yeri tutan idmançılara SSRİ çempionu adı verilirdi.

Azərbaycan yığması bu yarışda Moskva və Leninqrad komandalarına 2:5 hesabı ilə məğlub olmuş, Ukrayna yığmasına 6:2 hesabı ilə qalib gəlmiş və yekunda 5 xal toplayaraq 3-cü yerə layiq görülmüşdür.

1939-cu ildə yarışlar Xarkov və Leninqrad şəhərlərində 25 komandanın iştirakı ilə üç qrup üzrə keçirilirdi. Birinci qrupda Bakı, Kiyev, Leninqrad, Moskva, Tiflis və Xarkov komandaları mübarizə aparırdılar. Yarışlar hər biri 2 dəqiqədən ibarət olmaqla 6 raundda keçirilirdi. Boksçularımız bu dəfə yalnız iki şəxsi qələbə ilə kifayətlənməli olmuş və komandamız 6-cı yeri tutmuşdur.

1945-ci ildə Leninqrad, İvanovo, Sverdlovsk, Tiflis və Moskva şəhərlərində SSRİ-nin komanda çempionatı dörd qrupda keçirilmişdir. Yarışda 13 şəhərin komandası iştirak edirdi. Olimpiya sistemi ilə keçirilən yarışda qruplarda birinci yerləri tutan komandalar final mərhələsində yarışmaq hüququ qazanırdı. İlk qarşılaşmada Azərbaycan boksçularının rəqibləri özbəklər olmuşlar. Ümumi hesab 4:4 olsa da Bakı komandasının qələbələrə rəqiblərindən daha az vaxt sərf etmələri onları növbəti mərhələyə çıxarmışdır. Lakin burada gürcülərə 1:7 hesabı ilə uduzan boksçularımız mübarizəni dayandırmalı olmuşlar.

1946-cı ildə çempionat Moskva şəhərində keçirilmişdir. Bu dəfə də yarışlar 10 komandanın iştirakı ilə olimpiya sistemi üzrə təşkil olunmuşdur. Qazaxıstan idmançılarını 6:2 hesabı ilə məğlub edən Azərbaycan boksçuları

ukraynalılara həmin hesabla uduzaraq mübarizəni dayandırmışlar.

Bakı təmsilçiləri ümumi hesabda 10 komanda arasında 5-ci yeri tutmuşlar.



*Abbas Ağalarov*

1947-ci ildə Moskvada keçirilən SSRİ-nin növbəti şəxsi-komanda birinciliyində hər komandanın tərkibində 8 kişi, 8 yeniyetmə olmaqla 16 nəfər çıxış edirdi. Burada komanda yerləri Moskva, Leninqrad və Sovet İttifaqı respublikaları arasında xalların cəminə görə bölüşdürülürdü. İdmançıların hər qələbəsinə görə komandaya bir xal verilirdi. Finalda qələbəyə görə idmançı 3 xal, finalda məğlub olmuş və ya öz çəki dərəcəsində III yeri tutmuş boksçu 2 xal qazanırdı. Hər iki komanda üçün döyüşün formulası 3x3 idi. Xallar bərabər olduqda kişilər qrupunda daha yaxşı nəticə göstərmiş komandaya üstünlük verilirdi.

Azərbaycan yığma komandası bu birincilikdə kişilərin mübarizəsində 8 xalla 11-ci, yeniyetmələrin yarışında isə 15 xalla 7-ci olmuş və yekun nəticədə 23 xalla 17 komanda arasında 8-ci yeri tutmuşdur.

1949-cu ildə Kaunas şəhərində keçirilən növbəti SSRİ komanda çempionatında keçmiş ittifaqın bütün respublikaları və eləcə də Moskva və Leninqrad komandaları ayrılıqda iştriak edirdilər. Hər komanda 12 nəfərdən ibarət idi. Ən yüngül, yüngülvari, yarımyüngül və yüngül çəki dərəcələrində bir boksçu, qalan çəkilərdə isə 2 idmançı iştirak edirdilər. Komandanın minimal tərkibi müxtəlif çəki-




*Qaradəniz Donanması birinciliyinin qalibi, Azərbaycan boksçusu Əsəd Acalov (sağdan ikinci)*

lərdən ibarət və 8 nəfər olmalı idi. Yarışlara yalnız idman təsnifatı 2-ci dərəcədən yuxarı olan boksçular buraxılırdılar. Komanda xallarını müəyyən etmək üçün əmsal aşağıdakı kimi təyin edilmişdi: 1-ci qrup boksçular üçün (idman ustaları və I dərəcəlilər) - 2, 2-ci qrup boksçular üçün - 1. I və II qrup boksçular öz aralarında görüş keçirirdilər. Xallar idmançıların tutduqları yerlərə görə verilirdi və onlar bərabər olduqda qələbələrə az vaxt sərf etmiş komandaya üstünlük verilirdi.

Çempionatın yekun nəticələrinə əsasən Azərbaycan 18 komanda arasında 20 xalla 13-cü yeri tutdu.

1950-ci ildə Leninqradda keçirilən SSRİ-nin komanda çempionatında rinq sahibləri və Moskva komandaları ilə yanaşı bütün müttəfiq respublikalar iştirak edirdilər. Yalnız Türkmənistan boksçuları yarış iştirakçıları arasında yox idilər. Hər komandanın tərkibində 8 nəfər mübarizə aparırdı. Çempionatın qaydalarına əsasən komandalar ikinci məğlubiyyətdən sonra yarışı tərk edirdi. Qələbəyə görə komandaya 2 xal, məğlubiyyətə görə 1 xal verilirdi. Çəkisində olmayan və ya rinqə çıxmayan idmançıya görə xal verilmirdi. Xallar bərabər olduqda qələbələrə az vaxt sərf etmiş komanda üstünlük qazanırdı.

Yekun nəticədə Azərbaycan yığma komandası 6 qələbə ilə 17 komanda arasında Ermənistanla birlikdə 9-10-cu yerləri bölüşdürmüşdülər.

1952-ci ildə Moskvada keçirilmiş növbəti çempionatda 14 komandadan 200 idmançı iştirak edirdi ki, onların da çoxusu 18-20 yaşlı gənclər idi. Hər komanda tərkibinə 15 idmançı daxil etmək hüququna malik idi.



*Litva - Azərbaycan görüşü. T.Babanlı hücumda*

Yekun nəticədə Azərbaycan boksçuları 8 qələbə ilə 8-ci yeri tutmuşdular.

Növbəti çempionat da 1954-cü ildə Moskva şəhərində keçirildi. Bir komandanın digəri üzərindəki qələbəsi idmançıların qazandığı xalların cəminə görə müəyyən edilirdi. Məğlubiyyətə görə 1, qələbəyə görə 2, ağır çəkidə qələbəyə görə isə 3 xal verilirdi. Hər hansı komandanın ikinci məğlubiyyəti onun yarışı tərk etməsi demək idi. Yarışın nəticələrinə əsasən 8 qələbə qazanan Azərbaycan idmançıları 16 komanda arasında 13-cü yeri tutdular.

1958-ci il SSRİ çempionatı Azərbaycan üçün xüsusilə əlamətdar idi. Həmin il yarışlar Bakıda və Kişinyovda təşkil edildi. Komanda birinciliyinin nəticələri iki şəxsi-komanda yarışlarının (17-18 yaşlı yeniyetmələrin və 19-20 yaşlı gənclərin) yekununa əsasən müəyyən edilirdi. Gənclərimiz 9-cu, yeniyetmələrimiz isə 8-ci oldular. Ümumi nəticəyə əsasən Azərbaycan 8-ci yeri tutdu.

1965-ci ildə Bakı, Tallin və Kiyev şəhərlərində keçirilən SSRİ komanda çempionatında gənc idmançılar mübarizə aparmışlar. İlkin yarışlar olimpiya sistemi, final mərhələsi isə dairəvi sistem üzrə keçirilirdi. Final mərhələsinə ilkin yarışların qalibləri və eləcə də SSRİ xalqlarının spartakiadasında ilk iki yeri tutmuş Moskva və RSFSR komandaları buraxılırdılar.

İlkin mərhələdə gürcülərə və leninqradlılara eyni hesabla (7:3) qalib gələn Azərbaycan boksçuları final mərhələsinə vəsiqə uğrunda həlledici görüşdə Ermənistan idmançılarını 7:2 hesabı ilə məğlubiyyətə uğratdılar.

Kiyevdə keçirilən final mərhələsində xal toplaya bilməyən boksçularımız yekunda 4-cü oldular.

1969-cu ilin noyabrında Alma-Ata və Kuybışev şəhərlərində keçirilən SSRİ çempionatında da yarışlar ilkin və final mərhələsi üzrə keçirildi. SSRİ Boks Federasiyasının qərarına əsasən həmin il Sovet xalqlarının spartakiadasında ilk beş yeri tutmuş komandalar - RSFSR, Ukrayna, Moskva, Leninqrad və Özbəkistan komandaları ilkin yarışlardan azad edilmişdilər. Alma-Ata şəhərində Qazaxıstan komandasına məğlub olan Azərbaycan boksçuları mübarizəni dayandırmalı olmuşlar.

1973-cü ilin oktyabr ayında Bakı və Daşkənd şəhərlərində SSRİ kuboku yarışları keçirilmişdir. Yarışlar iki qrupda təşkil olunmuşdu. 8 komandanın 2 yarımqrupda mübarizə apardığı "A" qrupunda özbəklər 1-ci, ukraynalılar 2-ci, RSFSR isə 3-cü oldular. Bakıda təşkil olunan "B" qrupunda isə komandalar 9-17-ci yerlər uğrunda mübarizə aparırdılar. Azərbaycan boksçuları Leninqrad (17:16) və Gürcüstan (17:15) komandalarına qalib gələrək finala çıxdılar. Finalda isə Litva yığmasını 17:14 hesabı ilə məğlubiyyətə uğratdılar. Yarımfinalda gürcülər qırğızları məyus etdilər.



**Azərbaycan boksçuları SSRİ xalqlarının spartakiadalarında**

| İL | XAL | KOMANDA YERİ |
|---|---|---|
| 1956 | 91 | 11 |
| 1959 | 76 | 11 |
| 1963 | 82 | 11 |
| 1967 | 49.5 | 17 |
| 1971 | 7.5 | 14 |
| 1975 | 30 | 16 |

**SSRİ xalqlarının spartakiadalarında mükafat qazanmış Azərbaycan boksçuları**

| İL | İDMANÇI | YER |
|---|---|---|
| 1959 | Yevgeni Melçin | III |
| 1963 | Zərbayıl Yusifov | III |
| 1963 | Yevgeniy Sekaçov | II |
| 1971 | Andrey Sayankin | III |
| 1987 | Alik Yeltsov | III |

**Yeniyetmələr arasında SSRİ birinciliklərində qalib gəlmiş Azərbaycan boksçuları**

| İL | İDMANÇI | ÇƏKİ |
|---|---|---|
| 1956 | Oqtay Hüseynov | 54 |
| 1956 | Veniamin Qasso | 63 |
| 1986 | Zahid Mehdiyev | 50 |
| 1990 | Rövşən Hüseynov | 44 |
| 1990 | Ədalət Məmmədov | 91+ |
| 1991 | Rövşən Hüseynov | 46 |

**SSRİ birinciliklərində Azərbaycan boksçularının nəticələri**

| İL | YER | İL | YER |
|---|---|---|---|
| 1946 | 5 | 1959 | 11 |
| 1947 | 7-8 | 1963 | 11 |
| 1949 | 13 | 1965 | 4 |
| 1950 | 9-10 | 1967 | 17 |
| 1952 | 8 | 1969 | - |
| 1954 | 13 | 1971 | 14 |
| 1956 | 11 | 1973 | 9 |
| 1958 | 8 | 1975 | 16 |

**Azərbaycanın yeniyetmə boksçuları SSRİ-nin şəxsi komanda birinciliklərində**

| İL | YER | İL | YER |
|---|---|---|---|
| 1947 | 7 | 1954 | 14 |
| 1948 | 10 | 1967 | 13 |
| 1949 | 11 | 1968 | 9 |
| 1950 | 11 | 1967 | 18 |
| 1951 | 6 | 1968 | 12-14 |
| 1952 | 10 | 1969 | 13 |
| 1953 | 4 | 1973 | 8 |

Azərbaycan boksçuları gənclərin SSRİ birinciliklərində iki dəfə gümüş, üç dəfə isə bürünc medal qazanmışlar.

**Azərbaycan boksçuları SSRİ Həmkarlar İttifaqları çempionatlarında**

| İL | İDMANÇI | ÇƏKİ |
|---|---|---|
| 1953 | L.Dobrınskiy | I |
| 1958 | T.Babanlı | II |
| 1958 | O.Hüseynov | III |
| 1960 | A.Abiyev | II |
| 1968 | R.Yenikeyev | III |
| 1985 | Q.Məhərrəmov | I |
| 1985 | İ.Bayramov | II |
| 1986 | C.Salayev | II |
| 1986 | M.Əhmədov | III |
| 1987 | M.Ağayev | III |
| 1991 | Ə.Ağayev | III |

## III FƏSİL



# BOKSÇULARIMIZ BEYNƏLXALQ TURNİRLƏRDƏ

## BOKSÇULARIMIZ BEYNƏLXALQ TURNİRLƏRDƏ

Son on il ərzində boksçularımız dünya və Avropa çempionatları, Olimpiya oyunları kimi mötəbər yarışlarla bərabər beynəlxalq turnirlərdə də müntəzəm iştirak ediblər. Bu turnirlər ölkə boksunun perspektivli nümayəndələrinin püxtələşməsinə, onların beynəlxalq boks aləmi ilə təmasdan faydalanmasına böyük kömək göstərmişdir. Müstəqilliyimizin ilk illərində dəri əlcək ustalarımızın belə turnirlərdə iştirak etmək imkanı bir o qədər də geniş deyildi. Ona görə də o dövrdə idmançılarımız il ərzində cəmi bir-neçə turnirdə iştirak edirdilər. Maliyyə vəsaiti olmadığı üçün Azərbaycan boksçuları əsasən yaxın ölkələrdə keçirilən turnirlərə yollana bilirdilər. Buna görə də həmin illər boksçularımızın əsas səfər ünvanları İran, Türkiyə, Dağıstan olurdu.

90-cı illərin əvvəllərində boksçularımızdan Xanlar Mahmudov, Ədalət Ağayev, Ədalət Məmmədov, Əli İsmayılov, Rövşən Hüseynov uğurla çıxış etmişlər. Onu da qeyd edək ki, Azərbaycan boks məktəbi ötən əsrin doxsanıncı illərində öz inkişaf yolunda bu turnirlərdən çox şeyi mənimsəyib.

Doxsanıncı illərin ortalarında, xüsusən İlham Əliyev MOK prezidenti seçildikdən sonra idmana, o cümlədən boksa artan qayğı nəticəsində idmançılarımızın beynəlxalq turnirlər coğrafiyası xeyli genişləndi. Artıq onlar Rusiyanın Sankt-Peterburq, Saratov, Podolsk, Nijnevartovsk, Volqoqrad şəhərlərində, Almaniyada, Çexiyada, Yunanıstanda, Türkiyədə və digər ölkələrdə keçirilən turnirlərin də daimi iştirakçısı oldular.

Bu gün boksumuzun öncülləri sayılan Əli İsmayılov, Vüqar Ələkbərov, Rövşən Hüseynov, Ceyhun Abiyev, Fərhad Acalov, Ağası Məmmədov, Şahin İmranov, Cavid Tağıyev, Fuad Aslanov, Tofiq Əhmədov və başqaları bu turnirlərdə ustalaşmış, təcrübə toplamışlar.

1996-cı ildən isə boksçularımızın özləri böyük bir turnirə ev sahibliyi etməyə başladılar. Beynəlxalq Həvəskar

Boks Assosiasiyasının prezidenti Ənvər Çoudrinin şərəfinə keçirilən bu turnir ildən ilə öz nüfuzunu artırmış və 2004-cü ildə isə Afina Olimpiya Oyunlarına lisenziya verən nüfuzlu turnirlərdən biri olmuşdur.

Azərbaycan boksçularının belə turnirlərdə qazandıqları uğurlar yetərincədir. Son illərdə bu nailiyyətlərin müqayisəsini yüksələn xətlə göstərmək olar. Bunu rəqəmlər də təsdiq edir:

| İl | Turnirlər | Qızıl | Gümüş | Bürünc |
|---|---|---|---|---|
| 1993 | 4 | 0 | 2 | 4 |
| 1994 | 2 | 0 | 1 | 4 |
| 1995 | 2 | 1 | 3 | 1 |
| 1996 | 2 | 5 | 7 | 14 |
| 1997 | 5 | 9 | 13 | 12 |
| 1998 | 4 | 12 | 6 | 11 |
| 1999 | 11 | 20 | 10 | 26 |
| 2000 | 3 | 9 | 10 | 13 |
| 2001 | 7 | 8 | 6 | 18 |
| 2002 | 9 | 25 | 22 | 43 |
| 2003 | 8 | 23 | 20 | 44 |
| 2004 | 16 | 16 | 11 | 20 |
| Cəmi | 73 | 128 | 111 | 203 |



IV FƏSİL

# AZƏRBAYCANDA BEYNƏLXALQ TURNİRLƏR

## ÇOUDRİ TURNİRİ AZƏRBAYCAN İDMANIN YENİ ZİRVƏSİDİR

Beynəlxalq Həvəskar Boks Assosiasiyasının (AİBA) prezidenti Ənvər Çoudrinin şərəfinə keçirilən beynəlxalq Bakı turnirinin təşəbbüskarı Azərbaycanın sabiq prezidenti, ümummilli liderimiz Heydər Əliyevdir. 1995-ci ildə ilk dəfə Bakıda qonaq olan AİBA prezidentini ölkə başçısı qəbul etdi və həmin görüşdə H.Əliyev Ə.Çoudrinin beynəlxalq idman federasiyasına başçılıq edən yeganə müsəlman olduğunu nəzərə alaraq, onun şərəfinə turnir keçirmək təklifini irəli sürdü. Ə.Çoudri bu təklifi böyük məmnuniyyət və minnətdarlıq hissi ilə qarşıladı.

1996-cı ildə ilk dəfə keçirilən bu turnirdə 10 ölkə iştirak etdi. Həmin il turnir dekabrın 18-dən 21-dək davam etdi. Bu turnirdə boksçularımız 4 qızıl, 5 gümüş və 13 bürünc medal qazandılar. Respublikamız komanda hesabında birinci yeri tutdu.

1997-ci ildə keçirilən ikinci Çoudri turnirində ABŞ id-



***AİBA prezidenti Ə.Çoudri xanımı ilə birlikdə Azərbaycan Respublikasının sabiq prezidenti H.Əliyevin qəbulunda***

mançıları da çıxış etdilər. Bu ABŞ idmançılarının Bakıya ilk səfəri idi. Okeanın o tayından Bakıya gəlmiş 6 amerikalı boksçunun hamısı gənclər arasında ABŞ çempionatının qalibləri idilər. Dörd gün davam edən yarışlarda 8 qızıl, 7 gümüş və 8 bürünc medal qazanaraq komanda hesabında ölkəmiz yenidən birinci olmuşdur. Turnirdə komanda hesabında ikinci yeri ABŞ, üçüncü yeri isə Türkiyə boksçuları tutmuşlar.

İndiyə kimi keçirilmiş 7 turnirdən 5-i yeniyetmələr və gənclər, 2-si isə böyüklər arasında təşkil olunub. Yeni nəsil boksçularından Vüqar Ələkbərov, Aslan Bayramov, Rüfət Hüseynov, Fərhad Acalov, Emil Məhərrəmov, İntiqam Rüstəmov, Sahib Bağırov, Cavid Tağıyev, Azər Məmmədov, Rəşad Süleymanov, Amil Kərimov və başqalarının püxtələşməsində bu turnirin rolu danılmazdır. Çoudri turniri həm də ölkəmizdən kənarda neçə-neçə ad-san sahibinə qitə və dünya çempionatlarına, Olimpiya oyunlarına yol açıb.

2002-ci ildə sayca 6-cı olan turnir ilk dəfə olaraq yaşlı boksçular arasında keçirildi. Əvvəlki illərdən fərqli olaraq, turnir iştirakçılarının sayında da nəzərə çarpacaq dəyişikliklər baş verdi. Burada 21 ölkənin təmsil olunması ona "A" kateqoriyalı statusun verilməsi üçün əsas oldu. Turnirin açılış mərasimində çıxış edən Ə.Çoudri dedi: "Çox xoşbəxtəm ki, mənim şərəfimə keçirilən turnirdə bu qədər idmançı mübarizə aparacaq. Amma bu, təsadüfi deyil. Bakıda boks üzrə Avropa və dünya çempionatlarının, eləcə də 1996-cı ildən keçirilən beynəlxalq turnirlərin yüksək səviyyədə təşkil olunması və həmişə ədalətli keçməsi digər ölkələrin də bu yarışa və Azərbaycana marağını artırmışdır".

2003-cü ildə Bakı turniri ikinci dəfə "A" kateqoriyası statusu ilə keçirildi. Bu il Avropadan Afina Olimpiadasına lisenziya vermiş iki beynəlxalq turnirdən biri məhz aprel ayında Bakıda təşkil edilən bu yarış olub.

## V FƏSİL



# BOKSÇULARIMIZ OLİMPİYA OYUNLARINDA

## AZƏRBAYCAN BOKSÇULARI XXVI YAY OLİMPİYA OYUNLARINDA

ABŞ-ın Atlanta şəhərində keçirilən XXVI Yay Olimpiya Oyunlarında ölkəmiz iki boksçu ilə təmsil olunmuşdur.

Olimpiadanın boks yarışları iyulun 20-dən avqustun 4-dək keçirilmişdir. Yarımağır çəkili boksçumuz İlham Kərimov ilk görüşünü İsveçrə idmançısı İsmayıl Konni ilə keçirmiş və məğlub olmuşdur.

Digər boksçumuz, super ağır çəkidə ölkəmizi təmsil edən Ədalət Məmmədov isə yarışlara uğurla başlamışdır. İlk döyüşündə çex idmançısı Petr Xoraçeki ikinci raundda nokdaun vəziyyətinə salaraq qalib gəlmişdir. Növbəti mərhələdə fransız Blokus Qosen də Ədalətin qarşısında tab gətirə bilməmişdir. Boksçumuz elə birinci raundda rəqibi yerə sərərək tam üstünlük qazanmışdır. Bürünc medalı özünə təmin etmək üçün idmançımız 1/4 finalda nigeriyalı Dunkan Dokivariyə qalib gəlməli idi.

Ədalət bu döyüşə inamla başladı və birinci raundda rəqibinə bir neçə güclü zərbə endirərək onu iki dəfə nokdauna saldı. Fasilədən sonra rəqib fəallaşdı və qarşılıqlı döyüş başlandı. Üçüncü raundda nigeriyalı boksçu idmançımıza qurşaqdan aşağı zərbə endirdiyi üçün hakim xəbərdarlıq əvəzinə hesabı açdı. Bundan sonra Ədalət hücuma atıldı və müdafiəni bir anlığa unutdu. Bu zaman rəqibin yeni bir zərbəsinə hakim yenə də hesabı açdı və qələbə nigeriyalıya verildi. Halbuki qurşaqdan aşağı vurulan zərbədən sonra hakim ya Nigeriya boksçusuna xəbərdarlıq etməli, ya da onu yarışdan çıxarmalı idi.

Beləliklə, Ədalət hakimin ədalətsizliyi sayəsində medaldan məhrum oldu və beşinci yerlə kifayətlənməli oldu.

## AZƏRBAYCAN BOKSÇULARI XXVII YAY OLİMPİYA OYUNLARINDA

XXVII Yay Olimpiya Oyunları Avstraliyanın Sidney şəhərində keçirildi. Olimpiadanın boks yarışlarında Azərbaycan 5 boksçu ilə təmsil olunurdu.

60 kq çəkidə Maxaç Nuritdinov ilk döyüşünü Rusiya-

lı qitə və dünya çempionu A.Maletinə qarşı keçirdi və ilk mərhələdə mübarizəni dayandırmalı oldu.

67 kq çəki dərəcəsində yarışan Ruslan Xairov ilk döyüşünü Tunis idmançısı üzərində inamlı qələbə ilə başa vurdu. Yarımfinala çıxmaq üçün Olimpiya çempionu Oleq Saitova qarşı əzmkarlıqla mübarizə aparan boksçumuz rəqibdən heç nə ilə geri qalmırdı. Lakin 10:10 hesabı ilə başa çatan oyunda hakimlərin rəyinə əsasən qələbə Rusiyalıya verildi.

75 kq çəki dərəcəsində Sidneyə lisenziya qazanmış 19 yaşlı Vüqar Ələkbərov ilk görüşdə 9:8 hesabı ilə qalib gələrək Keniyalı boksçunu yarışdan kənarlaşdırdı. Növbəti mərhələdə yerli idmançını məğlub edərək 1/4 finala yüksəldi. Bu mərhələdə Türkiyəni təmsil edən ucaboy və təcrübəli boksçu Akin Kokauridzeyə qalib gələn Vüqar ən azı bürünc medalı özü üçün təmin etmiş oldu. Bu isə Azərbaycan boksu tarixində qazanılan ilk OLİMPİYA MEDALI demək idi. Finala çıxmaq üçün döyüşdə Vüqarın rəqibi dünyanın ən güclü boksçularından olan kubalı C.Quttierrez oldu. Yarımfinaladək bütün rəqiblərinə asanlıqla qalib gələn (o cümlədən 2 dəfə nokautla) kubalı boksçu Vüqarı yalnız xal hesabı ilə məğlub edərək finala yüksəldi. Vüqar Ələkbərov isə Azərbaycana bürünclə qayıtdı.

81 kq çəkidə yarışan dünya və Avropa çempionatlarının bürünc mükafatçısı Əli İsmayılov ilk döyüşünü inamlı qələbə ilə başa vurdu. İkinci mərhələdə Özbəkistan boksçusu S.Mixaylova qarşı döyüşən Əli məğlub olaraq mübarizəni dayandırmalı oldu və nəticədə 16-cı yerdə qərarlaşdı.

91 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Məhəmməd Ariphacıyev ilk döyüşündə Almaniya təmsilçisinə məğlub oldu.

## AZƏRBAYCAN BOKSÇULARI XXVIII YAY OLİMPİYA OYUNLARINDA

XXVIII Yay Olimpiya Oyunları Yunanıstan paytaxtı Afinada keçirildi. 9 boksçu ilə olimpiadada təmsil olunan Azərbaycan qazanılan lisenziyaların sayına görə dünyada yalnız Rusiya və Kubadan geri qalırdı. İdmançılarımızın Afinadakı ilkin döyüşləri bütün boks həvəskarlarını heyrətə gətirdi. Belə ki, boksçularımızın hamısı yarışlara qələbə ilə başladılar.

48 kq-da Ceyhun Abiyev 1/16 final mərhələsindəki rə-

qibi macar Pal Bedlaka şans vermədi - 23:8. Növbəti mərhələdə, Bakıda keçirilən Çoudri turnirindən yaxşı tanıdığı türkiyəli Atagün Yalçınqayaya qarşı yüksək səviyyədə döyüşən boksçumuz hakimlərin qeyri-obyektivliyinin qurbanı oldu - 20:23.

51 kq çəkidə yarışan Fuad Aslanov ilk görüşdə döyüşsüz qalib gəldi: madaqaskarlı Corce Juve Rakotoarimbelo çəkisinin artıq olmasına görə yarışa buraxılmadı. 1/8 final görüşünü isə tanış rəqibi Nikolos İzoriya ilə keçirdi və yekunda inamlı qələbə qazandı - 27:21. 1/4 finalda Fuad Polşa boksçusu Rzani Andrzeyə 24:23 hesabı ilə qalib gəlməklə Olimpiadanın bürünc medalını özü üçün təmin etdi. Yarımfinalda qalib gələcəyi təqdirdə Fuad medalın əyarını dəyişə bilərdi. Lakin fransalı Jeromi Tomasla keçən gərgin döyüşdə boksçumuz 18:23 hesabı ilə məğlub oldu.

54 kq çəkidə yarışan Ağası Məmmədov ilkin mərhələni erkən böyük üstünlüklü qələbə ilə başa vurdu. Maraqlıdır ki, avstraliyalı Jül Brükner yalnız 4-cü dəqiqədə Ağasıdan ilk xalı qopara bilmişdi. Üçüncü raundda 20 xallıq fərqə (23:3) nail olan boksçumuz hakimlərin qərarı ilə vaxtından əvvəl qalib elan edildi. Ağası növbəti mərhələdə bolqar Detelin Dalakliyevlə görüşünü də özünəxas üslubda aparıb, inamlı zəfər əldə etdi - 35:16.

1/4 finalda Ağası Ukraynalı rəqibi Maksim Tretyaka əvvəldən sonadək aman verməyərək, görüşü parlaq qələbə ilə başa vurdu - 32:20. Bu isə boksçumuzun ən azı bürünc medal qazanması demək idi. Yarımfinalda Tailand təmsilçisi Petçkom Vorapoja 19:27 hesabı ilə uduzan Ağası mübarizəni dayandırmalı və bürünclə kifayətlənməli oldu.

57 kq çəkidə yarışan boksçumuz Şahin İmranov ilk döyüşünü Cənubi Afrika Respublikasının idmançısı Ludumo Qaladaydi ilə keçirib və üçüncü raundda qazandığı 23:3 hesablı qələbə ilə rəqibi texniki məğlubiyyətlə barışmağa məcbur edib. Şahin İmranovun mübarizəni dayandırması isə əsl bəxtsizlik sayıla bilər. 1/8 finalda rusiyalı Aleksey Tişşenko ilə dueldə 31:21 hesabı ilə irəlidə olan Şahin 3-cü raundun 52 saniyəsi geridə ikən qaşından zədə aldı və həkimlər görüşü saxlamaq göstərişi verdilər.

60 kq çəki dərəcəsində Rövşən Hüseynov ilk döyüşün-

də Cənubi Afrika Respublikasından olan rəqibi Maxlanqu Vonderboy Vonqanini 22:14 hesabı ilə, 1/8 final mərhələsində isə ABŞ idmançısı Eskobedo Visenteni 36:18 hesabı ilə məğlub edib. 1/4 finalda isə Rövşənin qarşısını son illərin keçilməz səddi, kubalı Mario Sezar Kindelan Mesan kəsib - 11:23. Özündə cürət, qüvvət tapıb rinqə dönən Rövşənin cəsarətli döyüşü və rəqibin ad-sanından çəkinməməsi ən böyük alqışlara layiqdir.

69 kq çəkidə yarışan Ruslan Xairov ilk görüşünü Kanada idmançısı Adam Trupişə qarşı keçirdi. Döyüşün ikinci raundunda həmyerlimiz 17:5 hesabı ilə irəlidə idi. Bu raundda Ruslanın güclü zərbəsindən rəqibi ciddi zədə alaraq yarışı dayandırdı və Azərbaycan boksçusu 1/8 finala çıxdı. Ruslan bu mərhələdə Çin idmançısı Silami Hanatiylə qarşılaşdı və qalib gəldi - 26:16. 1/4 final döyüşündə isə Ruslanın qarşısını bu mütləq favoriti kubalı Lorenso Araqon Armenteros kəsdi - 14:16.

75 kq çəkidə ölkəmizi təmsil edən Cavid Tağıyev avqustun 14-də Azərbaycan boksçuları arasında Afina rinqinə ilk olaraq çıxmışdı. Cavid 1/16 final mərhələsində Yunanıstan idmançısı Georgios Gazisə son saniyələrdə endirdiyi dəqiq zərbələr sayəsində qalib gəldi - 32:31. 1/8 final döüyüşünü Tailand boksçusu Suriya Prasathinpimaya qarşı keçirdi və yekun hesab 19:19 olsa da, qələbəni asiyalıya verdilər.

81 kq çəki dərəcəsində çıxış edən boksçumuz Əli İsmayılovun ilk rəqibi braziliyalı Silva Vaşinqtonu məğlub etdi - 27:22. Əlinin növbəti mərhələdəki rəqibi yerli idmançı Elias Pavlidis oldu. Boksçumuz bu döyüşdə məğlubiyyətlə barışmalı oldu - 16:31.

91 kq çəkidə mübarizəyə qoşulan Vüqar Ələkbərov ilk və gərgin döyüşdə ev sahibi Spiridon Kladuçası məğlubiyyətə uğratdı - 18:14. Lakin Vüqarın növbəti mərhələdki çıxışı çox zəif oldu. V.Ələkbərov Suriyalı Nasir Əl Şami ilə görüşdə 3 dəfə xəbərdarlıq almaqla məğlub oldu.



*1959-cu il. Azərbaycan nümayəndə heyəti Moskvada, SSRİ xalqları spartakiadasında*



*XX əsrin 50-ci illəri. A.Ağalarov öz yetirmələri ilə.*



*N.Abbasov (solda) Azərbaycan - Finlandiya matçında*



*1950-ci il. Azərbaycan boks yığma komandası*



*Əməkdar məşqçi A.Ağalarov və yetirməsi İ.Odinov*



*1948-ci il. Azərbaycan birinciliyinin iştirakçıları*



*1957-ci il, Sevastopol şəhəri. Əsəd Acalov növbəti döyüşündə*



*A.Eynullayev (sağda) fin idmançısına hücum edir*



*1958-ci il. Azərbaycan yığma komandası*
*İran komandası ilə görüş zamanı*



***Əməkdar məşqçi Aleksandr Kryuçkov yetirməsinə yarışqabağı son məsləhətlərini verir***



***SSRİ idman ustası Asif Axundov hücumda***



***Beynəlxalq dərəcəli hakim B.Kipiani növbəti raundun startını elan edir***



VI FƏSİL

# AZƏRBAYCAN BOKSÇULARI 1920-1930-CU İLLƏRDƏ



**AĞALAROV ABBAS FƏRHAD OĞLU**

1911-ci il iyulun 15-də Gürcüstanın Tbilisi şəhərində anadan olmuşdur. 1930-cu ildə Bakı İnşaat Texnikumunu, 1935-ci ildə isə Zaqafqaziya Bədən Tərbiyəsi İnstitutunu bitirmişdir. Bir müddət xəfiyyə işçisi kimi fəaliyyət göstərmiş A.Ağalarov Böyük Vətən Müharibəsinin ilk günlərindən 1948-ci ilədək ordu sıralarında qulluq etmişdir.

Dosent Abbas Ağalarov 20 ildən artıq müddətdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun boks, güləş və ağır atletika kafedrasına rəhbərlik etmişdir.

15 il boks üzrə Azərbaycan çempionu olmuş, dəfələrlə SSRİ çempionatlarında mükafata layiq yerlər tutmuşdur.

Abbas Ağalarovu Azərbaycan boksunun pioneri də adlandırmaq olar. 1928-ci ildə o, V.Tolstoyla birlikdə ilk dəfə olaraq keçmiş sovet idmanını ümumdünya fəhlə olimpiadasında təmsil etmişdir.

Abbas Ağalarovun idmandakı xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmiş və o, "Şərəf nişanı" ordeni, müxtəlif medallar və Ali Sovetin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

SSRİ Əməkdar idman ustası, Əməkdar məşqçisi, ümumittifaq, beynəlxalq dərəcəli hakim və Azərbaycanın əməkdar bədən tərbiyəsi və idman xadimi kimi fəxri adlara layiq görülmüşdür.

1969-cu ildə ağır xəstəlikdən sonra vəfat etmişdir.

## QOLDŞTEYN ALEKSANDR ALEKSANDROVİÇ

Görkəmli idmançı, əməkdar idman ustası A.Qoldşteyn 1926 və 1927-ci illərdə SSRİ çempionu adını qazanıb. 1924-cü ildə "Dinamo" İC mərkəzi şurası tərəfindən Moskvadan Bakıya göndərilmiş və məşqçi kimi Azərbaycan boksçularının idman ustalıqlarının artırılmasında böyük rol oynamışdır.

Bakının "Dinamo" idman cəmiyyətində boks bölməsinə 10 ilə yaxın müddətdə rəhbərlik etmiş və bir sıra rinq ustaları yetişdirmişdir. Onların arasında SSRİ çempionatlarının qalib və mükafatçıları N.Kitasov, A.Kayurov, A.Barışev, L.Saplivenko və başqalarını göstərmək olar.

## ŞEPELEV ALEKSANDR

Azərbaycan boksunun pionerlərindən biri olmuşdur. 1929-cu ildə Azərbaycan-Türkiyə yığma komandalarının yoldaşlıq görüşündə respublikamızın şərəfini qorumuşdur.

1935-ci ildə İsveç, Danimarka, İngiltərə fəhlə idman klublarından Bakıya gəlmiş idmançıların beynəlxalq yarışlarında Azərbaycan komandasını təmsil etmişdir.

Sonralar Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda yüngül atletika kafedrasına rəhbərlik etmiş və uzun illər pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

## TOLSTOY VLADİMİR DMİTRİYEVİÇ

Azərbaycan boksunun pioneri, ilk Azərbaycan çempionlarından biri olmuşdur. 1926-cı ildə Zaqafqaziya respublikaları çempionatında I yerə layiq görülmüşdür. 1928-ci ildə SSRİ yığma komandası tərkibində Ümumdünya Fəhlə Spartakiadasında iştirak etmişdir.

Məşqçilik fəaliyyəti zamanı bir sıra istedadlı idmançıların yetişdirilməsində böyük rolu olmuşdur. Onun yetirmələri A.Ağalarov, A.Kayurov, H.Kitasov, A.Neçayev, A.Nikolayev, A.Dadaşov, V.Lomovtsev, N.Popov, V.Poddubnıy və başqaları ümumittifaq və beynəlxalq miqyaslı yarışlarda yüksək nailiyyətlər qazanmışlar.

## VII FƏSİL



# AZƏRBAYCAN BOKSÇULARI 1930-1950-Cİ İLLƏRDƏ



## AŞUMOV İSLAM

Azərbaycan boksunun pionerlərindən biri olmuşdur. Gözəl texnika və güclü zərbəyə malik olan İslam Aşumov bir sıra ümumittifaq və beynəlxalq yarışlarda uğurla çıxış edərək öz pərəstişkarlarını sevindirmişdir. O, 1937-ci ildə SSRİ çempionatının gümüş medalını qazanmışdır. Həmin il SSRİ idman ustası adına layiq görülmüşdür.

Böyük Vətən müharibəsi iştirakçısı olmuşdur.

Həyatının son illərini Moskvada yaşamışdır.



**AĞAYEV ZƏLİMXAN ƏYYUB OĞLU**

"Dinamo" idman cəmiyyətində Əməkdar məşqçi Aleksandr Kryuçkovun rəhbərliyi altında boksla məşğul olmuş, respublika və paytaxt yarışlarının, ümumittifaq miqyaslı turnirlərin qalib və mükafatçıları sırasına daxil olmuşdur. Sonralar Bakı Boks Federasiyasının sədri kimi paytaxtda bu idman növünün inkişafına çalışmışdır.

Uzun illər daxili işlər orqanlarında xidmət etmiş, bir sıra dövlət medal və ordenləri, fəxri fərmanlarla təltif edilmiş, polkovnik rütbəsinə kimi ucalmışdır.



**BARIŞEV ANDREY**

Azərbaycan boksunun pionerlərindən biri olmuşdur.

1934 və 1935-ci illərdə SSRİ çempionatında bürünc medala layiq görülmüşdür. Böyük Vətən Müharibəsinə kimi respublikamızın idman şərəfini ləyaqətlə qorumuş, iştirak etdiyi ümumittifaq və beynəlxalq yarışlarda bir sıra uğurlar qazanmışdır.

Böyük Vətən Müharibəsindən sonra onun haqqında heç bir məlumat əldə etmək mümkün olmamışdır.



**BAĞIROV AKİF ƏLİBALA OĞLU**

1932-ci il sentyabrın 12-də Bakı şəhərində anadan olmuşdur.

1949-cu ildə "Ehtiyat Əmək Qüvvələri" idman cəmiyyətinin boks bölməsində Əməkdar məşqçi İlya Odinovun rəhbərliyi altında məşqlərə başlamışdır. Dəfələrlə paytaxt və respublika miqyaslı yarışların qalibi, ümumittifaq "Ehtiyat Əmək Qüvvələri" İC mərkəzi şurasının mükafatçısı olmuşdur. 1951-ci ildə ümumittifaq məşqçilər toplanışında iştirak etmiş, 1956-cı ildə isə Leninqrad Bədən Tərbiyəsi Texnikumunu bitirmişdir.

2003-cü ildə Bakı şəhərində vəfat etmişdir.



**BAĞIROV ASİF ƏLİBALA OĞLU**

1932-ci il sentyabrın 12-də Bakı şəhərində anadan olmuşdur.

1949-cu ildə əkiz qardaşı Akiflə birlikdə “Ehtiyat Əmək Qüvvələri” idman cəmiyyətində İlya Odinovun rəhbərliyi altında məşqlərə başlamışdır.

Dəfələrlə Bakı və respublika miqyaslı yarışların qalibi olmuş, ümumittifaq Ehtiyyat Əmək Qüvvələri İC mərkəzi şurasının, eləcə də bir sıra yarışların mükafatçısı olmuşdur.

Uzun illər boks yarışlarına hakimlik etmiş və respublika dərəcəli hakim adına layiq görülmüşdür.

1996-cı ildə ağır xəstəlikdən sonra vəfat etmişdir.

## ÇUMAKOV ANATOLİY ALEKSANDROVİÇ

1921-ci il fevralın 16-da Bakı şəhərində anadan olmuşdur. Orta məktəbdə oxuduğu zaman boks idman növünə böyük maraq göstərmiş və 1936-cı ildə "Pişevik" idman cəmiyyətində Əməkdar məşqçi İlya Lvoviç Odinovun himayəsi altında boksun sirlərinə yiyələnməyə başlamışdır. O, dəfələrlə paytaxt və respublika yarışlarında iştirak etmiş, Azərbaycan çempionu adını qazanmışdır. İdman ustası adına layiq görülmüşdür. 1950-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib.

1950-ci ildə Bakının 47 saylı məktəbində bədən tərbiyəsi müəllimi vəzifəsində əmək fəaliyyətinə başlamış, 1956-71-ci illərdə isə həmin vəzifədə 1 saylı orta təhsil məktəbində çalışmışdır.

A.A.Çumakov 1971-ci ildə vəfat etmişdir.

## ƏLİYEV ADİL ƏHMƏDAĞA OĞLU

1925-ci ildə Bakı şəhərində doğulub.

A.Əliyev idman həyatına ikinci dünya müharibəsi illərində başlamışdır. 1944-cü ildə o, yarımyüngül çəkidə ilk dəfə Bakı və Azərbaycan çempionu olmuş və bu adı beş il ardıcıl olaraq qoruyub saxlamışdır. 1946-48-ci illərdə "Bolşevik" idman cəmiyyəti mərkəzi şurasının çempionu adını qazanmışdır. 1948-ci ildə ümumittifaq həmkarlar ittifaqı mərkəzi şurası birinciliyinin mükafatçısı olmuşdur.

1950-ci ildə respublika yığma komandası tərkibində SSRİ Kuboku yarışlarında iştirak edərək yarımfinala qədər yüksəlmişdir.

A.Əliyevin boks karyerası təkcə idman nailiyyətləri ilə ölçülmür. Hələ 20 yaşı olarkən, Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun tələbəsi olduğu illərdə gənc Bakı boksçularına boksun sirlərini öyrətməyə başlamışdır. Boksçu karyerasını başa vurduqdan sonra, fəaliyyətini hakimliklə davam etdirmişdir. Ümumittifaq dərəcəli boks hakimi adına layiq görülmüş və 1967-1970-ci illərdə SSRİ-nin ən güclü hakimləri sırasına daxil olmuşdur.

A.Əliyevin Azərbaycan boksunun inkişafında mühüm pedaqoji, tərbiyəvi xidmətləri olmuşdur. Onun rəhbərliyi altında bir çox gənclər sağlam, güclü, savadlı, cəmiyyətimiz üçün lazımlı şəxslər kimi tərbiyə olunmuşlar. Onun tələbələri arasında idmançı, zabit, elm və mədəniyyət sahəsində çalışan insanlar çoxdur.



**DOBRINSKİY LEV GEORGİYEVİÇ**

1929-cu il sentyabrın 28-də Bakıda anadan olmuşdur. Orta təhsili lal-karlar məktəbində almışdır. Boksla 1944-cü ildə məşğul olmağa başlamışdır. İlk məşqçisi, Əməkdar məşqçi Aleksandr Kryuçkov olmuşdur. Sonralar öz idman ustalığını “Burevestnik” idman cəmiyyətində Əməkdar məşqçi İlya Odinovun rəhbərliyi altında artırmışdır.

Beşqat Azərbaycan çempionu olmuş, ümumittifaq həmkarlar ittifaqı mərkəzi şurası birinciliyinin qalibi adına layiq görülmüş, 1953-1954-cü illərdə SSRİ çempionatlarında iştirak edərək dördüncü yeri tutmuşdur. Rinqdə keçirdiyi 198 döyüşdən 183-ündə qalib gəlmişdir.

SSRİ idman ustasıdır.



**ƏMİROV PAŞA ƏLİQULU OĞLU**

1928-ci il noyabrın 13-də Bakının Bül-Bülə qəsəbəsində anadan olmuşdur.

Boksla gənc yaşlarından məşğul olmağa başlamışdır. “Spartak” idman cəmiyyətinin üzvü olmuş və öz idman ustalığını SSRİ-nin Əməkdar məşqçisi və Əməkdar idman ustası Abbas Ağalarovun rəhbərliyi altında artırmışdır.

Dəfələrlə Azərbaycan çempionu, “Spartak” idman cəmiyyəti Mərkəzi şurası birinciliyinin qalibi, SSRİ çempionatı və kubok yarışlarının iştirakçısı olmuşdur. Yüksək idman nailiyyətlərinə görə SSRİ idman ustası adına layiq görülmüşdür.

Dəmir yol texnikumunu bitirdikdən sonra təhsilini, Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda, sonra isə Azərbaycan Dövlət Universitetində davam etdirərək jurnalist ixtisasına da yiyələnmişdir. Əmək fəaliyyətinə məşqçi kimi başlayan Paşa müəllim qısa müddət ərzində bir çox bacarıqlı rinq ustalarının hazırlanmasına nail olmuşdur. Məşqçilik fəaliyyətindən sonra uzun illər “İdman” qəzetində boks bölməsinə rəhbərlik etmiş, idmanımızın təbliğində də mühüm rol oynamışdır.

1993-cü ildə uzun sürən ağır xəstəlikdən sonra dünyasını dəyişmişdir.



**ƏSGƏRBƏYOV MEHDİ İSGƏNDƏR OĞLU**

1930-cu il dekabr 31-də Bakı şəhərində anadan olub.

1947-ci ildən "Spartak" idman cəmiyyətində SSRİ-nin Əməkdar idman ustası və Əməkdar məşqçisi Abbas Ağalarovun rəhbərliyi altında boksla məşğul olmuşdur. Dəfələrlə Azərbaycan çempionu, Zaqafqaziya Respublikaları Spartakiadasının qalibi və iki dəfə SSRİ çempionatının bürünc mükafatçısı olmuş, SSRİ idman ustası adına layiq görülmüşdür.

Bakı Yüngül Sənaye Texnikumunu, 1952-ci ildə isə Moskvada məşqçilərin ixtisasartırma kurslarını bitirmişdir. Uzun illər 1 saylı ayaqqabı fabrikində dəri üzrə mütəxəssis vəzifəsində çalışmışdır.

1990-cı ildə ürək xəstəliyindən dünyasını dəyişmişdir.



**KRYUÇKOV ALEKSANDR PAVLOVİÇ**

1913-cü ildə Bakı şəhərində anadan olmuşdur.

Boksla məşğul olmağa “Dinamo” idman cəmiyyətində başlamış, dəfələrlə Azərbaycan çempionu, 1948-ci il SSRİ çempionatının bürünc mükafatçısı olmuşdur. A.Kryuçkov Böyük Vətən Müharibəsində iştirak etmiş və müharibədə aldığı xəsarət ona boksla fəal məşğul olmağa imkan vermədiyi üçün karyerasını məşqçi olaraq davam etdirmişdir. Onun onlarla yetirmələri dəri əlcək ustası olmuş, respublikamızın idman şərəfini müxtəlif miqyaslı yarışlarda uğurla qorumuşlar.

A.Kryuçkov SSRİ idman ustası, Azərbaycan Respublikasının Əməkdar məşqçisi, ümumittifaq dərəcəli hakim adlarına layiq görülmüşdür.

A.P.Kryuçkov 1981-ci ildə, 68 yaşında dünyasını dəyişmişdir.

## NEÇAYEV A.

Azərbaycan boksunun pionerlərindən biri olmuşdur. 1934-cü ildə SSRİ çempionatında bürünc, 1939-cu ildə isə qızıl medal qazanmışdır. Respublikamızın idman şərəfini Böyük Vətən Müharibəsi illərinə kimi layiqincə qorumuşdur. Böyük Vətən Müharibəsi iştirakçısı olmuşdur.

## KAYUROV ALEKSEY

Azərbaycan boks məktəbinin veteranlarından biri olub. 1934-cü ildə SSRİ çempionatının gümüş, 1936-cı ildə qızıl medalını qazanıb. Böyük Vətən Müharibəsinə kimi bütün ümumittifaq və beynəlxalq yarışlarda öz rəqiblərinə qalib gəlmiş, SSRİ yığma komandasının üzvü olmuşdur. SSRİ idman ustası idi. Böyük Vətən Müharibəsində qəhrəmancasına həlak olmuşdur.

## KRİVONOS LEONİD PAVLOVİÇ

1915-ci il fevralın 23-də Bakıda anadan olmuşdur.

Boksla “Neftçi” idman cəmiyyətində məşğul olmağa başlamışdır. Uzun illər Azərbaycanın idman şərəfini ümumittifaq miqyaslı yarışlarda ləyaqətlə qorumuşdur. SSRİ çempionatlarında öz parlaq qələbələri ilə fərqlənmiş və ölkənin ən güclü 10 boksçusu sırasına daxil edilmişdir. Böyük boksdan getdikdən sonra, məşqçilik fəaliyyəti ilə məşğul olaraq onlarla rinq ustalarını yetişdirmişdir. Bunlardan SSRİ çempionları və mükafatçıları A.Laqetko, Y.Rodonyak, M.Rodonyak, S.Badal, V.Andronov və başqalarını xüsusi qeyd etmək lazımdır. Bu idmançıları L.Krivonos Rusiyaya köçdükdən sonra hazırlamışdır. O, SSRİ Əməkdar məşqçisi fəxri adına layiq görülmüşdür.

1984-cü ildə Moskva şəhərində vəfat etmişdir.

## KİTASOV NİKOLAY

Azərbaycanın ilk güclü boksçularından olmuşdur. O, 1936-cı ildə SSRİ çempionatında bürünc, 1937, 1938-ci illərdə isə qızıl medallara layiq görülmüş və SSRİ yığma komandası tərkibində bir sıra beynəlxalq yarışlarda iştirak edərək öz gözəl texniki ustalığı ilə fərqlənmişdir. SSRİ idman ustası adına layiq görülmüşdür. Böyük Vətən Müharibəsində həlak olmuşdur.

## KRİVENKO VLADİMİR

Azərbaycan boksunun veteranlarından biri olub. 1939-cu ildə SSRİ birinciliyində bürünc medala layiq görülmüşdür. Azərbaycanın yığma komandası tərkibində bir sıra ümumittifaq yarışlarında uğurla çıxış edərək qələbələr qazanmışdır. Böyük Vətən Müharibəsi iştirakçısı olmuşdur.

## KUXARENKO OLEQ GEORGİYEVİÇ

Azərbaycan boksunun veteranı olmuşdur. Dəfələrlə respublika çempionu, ümumittifaq və beynəlxalq yarışların qalibi və mükafatçısı olmuşdur. Uzun illər "Neftçi" idman cəmiyyətində məşqçi kimi fəaliyyət göstərmiş və bir sıra rinq ustaları hazırlamışdır. Onun yetirmələri A.Abiyev fəxri idman ustası adına kimi yüksəlmiş, O.Hüseynov yeniyetmələr arasında SSRİ birinciliyinin qalibi olmuş və onlarla başqaları respublika, ümumittifaq yarışlarında uğurla iştirak etmişlər.



## MƏMMƏDOV HACI NURMƏMMƏD OĞLU

1930-cu ildə Bakıda anadan olmuşdur. İdmanda ilk addımları "dəmir yumruq" adlandırılan məşqçi Andrey Barışovun rəhbərliyi altında 17 yaşında atmağa başlayıb. Sonralar məşhur məşqçi, idman ustası İlya Odinovun yanında ustalığını artırmağa başlamışdır. Tez bir zamanda Azərbaycan yığma komandasına daxil edilmişdir.

1950-ci ildə Zaqafqaziya Respublikaları Spartakiadasında keçmiş SSRİ çempionatlarının dəfələrlə mükafatçısı Givi Darbayseli üzərində qələbə çalmaqla bərabər, turnirin ən texnikalı döyüşçüsü adını qazanmışdır. SSRİ Kuboku yarışlarında isə Azərbaycanın yığma boks komandası tərkibində iştirak edən Hacı Məmmədov Ermənistan, Gürcüstan və Leninqradın güclü boksçularına qalib gələrək komandamızın yarımfinala qədər yüksəlməsini təmin etmişdir.

Onun ikiqat SSRİ çempionu German Labadin və ölkə çempionatının mükafatçısı Vladimir Orlov üzərində qələbələri öz çəki dərəcəsində lider olduğunu bir daha sübut etmişdir.

1952-ci ildə ADBTİ-nu bitirdikdən sonra "Burevestnik" idman cəmiyyətinin boks zalında gənc boksçularla məşqlər keçirdi. Yetirmələri dəfələrə respublika, ümumittifaq və beynəlxalq yarışlarda uğurla çıxış edərək "dəri əlcək" ustaları adı qazanmışlar.

1972-1989-cu illər Hacı müəllim doğma bədən tərbiyəsi institutunda məsul vəzifələrdə - baş müəllim, kafedra müdiri, dekan kimi fəaliyyət göstərmişdir. O, institutda işləyərkən Azərbaycanın yığma boks komandasında elmi-tədqiqat işləri aparmış və qiymətli tövsiyələr etmişdir. Hacı müəllim bir neçə elmi əsərin müəllifi olmuşdur. O, biologiya elmləri namizədi adına layiq görülmüşdür.

Hacı Məmmədov 66 yaşında dünyasını dəyişmişdir.



**MANIYEV MANI SƏFTƏR OĞLU**

1930-cu il mayın 1-də Bakının Qala kəndində anadan olmuşdur.

Gənc yaşlarından boksa böyük maraq göstərmiş və məşğul olmağa başlamışdır. Əməkdar məşqçilər Abbas Ağalarov və Aleksandr Kryuçkovun yetirməsi olub. Məşqçilərinin etimadını tez bir zamanda doğruldan M.Manıyev dəfələrlə Azərbaycan çempionatının, Zaqafqaziya Respublikaları Spartakiadasının, "Dinamo" idman cəmiyyəti mərkəzi şurası birinciliklərinin mükafatçısı olmuşdur. SSRİ idman ustası adına layiq görülmüşdür.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib. Uzun illər müxtəlif təşkilatlarda rəhbər vəzifələrdə çalışmışdır.

2000-ci ildə dünyasını dəyişmişdir.



**MEHDİYEV SABİR ƏLİHEYDƏR OĞLU**

1930-cu il dekabrın 2-də Bakıda anadan olmuşdur.

Boksla 16 yaşından, "Dinamo" idman cəmiyyətində məşğul olmağa başlamışdır. Öz idman ustalığını 1946-1960-cı illərdə təkmilləşdirərək Əməkdar məşqçi Aleksandr Kryuçkovun rəhbərliyi altında bir sıra mötəbər yarışlarda uğurla çıxış etmişdir.

1947-1949-cu illərdə İvanov və Moskva şəhərlərində keçirilən gənclərin ümumittifaq "Dinamo" idman cəmiyyəti birinciliklərində III, sonra isə kişilər arasında Tallində 1952-ci ildə I, Moskvada 1954-cü ildə II, 1958-ci ildə isə I yerləri tutmuş, 1950-1953-cü illərdə Azərbaycan çempionu olmuşdur. Yüksək idman nəticələrinə görə 1957-ci ildə SSRİ idman ustası adına layiq görülmüşdür.



**ODİNOV İLYA LVOVİÇ**

1917-ci il aprelin 12-də anadan olmuşdur.

İlya Odinov Azərbaycan boks məktəbinin yaradıcılarından biridir. O, dəfələrlə respublika çempionu, ümumittifaq birinciliklərin qalibi, SSRİ çempionatının mükafatçısı olmuşdur.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu və Azərbaycan Dövlət Neft və Kimya İnstitutunu bitirmişdir. "Burevestnik" və "Ehtiyat Əmək Qüvvələri" idman cəmiyyətlərində boks üzrə baş məşqçi vəzifəsində çalışmışdır. Uzun illər Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun ağır atletika və boks kafedrasında baş müəllim olmuş, ixtisaslı kadrların və yüksək dərəcəli idmançıların hazırlığında misilsiz əmək sərf etmişdir.

İ.Odinovun yetirmələri B.Kipiani, B.Qolubenko, V.Fillipenko, Y.Sekaçov, T.Babanlı, L.Dobrınskiy, A.Salmanov, Ə.Acalov və başqaları ümumittifaq miqyaslı yarışlarda uğurla çıxış edərək dəfələrlə qalib və mükafatçı olmuşlar.

İlya Lvoviçin yetirmələri arasında onlarla elmlər namizədi, dosent, professor və Azərbaycanın əməkdar məşqçisi vardır.

Yüksək idman nailiyyətlərinə görə ona SSRİ idman ustası, ümumittifaq dərəcəli hakim, Azərbaycanın Əməkdar məşqçisi fəxri adları verilmişdir.

1987-ci ildə ağır xəstəlikdən sonra Moskva şəhərində əbədi olaraq dünyaya gözünü yummuşdur.



## SOLDATÇENKO VİKTOR KİRİLLOVİÇ

1926-cı il noyabrın 11-də Bakıda anadan olmuşdur.

1944-cü ildə "Nauka" idman cəmiyyətində boksla məşğul olmağa başlamışdır. Azərbaycan Respublikasının Əməkdar məşqçisi İlya Odinovun rəhbərliyi altında boksun sirlərinə yiyələnən V.Soldatçenko artıq 1947-ci ildə ilk uğurlarını qazanmağa başlamışdır. 1947-48-ci illərdə "Bolşevik", "Nauka" və "Burevestnik" idman cəmiyyətlərinin ümumittifaq mərkəzi şurası birinciliklərində qalib olmuş və ümumittifaq həmkarlar ittifaqı mərkəzi şurasının çempionatında mükafata layiq yer tutmuşdur.

1948-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu, 1954-cü ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir.

Azərbaycan Dövlət Universitetinin Bədən Tərbiyəsi kafedrasına rəhbərlik etmiş, "Burevestnik", "Lokomotiv" idman cəmiyyətlərində boks üzrə məşqçi vəzifəsində çalışmış, Azərbaycan tədarük nazirinin müavini olmuşdur.



**YUJANİN VİKTOR MAKSİMOVİÇ**

1920-ci il avqustun 19-da Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib. Böyük Vətən Müharibəsi iştirakçısı olmuşdur. Uzun illər "Neftçi" idman cəmiyyətində boksla məşğul olmuş, sonralar isə məşqçi vəzifəsində çalışmışdır. Respublika yığma komandası tərkibində bir sıra ümumittifaq yarışlarda iştirak etmiş, dəfələrlə Azərbaycan çempionu və mükafatçısı olmuşdur. Son illər Bakıxanov qəsəbəsindəki stadionun direktor müavini vəzifəsində çalışmışdır. Onlarla idman ustası, ümumittifaq yarışların qalib və mükafatçılarını hazırlamışdır.

Ümumittifaq dərəcəli hakim, SSRİ Bədən Tərbiyəsi və İdman əlaçısı fəxri adlarına layiq görülmüş, dövlət medal və ordenləri ilə təltif edilmişdir.

1985-ci ildə Bakı şəhərində vəfat etmişdir.

## VIII FƏSİL



# AZƏRBAYCAN BOKSÇULARI 1950-1960-Cİ İLLƏRDƏ



**ABİYEV AĞACAN QULAM OĞLU**

*"Bəsdir, ailəmiz üçün bir boksçu kifayətdir!"* - *Bu sözləri ötən əsrin 50-ci illərində atası, rəhmətlik Qulam kişi Ağacan Abiyevin boksa həvəsi olduğunu eşidərkən demişdi. Məsələ burasındadır ki, Ağacan Abiyevin böyük qardaşı Əli Abiyev bu idman növü ilə məşğul olurdu. Lenin ordenli, neftçi Qulam kişi isə daha bir oğlunun boksçu olmasını yox, onun sənətini davam etdirməsini istəyirdi. Rəhmətlik Qulam kişi nə biləydi ki, vaxt gələcək, Ağacan Abiyev nəinki Azərbaycan və ya keçmiş İttifaq miqyasında, hətta bütün dünya boksunda tanınmış simalardan biri olacaq və ölkəmizdə bu növün inkişafında əvəzedilməz xidmətlər göstərəcək!*

Ağacan Abiyev 1937-ci il noyabrın 24-də Bakı şəhərində anadan olub. 1960-cı ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutunu, 1966-cı ildə isə Azərbaycan Politexnik İnstitutunu fərqlənmə diplomu ilə bitirib. Tələbəlik illərində keçmiş SSRİ-də böyük nüfuz rəmzi sayılan Lenin təqaüdünə layiq görülüb. 1967-70-ci illərdə Moskvada aspiranturada təhsilini davam etdirmiş və 1970-ci ildə dissertasiya müdafiə edərək, texniki elmlər namizədi alimlik dərəcəsi almışdır. 1971-83-cü illərdə Rusiyada, Lipetsk Politexnik İnstitutunun "Avtomatika" kafedrasında işləmiş, 1973-cü ildən həmin kafedraya rəhbərlik etmişdir. 1983-cü ildə Bakıya qayıdaraq, əvvəlcə İnşaat Mühəndisləri İnstitutunda "Elektrotexnika və elektronika" kafedrasının müdiri, 1987-ci ildə isə seçki

yolu ilə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun rektoru seçilmişdir.

A.Q.Abiyev 100-dən çox elmi əsərin, 1 monoqrafiyanın, 15 tədris vəsaitinin və 4 ixtiranın müəllifidir. Elektron hakimlik sisteminin ilk yaradıcılarındandır.

1953-cü ildən boksla məşğul olmuş, 6 dəfə Azərbaycan çempionu, 1957-ci ildə Zaqafqaziya və Moldaviya respublikaları spartakiadasının qalibi adını qazanaraq, SSRİ idman ustası normasını yerinə yetirmişdir. 1960-62-ci illərdə Ümumittifaq Həmkarlar İttifaqları birinciliyinin gümüş mükafatçısı olmuşdur. 1964-cü ildə Ağacan Abiyevə SSRİ fəxri idman ustası adı verilmişdir. "Neftçi" idman cəmiyyətində məşqçilik fəaliyyəti ilə məşğul olduğu müddət ərzində onlarla yüksək səviyyəli idmançı və idman ustaları hazırlamışdır.

1982-ci ildən bu günədək boks üzrə beynəlxalq dərəcəli (AİBA) hakimdir. Bir neçə Avropa və dünya çempionatlarında müvəffəqiyyətlə hakimlik etmişdir.

Yüksək idman nailiyyətlərinə görə professor Ağacan Qulam oğlu Abiyev SSRİ fəxri idman ustası və Əməkdar idman xadimi adına layiq görülmüşdür.

Hazırda Azərbaycan Boks Federasiyasının prezidenti, Azərbaycan Milli Olimpiya Komitəsinin baş katibidir.

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin fərmanı ilə "Şöhrət" ordeninə layiq görülüb.

2002-ci ildə Avropa Boks Federasiyasının vitse-prezidenti, hakimlər komissiyasının sədri seçilmişdir. Bundan başqa Ağacan müəllim həm də Beynəlxalq Boks Federasiyası İcraiyyə Komitəsinin üzvü, hakimlər komissiyasının sədr müavini seçilmişdir.

2004-cü il Afina XXVIII Yay Olimpiya Oyunlarının boks üzrə baş hakimi olmuşdur.



## ACALOV ƏSƏD FƏRHAD OĞLU

1934-cü ildə Bakı şəhərində anadan olmuşdur.

Orta məktəbi bitirdikdən sonra Bakı Energetika Texnikumunda, sonra polis məktəbində təhsil almışdır. Boks idman növünə olan marağı onu Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil olmağa vadar etmişdir.

Boksla 1950-ci ildə “Burevestnik” idman cəmiyyətində məşqçi Hüseyn Səfərovun rəhbərliyi altında məşğul olmağa başlamış, qısa müddətdə SSRİ idman ustası dərəcəsinə qədər ucalmışdır. Boksla məşğul olduğu illər ərzində dəfələrlə Azərbaycan çempionu, “Burevestnik” idman cəmiyyəti mərkəzi şurasının, bir sıra yoldaşlıq görüşlərinin qalibi, SSRİ çempionatlarının iştirakçısı olmuşdur.

Hərbi qulluğunu Qara dəniz donanmasının silahlı qüvvələrində keçirmiş və bu donanmanın çempionatında ən güclülər sırasında yer almışdır. Əmək fəaliyyətini məşqçilikdə və daxili işlər aparatında zabit rütbəsində yerinə yetirmiş və həmişə qabaqcıl olmuş, öz əməksevərliyi və bacarığı ilə seçilmişdir.

Dünyasını dəyişib.



**AYDINOV KAMİL CƏBRAYIL OĞLU**

1938-ci il sentyabrın 7-də Bakı şəhərində anadan olub.

Boksla 1951-ci ildə "Dinamo" idman cəmiyyətində məşğul olmağa başlamışdır. 1962-63-cü illərdə "Dinamo" İC Mərkəzi Şurası birinciliyində ikinci yeri tutmuşdur. 1964-65-ci illərdə Azərbaycan çempionu olmuşdur. Ötən əsrin 60-cı illərində onu "Dəmir yumruq" deyə çağırırdılar.

1964-cü ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib. 1965-ci ildə "Ehtiyat Əmək Qüvvələri" idman cəmiyyətində boks üzrə məşqçi-müəllim kimi fəaliyyətə başlamışdır. 1967-ci ildə Bakı Uşaq-Gənclər İdman Məktəbində məşqçi, 1968-ci ildə Dövlət Bədən Tərbiyəsi İnstitutunda müəllim, 1970-ci ildə baş müəllim, 1982-91-ci illərdə Azərbaycan Dövlət İnşaat-Mühəndislər İnstitutunda baş müəllim, 1992-ci ildə yenidən Bakı Uşaq-Gənclər İdman Məktəbində baş məşqçi, 1996-cı ildən bu günədək isə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında baş müəllim vəzifəsində çalışır.

SSRİ idman ustası, beynəlxalq dərəcəli hakimdir.



**ABBASOV NADİR MAQOMEDOVİÇ**

1933-cü il avqustun 24-də Dağıstanın Axtı rayonunun Axtı kəndində doğulub.

1952-ci ildə Bakıda hərbi xidmətdə olmuş, 1956-cı ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil olmuş, institutu bitirdikdən sonra "Dinamo" idman cəmiyyətində təlimatçı, sonra isə şöbə müdiri və partiya təşkilatının katibi vəzifələrində çalışmışdır.

Hal-hazırda Dərbənd Dövlət Universitetinin idman fakültəsinin dekanıdır. Professor Nadir Abbasov 15 ildən artıq müddət ərzində Bakıda boksla məşğul olmuş, 10 dəfə Azərbaycan çempionu, Orta Asiya və Zaqafqaziya ölkələrinin güclü boksçularının turnirinin, eləcə də 1961-ci ildə SSRİ birinciliyinin zona yarışlarının qalibi olmuşdur.

Azərbaycanın "Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi", SSRİ-nin "Fəxri İdman Ustası" adlarına layiq görülmüşdür.



## BABANLI TOFİQ XANLAR OĞLU

1937-ci il fevralın 14-də Naxçıvan şəhərində anadan olmuşdur.

1952-ci ildən boksla məşğul olmuş, 4 dəfə Azərbaycan çempionu, 1958-ci ildə Tələbələrin Ümumittifaq Universiadasında qızıl, ümumittifaq "Burevestnik" idman cəmiyyəti mərkəzi şurası birinciliyində bürünc və V Ümumittifaq Həmkarlar İttifaqı Spartakiadasında gümüş medal qazanmışdır. Həmin ildə Azərbaycan - İran komandalarının beynəlxalq yarışında qalib olmuşdur.

1960-cı ildə Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirdikdən sonra Bakı Uşaq Gənclər İdman Məktəbinə məşqçi-müəllim vəzifəsinə təyin edilmişdir. 1962-1972-ci illərdə "Ehtiyat Əmək Qüvvələri" İC-də boks bölməsinə rəhbərlik etmiş, sonralar isə müxtəlif idman təşkilatları və idman cəmiyyətlərində baş məşqçi kimi fəaliyyət göstərmişdir. Azərbaycan yığma boks komandasına 1965-1975-ci illərdə rəhbərlik etmişdir.

32 idman ustası, 14 SSRİ birinciliyi, çempionatlarının qalib və mükafatçısı hazırlamışdır. İdman ustası, Əməkdar məşqçi, "Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi" və beynəlxalq dərəcəli hakim adlarına layiq görülmüşdür. Bir sıra ölkələrdə keçirilən Avropa birincilikləri, beynəlxalq yarışlar, XXII Yay Olimpiya Oyunlarında hakim kimi respublikamızı təmsil etmişdir.

1989-cu ildə Dövlət Bədən Tərbiyəsi İnstitutuna müsabiqə yolu ilə baş müəllim vəzifəsinə seçilmişdir. 20-yə yaxın elmi əsər, məqalə və dərs vəsaitinin müəllifidir. 1999-cu ildə dosent elmi adına layiq görülmüş və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına yarımştat dosent təyin edilmişdir.

1993-cü ildən Gənclər və İdman və Turizm Nazirliyində baş mütəxəssis vəzifəsində çalışır. Azərbaycan Boks Federasiyasının baş katibidir.



**BAYRAM**
**QƏNBƏR OĞLU**

1938-ci il martın 20-də anadan olmuşdur.

Boksla məşğul olmağa 14 yaşından "Dinamo" idman cəmiyyətində görkəmli pedaqoq, Əməkdar məşqçi, Əməkdar idman ustası Abbas Ağalarovun rəhbərliyi altında başlamışdır. Öz əməksevərliyi, yaşına görə qeyri-adi fiziki hazırlığı, dözümlülüyə malik olması ilə tez bir zamanda respublikanın güclü boksçuları sırasına daxil olmuşdur. Azərbaycan yığma komandası tərkibində ümumittifaq və beynəlxalq yarışların qalib və mükafatçısı olub. Onun Bakı və respublika yarışlarındakı gözəl və maraqlı döyüşləri indi də boks həvəskarlarının yadındadır. Rinqdə nümayiş etdirdiyi iradi keyfiyyətlər, qələbə əzmli döyüşləri həmişə ona uğurlar gətirirdi. Məhz bu yüksək göstəricilərə görə o, SSRİ idman ustası adına layiq görülmüşdür.



**BAXŞƏLİYEV RAFİQ MƏMMƏDBAĞIR OĞLU**

1939-cu ildə İrəvan şəhərində anadan olmuşdur.

1958-ci ildə Dövlət Pedaqoji Universitetinin "Anatomiya, fiziologiya və bədən tərbiyəsi" fakültəsinə daxil olsa da, 1960-cı ildə bu fakültə Dövlət Bədən Tərbiyəsi İnstitutuna köçürüldüyünə görə təhsilini burada davam etmişdir. 1962-ci ildə institutu bitirdikdən sonra Moskvada aspiranturaya daxil olmuşdur.

1966-cı ildə Bakı Dövlət Universitetinin "Bədən tərbiyəsi və idman" kafedrasına baş müəllim təyin edililmişdir. 1972-ci ildə "Boksçunun yuxarı və aşağı ətraf əzələlərinin sürətli və qüvvətli iş zamanı əmələ gələn yorğunluğun hərəki təzahürü" mövzusunda dissertasiya müdafiə edərək biologiya elmləri namizədi elmi dərəcəsi almışdır.

Hal-hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetində "İlkin hərbi və fiziki təlim" fakültəsinin dekanı, "Fiziki tərbiyə və yüngül atletika" kafedrasının müdiri vəzifəsində çalışır. 50-dən artıq elmi əsərin, tədris və metodik vəsaitin müəllifidir.

2000-ci ildə "Gənclərin hərbi hazırlığının formalaşmasında hərbi-tətbiqi təlimlərin fizioloji əsasları və onun tədrisi metodikası" mövzusunda məruzə şəklində doktorluq alimlik dərəcəsi iddiası ilə çıxış etmişdir.

Azərbaycan Boks Federasiyasının, Azərbaycan Milli Olimpiya Akademiyasının üzvüdür. Beynəlxalq dərəcəli hakim, respublikanın Əməkdar məşqçisidir.

R.Baxşəliyev boks üzrə məşqçi kimi də mühüm uğurlar qazanmışdır. Onun yetirmələri respublika və ümumittifaq yarışlarında müvəffəqiyyətlə çıxış etmişlər.



**BIKOV VEDİSLAV İVANOVİÇ**

1939-cu il fevralın 9-da Bakıda anadan olmuşdur.

Boksla 1955-ci ildə "Neftçi" idman cəmiyyətində Əməkdar məşqçi Leonid Krivonosun yanında məşğul olmağa başlamışdır.

1959-1963-cü illərdə respublika spartakiadalarının, 1960-cı ildə Orta Asiya respublikaları spartakiadasının, 1964-1965-ci illərdə Azərbaycan çempionatının qalibi, 1961-ci ildə SSRİ Silahlı Qüvvələri birinciliyinin bürünc mükafatçısı, 1960-1961-ci illərdə Azərbaycan, Finlandiya və Almaniya komandalarının matç görüşlərinin qalibi olmuşdur.

1960-cı ildə SSRİ idman ustası adına layiq görülmüşdür.

1955-1986-cı illər ərzində müxtəlif müəssisələrdə çilingər işləmişdir. 1986-1995-ci illərdə Lökbatan qəsəbə stadionunun direktoru vəzifəsində çalışmışdır. 1962-1990-cı illərdə "Neftçi" idman cəmiyyətinin boks bölməsində məşqçi kimi çalışmışdır. Onun yetirmələri respublika yarışlarında gözəl texnika və döyüş nümayiş etdirərək yüksək yerlər tutmuşlar. 2001-ci ildə onun yetirməsi Namiq Dadaşov İngiltərədə yeniyetmələrin Avropa birinciliyində bürünc medala layiq görülmüşdür.

Respublika dərəcəli hakim və Əməkdar məşqçidir.



**CABBAROV RAUF ƏBDÜLQƏDİR OĞLU**

1935-ci il iyulun 8-də Bakı şəhərində anadan olub.

Boksla 10 il məşğul olmuş, respublika və ümumittifaq miqyaslı yarışlarda qalib və mükafatçı kimi fərqlənmişdir.

Əmək fəaliyyətinə 1957-ci ildə L.Şmidt adına zavodda çilingər vəzifəsində başlamışdır. 1960-cı ildən lampa zavodunda operator, 1963-cü ildə Taksi-Motor Parkında - yağlayıcı, 1969-cu ildən isə "Dinamo" idman cəmiyyətində və Bakı Uşaq-Gənclər idman məktəbində boks üzrə məşqçi-müəllim kimi fəaliyyət göstərmişdir. Uzun illər Azərbaycan yığma komandasının baş məşqçisi olmuş, onlarla yüksək dərəcəli boksçular hazırlamışdır. Onun yetirmələri Rövşən Hüseynov 1993-cü ildə gənclər və böyüklər arasında Avropa çempionu, 1994-cü ildə Dünya Kubokunun qızıl mükfatçısı olmuş, Əli İsmayılov 2 dəfə Avropa və 2 dəfə dünya çempionatı və kuboku yarışlarının bürünc medalını qazanmışdır.

Rauf Cabbarov Atlanta və Sidney yay Olimpiya Oyunlarında baş məşqçi kimi boksçularımızın iştirakını və uğurlu çıxışlarını təmin etmişdir. Yığma komanda üzvləri istedadlı idmançılar Ədalət Məmmədov Atlantada V, Vüqar Ələkbərov isə Sidneydə III yerləri tutaraq Azərbaycan boks məktəbinin nüfuzunu yüksəltmişlər.

Görkəmli məşqçi Rauf Cabbarovun əməyi yüksək qiymətləndirilmişdir. O, 2000-ci ildə ölkə prezidentinin fərmanı ilə "Tərəqqi" medalı ilə təltif edilmişdir. SSRİ idman ustası və Azərbaycan Respublikasının Əməkdar məşqçisidir.



**EYNULLAYEV AĞAHƏSƏN SEYFULLA OĞLU**

1937-ci il avqustun 29-da Bakı şəhərində anadan olmuşdur.

1957-ci ildə Bakı Neft texnikumunu, 1963-cü ildə isə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirmişdir.

İnstitutda oxuduğu müddətdə Artyom adasında texniki təhlükəsizlik üzrə mühəndis vəzifəsində çalışmışdır.

1954-cü ildən 1960-cı ilə kimi "Neftçi" idman cəmiyyətində boksla məşğul olmuşdur. Bu müddət ərzində Bakı şəhəri və respublika yarışlarında iştirak edərək yığma komandaya daxil edilmişdir.

1958 və 1960-cı illərdə Azərbaycan çempionu olmuş, 1960-cı ildə Azərbaycan - Almaniya komandalarının matç görüşlərində qalib gəlmişdir.

1967-ci ildən bu günə kimi Suraxanı rayonunun 279 saylı məktəbində bədən tərbiyəsi müəllimi vəzifəsində çalışır.

İdman ustası, respublika dərəcəli hakim adlarına layiq görülmüşdür.



**ƏLİYEV NAMİQ NƏRİMAN OĞLU**

1940-cı ildə Bakı şəhərində anadan olub.

Hələ gənc yaşlarında, 1956-62-ci illərdə “Dinamo” idman cəmiyyətində əməkdar məşqçi Aleksandr Kryuçkovun rəhbərliyi ilə boksun sirlərinə yiyələnmiş, Zaqafqaziya respublikaları birinciliyinin qalibi olmuşdur. 1962-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Rusiya Tibb Elmləri Akademiyasının Akademiki, tibb elmləri doktoru, professordur. Namiq Nəriman oğlu Əliyev hal-hazırda Elmi-Tədqiqat Tibbi Profilaktika institutunun direktoru vəzifəsində çalışır.



**ƏLİYEV PAŞA İBRAHİM OĞLU**

1934-cü il sentyabrın 16-da Gürcüstanın Batumi şəhərində anadan olmuşdur.

1950-ci ildə represiya nəticəsində ailəsi ilə birlikdə Qazaxıstana göndərilmişdir. 1957-ci ildə Qazaxıstan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil olmuş, iki il sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna keçirilmişdir. Həmin ildən Azərbaycan yığma komandası tərkibində müxtəlif ümumittifaq yarışlarında uğurla iştirak etmişdir. 1961-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu, 1966-cı ildə isə Azərbaycan Dövlət Universitetini bitirmişdir.

1954-cü ildən boksla məşğul olmağa başlamışdır. Qazaxıstan çempionatında mükafata layiq yer tutaraq, 1957-58-ci illərdə yığma komanda tərkibində bir sıra ümumittifaq miqyaslı yarışlarda uğurla çıxış etmişdir. 1958-ci ildə Moskvada "Burevestnik" idman cəmiyyəti mərkəzi şurasının ümumittifaq birinciliyində gümüş medal qazanmış və SSRİ çempionatında iştirak etmişdir.

1959-cu ildən 1964-cü ilə kimi Azərbaycan çempionatlarında iştirak edərək, mükafatlar qazanmış və Azərbaycan yığma komandası tərkibində Krasnodar, Lvov, Tallin görüşlərində iştirak etmiş, 1963-cü ildə isə Tiflisdə tələbələrin ümumittifaq idman oyunlarında bürünc medal qazanmışdır.

1962-ci ildə SSRİ idman ustası, adına layiq görülmüşdür.

Azərbaycan Boks Federasiyasının üzvüdür.



**HACIYEV NAĞI RZA OĞLU**

1940-cı il fevralın 23-də Bakıda anadan olmuşdur.

15 yaşında Bakıdakı “Burevestnik” idman cəmiyyətinə gələrək, boks bölməsinə yazılmış və respublikanın Əməkdar məşqçisi İlya Odinovun rəhbərliyi altında boksun sirlərinə yiyələnməyə başlamışdır. Öz fəallığı ilə seçilən Nağı tez bir zamanda rinq ustaları sırasına daxil olmuş və uğurlu çıxışları ilə pərəstişkarlarını sevindirmişdir. O, dəfələrlə Azərbaycan çempionu, Ümumittifaq Tələbələr Universiadasının və “Burevestnik” idman cəmiyyəti mərkəzi şurası birinciliyinin qalibi, SSRİ zona yarışlarının gümüş mükafatçısı, Azərbaycan-Danimarka yoldaşlıq görüşünün qalibi olmuşdur. Bu yüksək göstəricilərə görə, Nağı Hacıyev SSRİ fəxri idman ustası adına layiq görülmüşdür.

1969-1990-cı illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda baş müəllim vəzifəsində çalışmışdır. 1990-cı ildə ailəsi ilə birlikdə ABŞ-a köçmüş, 1998-ci il iyunun 17-də ağır xəstəlikdən sonra dünyasını dəyişmiş, Vətənə gətirilərək Bakıda dəfn edilmişdir.



**HÜSEYNOV OQTAY HÜSEYN OĞLU**

1938-ci il iyulun 12-də Bakıda anadan olmuşdur.

Boksla 1954-cü ildən məşğul olmağa başlamışdır. 1955-ci ildə "Neftçi" İC mərkəzi şurası birinciliyinin qalibi olmuşdur. 1956-1960-cı illərdə Azərbaycan çempionu, 1956-cı ildə yeniyetmələr arasında SSRİ birinciliyinin qalibi, 1958-ci ildə ümumittifaq həmkarlar ittifaqı mərkəzi şurası spartakiadasının bürünc mükafatçısı olmuşdur.

SSRİ idman ustası və Azərbaycanın "Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi" adına layiq görülmüşdür.

1961-ci ildə Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirmiş və Sumqayıt Sintetik Kauçuk Zavodunda bədən tərbiyəsi təlimatçısı vəzifəsində çalışmağa başlamışdır. 1964-1971-ci illərdə Sumqayıt şəhər "Neftçi" İC-də sədr kimi fəaliyyət göstərmişdir. 1971-1973-cü illərdə Sumqayıt şəhər idman komitəsində təlimatçı, 1973-78-ci illərdə isə sədr vəzifəsində çalışmışdır.

O.Hüseynov 1959-83-cü illərdə məşqçilik fəaliyyətilə də məşğul olmuş, onlarla yüksək dərəcəli idmançılar hazırlamışdır. Yetirmələri dəfələrlə Azərbaycan çempionu və ümumittifaq miqyaslı yarışların qalibi olmuşlar.

O.Hüseynov 1976-81-ci illərdə Moskvada Həmkarlar İttifaqının Ali Məktəbində təhsilini davam etdirmişdir.

1978-87-ci illərdə Azərbaycan Elmlər Akademiyası kosmik elmi-tədqiqat institutunun və sonralar birləşmiş həmkarlar ittifaqının sədr müavini olmuşdur.

1987-ci ildən həyatının son gününə kimi Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında baş müəllim vəzifəsində çalışmışdır. 2001-ci ildə vəfat etmişdir.



**İMANOV RAFİQ QARDAŞ OĞLU**

1939-cu il dekabrın 31-də Bakı şəhərində anadan olmuşdur.

Dəfələrlə Azərbaycan çempionu , 1961-ci ildə ümumittifaq tələbə oyunlarının qalibi, 1968-ci ildə ümumittifaq “Burevestnik” idman cəmiyyəti mərkəzi şurası birinciliyində mükafatçı, 1959-cu ildə Orta Asiya, Qazaxıstan və Azərbaycan respublikaları turnirinin qalibi, 1960 və 1963-cü illərdə Riqa və Tallin şəhərlərində ümumittifaq turnirlərin, ötən əsrin 60-cı illərində Azərbaycan - Finlandiya beynəlxalq görüşlərinin qalibi olmuşdur.

1961-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirərək “Burevestnik” idman cəmiyyətinə məşqçi-müəllim vəzifəsinə təyinat almışdır. Səkkiz il məşqçilik fəaliyyəti göstərmişdir. Bu illər ərzində bir sıra idman ustası hazırlamışdır. 1962-1968-ci illərdə təhsilini Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində davam etdirdikdən sonra 1969-1992-ci illərdə Daxili İşlər Nazirliyi sistemində çalışmışdır. 1982-1986-cı illər Suraxanı rayon polis idarəsinin, 1986-1992-ci illərdə isə Səbayel rayon polis idarəsinin rəisi vəzifəsində çalışmışdır. Polis polkovnikidir. 1977-ci ildə SSRİ Ali Sovetinin fərmanı və “Qırmızı ulduz” ordeni ilə təltif edilmişdir.

Hal-hazırda Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında baş hüquqşünas vəzifəsində çalışır.

Fəxri idman ustası, beynəlxalq dərəcəli hakim, Azərbaycan Boks Federasiyasının vitse-prezidentidir.



**KİPİANİ BORİS DAVİDOVİÇ**

1932-ci il noyabrın 20-də Bakı şəhərində anadan olmuşdur.

Boris Kipiani dəfələrlə Azərbaycan çempionu, gənclər arasında SSRİ birinciliyinin ümumittifaq tələbələr universiadasının qalibi, dəfələrlə ümumittifaq "Burevestnik" İC mərkəzi şurası birinciliyinin, beynəlxalq görüşlərin qalib və mükafatçısı olmuşdur.

SSRİ idman ustası, respublikanın Əməkdar məşqçisi və Əməkdar müəllimi fəxri adlarına layiq görülmüşdür. Onun məşqçisi - respublikamızın Əməkdar məşqçisi İlya Odinov olmuşdur.

Əmək fəaliyyətinə 1950-ci ildə neft istehsalı zavodunda başlamış B.Kipiani, artıq 1957-60-cı illərdə "Burevestnik" İC-də təlimatçı vəzifəsində, 1961-2001-ci illərdə isə boks üzrə məşqçi vəzifəsində çalışmış və onlarla yüksək dərəcəli idmançılar, SSRİ birinciliklərinin, ümumittifaq və beynəlxalq yarışların qalib və mükafatçılarını hazırlamışdır. Onun yetirmələri arasında Əməkdar məşqçi, elmlər namizədi, professor, görkəmli sənətkarlar da vardır.

B.Kipiani uzun illər respublika yığma boks komandasına rəhbərlik etmiş, Türkiyə milli komandasında məşqçi kimi çalışmış və boksun inkişafına böyük təkan vermişdir.

Hal-hazırda Dövlət Neft Akademiyasının Bədən Tərbiyəsi kafedrasında dosent vəzifəsində çalışır.

Beynəlxalq dərəcəli hakimdir.



**KARABUQAYEV DANİYAR MURATOVİÇ**

1931-ci il iyunun 1-də Quba rayonunda anadan olub.

Azərbaycan Dövlət Neft-Kimya İnstitutunu bitirib. Boksla 1952-ci ildə "İskra" idman cəmiyyətində, respublikanın Əməkdar məşqçisi İlya Odinovun rəhbərliyi altında məşğul olmağa başlamış, sonralar isə "Medik" və "Burevestnik" idman cəmiyyətlərində öz idman ustalığını təkmilləşdirmişdir.

1954-56-cı illərdə Bakı və Azərbaycan çempionu, 1953-cü ildə "İskra" idman cəmiyyətinin, 1957-ci ildə isə "Burevestnik" idman cəmiyyətinin mərkəzi şurası birinciliklərinin mükafatçısı olmuşdur. 1979-89-cu illərdə Bakıda müxtəlif təşkilatlarda baş mühəndis vəzifəsində çalışmışdır. 1990-cı ildən Moskvada yaşayır və Geoloji Tədqiqatlar İnstitutunda şöbə rəisi vəzifəsini icra edir.

İdman ustası və respublika dərəcəli hakimdir.

**KƏRİMOV ZÜLFÜQAR İNAYİD OĞLU**

1934-cü il avqustun 22-də Bakı şəhərində anadan olmuşdur.

1948-ci ildə "Bolşevik" idman cəmiyyətində boksla məşğul olmağa başlamışdır. 1953-cü ildə Azərbaycan çempionatında - III yeri, 1954-cü ildə isə II yeri tutaraq yığma komandaya daxil edilmiş, 1953 və 1955-ci illərdə "İskra" idman cəmiyyəti ümumittifaq mərkəzi şurasının birinciliyində bürünc medala layiq görülmüşdür.

Əmək fəaliyyətinə 1950-ci ildə Bakı Zərgərlik Fabrikində başlamışdır. 1955-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil olmuş, lakin müəyyən səbəblərə görə təhsilini başa vura bilməmişdir.

1967-ci ildə "Ehtiyat Əmək Qüvvələri" idman cəmiyyətində boks üzrə məşqçi kimi çalışmış, 1970-ci ildə isə bu idman cəmiyyətinin idman sağlamlıq bazasında müdir vəzifəsinə təyin edilmişdir. Sonra "Ehtiyat Əmək Qüvvələri" idman cəmiyyətinin ixtisaslaşdırılmış boks məktəbinin müdiri vəzifəsində çalışmışdır.

Azərbaycan Respublikasının Əməkdar məşqçisi və beynəlxalq dərəcəli hakimdir.



**QULİYEV ADİL AĞA OĞLU**

3 iyun 1938-ci ildə Bakı şəhərində anadan olmuşdur.

Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini 1962-ci ildə bitirmişdir.

Hələ məktəb yaşlarında ikən boksa böyük maraq göstərmiş, 1950-ci ildə “Dinamo” idman cəmiyyətində Əməkdar məşqçi Aleksandr Kryuçkovun rəhbərliyi altında ilk məşqlərə başlamışdır.

Dəfələrlə Azərbaycan çempionu, “Dinamo” ümumittifaq idman cəmiyyəti mərkəzi şurasının və gənclərin SSRİ birinciliyinin gümüş mükafatçısı olmuş, İsveçrədə, Finlandiyada, Polşada, Çexoslovakiyada keçirilən beynəlxalq yarışlarda keçmiş SSRİ-nin gənclərdən ibarət yığma komandası tərkibində uğurla çıxış etmişdir. Fəxri idman ustasıdır.

Əmək fəaliyyətinə 1954-cü ildə tikinti idarəsində fəhlə vəzifəsində başlamışdır. 1957-1966-cı illərdə Silahlı Qüvvələr və daxili qoşunlarda qulluq etmiş, sonrakı illərdə isə məişət xidməti idarəsinin, respublika stadionunun direktoru, Azərbaycan peşəkar boks federasiyasının prezidenti vəzifələrində çalışmışdır.



**QOLUBENKO BORİS ƏSƏD OĞLU**

1934-cü il yanvarın 13-də Bakı şəhərində anadan olub.

Boksa gənc yaşında olarkən böyük maraq göstərmiş və 1950-ci ildə Azərbaycanın Əməkdar məşqçisi İlya Odinovun rəhbərliyi altında “Burevestnik” idman cəmiyyətinin boks bölməsində məşqlərə başlamış və tez bir zamanda istedadlı boksçu kimi tanınmışdır. SSRİ idman ustası adına layiq görülmüşdür.

Elə ilk rinq döyüşlərində öz yaşıdları arasında fərqlənən boksçu respublika yığma komandasına daxil edilmiş və ümumittifaq miqyaslı yarışlarda uğurla Azərbaycanı təmsil etmişdir.

B.Qolubenko Sovet boks ixtisasçılarının da diqqətini cəlb etmiş və o, SSRİ yığma komandasına dəvət edilmişdir. SSRİ yığma komandası tərkibində İngiltərə, İsveçrə, Rumıniya, Polşa və s. ölkələrdə keçirilən beynəlxalq görüşlərdə böyük ustalıq nümayiş etdirərək qələbələr qazanmağa nail olmuşdur. Ümumdünya Gənclərinin Festivalında gümüş medal qazanmışdır. Dəfələrlə Azərbaycan və SSRİ Silahlı qüvvələri çempionatlarının qalibi olmuş Boris Qolubenko gənc yaşlarında, 1956-cı ildə vəfat etmişdir.



**QULİYEV OQTAY ƏSƏDULLA OĞLU**

1934-cü il noyabrın 7-də Bakı şəhərində anadan olmuşdur.

Boksla 1950-ci ildə "İskra" idman cəmiyyətində məşğul olmağa başlamışdır. 1954-cü ildə Azərbaycan çempionu, 1955-ci ildə ümumittifaq "Medik" idman cəmiyyəti mərkəzi şurasının birinciliyində ikinci yeri tutmuş və ümumittifaq bədən tərbiyəsi institutları birinciliyində gümüş medal almış, 1955-ci ildə SSRİ birinciliyinin zona yarışında isə III yeri tutmuşdur. 1958-ci ildə SSRİ idman ustası, 1961-ci ildə respublika dərəcəli hakim, 1997-ci ildə Əməkdar məşqçi və 2001-ci ildə isə Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi adına layiq görülmüşdür. 60 elmi məqalə və əsərin, tədris vəsaitlərinin, metodik tövsiyələrin müəllifidir. 1983-cü ildə pedaqoji elmlər namizədi elmi dərəcəsi və 1997-ci ildə professor elmi adını almışdır.

1958-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib, həmin institutda əmək fəaliyyətinə başlamışdır. Laborant, baş laborant, müəllim və prorektor vəzifələrində çalışmışdır. 1986-cı ildən 2000-ci ilə kimi Azərbaycan İnşaat Mühəndislər Universitetinin bədən tərbiyəsi və idman kafedrasının müdiri olmuşdur. Hal-hazırda Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının ixtisaslaşdırma fakültəsinin müdiridir.



**QASSO VENİAMİN**

1938-cı ildə Xanlar rayonunda anadan olmuşdur.

Boksla məşğul olmağa “Dinamo” idman cəmiyyətində Əməkdar məşqçi A.Kryuçkovun rəhbərliyi altında başlamışdır.

V.Qasso öz fiziki hazırlığı ilə yaşıdlarından seçilirdi. Məhz bu üstünlüyü ona yarışlarda uğurlar qazanmağa və döyüşlərinin əksəriyyətini nokautla qurtarmağa imkan verirdi.

1956-cı ildə yeniyetmələr arasında SSRİ birinciliyinin qalibi adına layiq görülmüşdür. Dəfələrlə Azərbaycan çempionu, “Dinamo” idman cəmiyyəti mərkəzi şurası birinciliyinin, Zaqafqaziya respublikaları Spartakiadasının, beynəlxalq yarışların qalibi olmuşdur. Bu yüksək nəticələrə görə ona SSRİ idman ustası adı verilmişdir.



**QARAŞARLI TOĞRUL**

1936-cı ildə Bakı şəhərində anadan olmuşdur.

"Dinamo" idman cəmiyyətində boksla məşğul olmuş, dəfələrlə respublika, ümumittifaq və beynəlxalq miqyaslı yarışlarda iştirak edərək müxtəlif əyarlı medallar qazanmışdır. SSRİ idman ustası adına layiq görülmüşdür.

Uzun illər Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun ağır atletika və boks kafedrasında müəllim və baş müəllim vəzifələrində çalışmışdır. Moskvada, aspiranturada təhsilini artırmışdır.

49 yaşında dünyasını dəyişmişdir.



**MAHMUDOV RAFİQ NƏBİ OĞLU**

1938-ci il fevralın 5-də Bakıda anadan olub.

Boksla məşğul olmağa 16 yaşından "Burevestnik" idman cəmiyyətində, məşqçi Oqtay Quliyevin rəhbərliyi altında başlayıb. 1957-ci ildən 1965-ci ilədək "Dinamo" idman cəmiyyətini təmsil edərək bir sıra yarışlarda yüksək yerlər tutub. SSRİ idman ustası adına layiq görülüb.

Texniki elmlər doktoru, professor Rafiq Mahmudov hazırda Azərbaycan Texniki Universitetinin "Nəzəri mexanika" kafedrasının müdiridir. 120-dək elmi əsərin, 3 monoqrafiyanın müəllifidir. Bu monoqrafiyalardan 2-si Polşa Respublikasında dərc olunub.

Polşa dövlətinin qərarı ilə "Polşa geologiyasına göstərdiyi xidmətlərə görə" medalı ilə təltif edilməklə, ona "Polşanın Əməkdar neft geoloqu" fəxri adı verilib.



**MƏMMƏDOV ELMAN QARA OĞLU**

1936-cı il fevralın 26-da Bakı şəhərində anadan olub.

13 yaşından boksla məşğul olmağa başlayıb. İlk məşqçisi Hüseyn Səfərov olub. Sonrakı illərdə ustalığını "Burevestnik" idman cəmiyyətində Əməkdar məşqçi İlya Odinovun rəhbərliyi altında artıran Elman Məmmədov yüksək nəticələr əldə edə bilmişdir. Azərbaycan çempionu, SSRİ birinciliyinin gümüş, "Spartak" idman cəmiyyəti Mərkəzi Şurası birinciliyinin bürünc mükafatçısı olmuşdur. Göstərdiyi idman nəticələrinə görə SSRİ idman ustası, Azərbaycan Respublikasının "Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi" adlarına layiq görülmüşdür.

1958-ci ildə ADBTİ-nu, 1980-cı ildə isə ADU-nun aspiranturasını bitirmişdir.

Əmək fəaliyyətinə bədən tərbiyəsi təlimatçısı kimi başlamış, sonrakı illərdə isə müxtəlif ictimai və dövlət təşkilatlarında katib, şöbə müdiri, sədr müavini, rəis vəzifələrində çalışmışdır. Hal-hazırda Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında kadrlar şöbəsinin rəisi vəzifəsində işləyir.



**MELÇİN YEVGENİ İVANOVİÇ**

1932-ci il avqustun 1-də Daşkənd şəhərində anadan olmuşdur.

1945-ci ildə Bakıya köçmüş və Bakı Texniki Peşə Məktəbində orta təhsil aldıqdan sonra 1947-ci ildə əmək fəaliyyətinə tornaçı kimi başlamışdır.

Boksla məşğul olmağa "Spartak" idman cəmiyyətində Əməkdar məşqçi A.Ağalarovun rəhbərliyi altında başlamışdır. 4 dəfə Azərbaycan çempionu (1951, 1956, 1957, 1959), eləcə də Estoniya çempionu (1953), Belorusiya və Baltikyanı respublikaların spartakiadasının (1954), Moldova və Zaqafqaziya respublikaları spartakiadasının (1957) qalibi, SSRİ çempionatının gümüş (1954) və SSRİ xalqları spartakiadasının (1959) bürünc mükafatçısı olmuşdur.

1952-ci ildə hərbi xidmətə çağırılmış, 1955-ci ildə tərxis olunduqdan sonra Bakıda "Spartak" idman cəmiyyətində boks üzrə məşqçi kimi fəaliyyət göstərməyə başlamışdır. 1971-ci ildə Sumqayıt şəhərində boks üzrə baş məşqçi olaraq fəaliyyətini davam etdirməyə başlamışdır.

Sonrakı illərdə "Burevestnik", "Dinamo" və Ordu İdman Klubunda məşqçilik etmişdir.

SSRİ idman ustası, Azərbaycan Respublikasının Əməkdar məşqçisi adlarına layiq görülmüşdür.

## PUQAÇOV NİKOLAY VASİLYEVİÇ

1936-cı ildə Bakı şəhərində anadan olmuşdur.

Boksla məşğul olmağa uşaq yaşlarından İlya Odinovun rəhbərliyi altında başlamışdır.

Atası, ordu zabiti Vasiliy Puqaçov Polşada hərbi xidmətdə olduğu zaman Nikolay bir sıra yarışlarda, o cümlədən Polşa birinciliyində uğurla çıxış edərək çempion adına layiq görülmüşdür. Azərbaycan boks məktəbinin yetirməsi olan Nikolay Puqaçov Polşanın gənclərdən ibarət yığma komandasına cəlb edilmişdir.

Bakıya qayıtdıqdan sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirmişdir. Dəfələrlə respublika və ümumittifaq miqyaslı yarışlarda qalib və mükafatçılar sırasında yer almışdır. SSRİ idman ustası adına layiq görülmüşdür.

Rinqi tərk etdikdən sonra məşqçilik və hakimlik fəaliyyəti ilə məşğul olmağa başlamışdır. Ümumittifaq dərəcəli hakim kimi SSRİ çempionatlarını və bir sıra mötəbər yarışları yüksək səviyyədə idarə edərək bu sahədə də uğurlar qazanmışdır.

Bakı şəhərində vəfat etmişdir.



**SXİVİRAŞVİLİ BORİS SEMYONOVİÇ**

1936-cı il iyulun 23-də Bakı şəhərində anadan olmuşdur.

1953-cü ildən "Dinamo" idman cəmiyyətində A.Kryuçkovun rəhbərliyi altında boksla məşğul olmağa başlamışdır. Bakı şəhəri və respublika çempionatlarının qalibi, 1958-ci ildə ümumittifaq "Dinamo" İC mərkəzi şurası birinciliyinin və SSRİ çempionatı zona yarışının gümüş mükafatçısı olmuşdur.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib. Uzun illər "Neftçi" idman cəmiyyətində məşqçi, təlimatçı və şöbə müdiri vəzifəsində çalışmışdır.

SSRİ idman ustası, beynəlxalq dərəcəli hakim (AİBA) adlarına layiq görülmüşdür. 1961-ci ildə Qazaxıstana köçmüş, Dövlət İdman Komitəsində rəhbər vəzifələrdə çalışmışdır. Müxtəlif illərdə dünya, Asiya çempionatlarında, Olimpiya oyunlarında uğurla hakimlik etmişdir.



**SOLOMONOV DAVUD SOLOMONOVİÇ**

1942-ci il sentyabrın 30-da Bakı şəhərində anadan olmuşdur. Boksla 1958-ci ildə “Dinamo” idman cəmiyyətində respublikanın Əməkdar məşqçisi Aleksandr Kryuçkovun rəhbərliyi altında məşğul olmağa başlamışdır. Dəfələrlə Azərbaycan birinciliyi və çempionatlarında mükafata layiq yerlər tutmuş, ümumittifaq “Dinamo” idman cəmiyyəti mərkəzi şurasının birinciliklərində iki dəfə fəxri kürsünün ən yüksək pilləsinə qalxmış, ümumittifaq miqyaslı turnirlərin (Kaunas, Pyarnu, Riqa) mükafatçısı olmuşdur.

SSRİ idman ustasıdır.



**SEKAÇOV ANATOLİY ANDREYEVİÇ**

1936-cı il mayın 12-də Bakı şəhərində anadan olub.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib. Əmək fəaliyyətinə sadə fəhləlikdən başlamış, müxtəlif illərdə Bakının zavod və fabriklərində çalışmışdır.

1950-ci ildə "Neftçi" idman cəmiyyətinə gələrək Əməkdar məşqçi Oleq Kuxarenkonun rəhbərlik etdiyi boks bölməsinə yazılmışdır. Öz idman ustalığını daim artıraraq yüksək idman nəticələri əldə etmişdir.

Dəfələrlə Azərbaycan çempionu, Özbəkistan çempionu, ümumittifaq "Ehtiyat Əmək Qüvvələri" idman cəmiyyəti mərkəzi şurası birinciliyinin bürünc mükafatçısı olmuşdur. 1958-ci ildə SSRİ idman ustası adına layiq görülmüşdür.

Hal-hazırda təqaüdçüdür, Rusiyanın Saratov şəhərində yaşayır.



**SALAYEV KAMİL YUSİF OĞLU**

1929-cu il aprelin 5-də Naxçıvanda anadan olmuşdur.

1945-ci ildə Naxçıvandakı "Dinamo" idman cəmiyyətində boksla məşğul olmağa başlamışdır. Orta məktəbi qurtardıqdan sonra Bakı Bədən Tərbiyəsi Texnikumunda təhsilini davam etdirmişdir. Bir neçə il səmərəli məşqlər nəticəsində respublika və ümumittifaq miqyaslı yarışlarda qalib və mükafatçı olmuşdur. Naxçıvan Muxtar Respublikasında boksun banilərindən biri olan K.Salayev qısa bir müddət ərzində öz ətrafına onlarla gənci toplayıb onlara boksun sirlərini öyrədir və məsul yarışlara hazırlayırdı. 1950-ci illərdə artıq Kamil müəllimin yetirmələri respublika yarışlarında paytaxt idmançılarına layiqli döyüş nümayiş etdirərək Naxçıvan boks məktəbinin nüfuzunu artırmağa başlamışlar. Sonrakı illər Naxçıvan idmançılarının sorağı ümumittifaq yarışlardan gəlirdi. K.Salayev yetirmələri ilə yanaşı özü də yarışlarda iştirak edərək nümunəvi döyüş nümayiş etdirib, hətta hərbçilər arasında Zaqafqaziya birinciliyinin qalibi olmuşdur. Onun idmandakı əməyi Əməkdar məşqçi adı ilə qiymətləndirilmişdir.

Kamil Salayev 1988-ci ildə vəfat etmiş və doğma Naxçıvan torpağında dəfn olunmuşdur.



**SMİRNOV VİLEN**

Bakıdakı "Dinamo" idman cəmiyyətində Əməkdar məşqçi A.Kryuçkovun rəhbərliyi altında boksla məşğul olmuş, dəfələrlə respublika çempionatlarının, ümumittifaq miqyaslı yarışların qalibi olmuş, 1953-cü ildə SSRİ çempionatında gümüş medal qazanmışdır. SSRİ idman ustası adına layiq görülmüşdür. Moskvaya köçdükdən sonra uzun illər Dövlət Təhlükəsizlik Komitəsində çalışmışdır.



**VƏLİYEV ƏKBƏR SƏMƏD OĞLU**

1933-cü ildə Bakı şəhərində anadan olmuşdur.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirdikdən sonra, Belorusiyada təhsilini davam etdirmiş və Bakıya qayıtdıqdan sonra dövlət təhlükəsizlik orqanlarında fəaliyyət göstərmişdir. Uzun illər işlədiyi qüsursuz əməyinə görə bir neçə dəfə yüksək dövlət mükafatları ilə təltif edilmişdir.

Gənc yarışlarından boks idman növü ilə Əməkdar idman ustası, Əməkdar məşqçi A.Ağalarovun rəhbərliyi altında aktiv məşğul olaraq dəfələrlə respublika, ümumittifaq və beynəlxalq yarışlarda uğurla çıxış edərək qalib və mükafatçılar sırasında olmuşdur. Onun gözəl texnikası və döyüş manevri indi də bokssevərlərin xatirindədir.

Əkbər Vəliyev məşqçi kimi “Lokomotiv” idman cəmiyyətində fəaliyyət göstərdiyi müddət ərzində də fərqlənmiş və onlarla rinq ustalarının yetişməsinə öz bilik və bacarığını əsirgəməmişdir.

İstedadlı idmançı, məşqçi və təşkilatçı Ə.Vəliyev SSRİ idman ustası adına layiq görülmüşdür.

Əkbər Vəliyev 1997-ci ildə dünyasını dəyişmişdir.



**YUSİFOV RAMİZ YUSİF OĞLU**

1936-cı il mayın 15-də Ağdam rayonunda anadan olmuşdur.

Boksla 1952-ci ildən "Spartak" idman cəmiyyətində məşğul olmağa başlamışdır. 1954-58-ci illərdə gənclər və kişilər arasında Azərbaycan çempionu olmuşdur. 1958-ci ildə SSRİ idman ustası adına layiq görülmüşdür.

1959-cu ildə Bakı Dövlət Universitetini bitirib. Əvvəlcə bu təhsil ocağında laborant vəzifəsində çalışmış, 1962-65-ci illərdə aspirant olmuş, 1965-80-cı illərdə Azərbaycan Elmlər Akademiyasında baş elmi işçi, 1980-97-ci illərdə isə AEA-ın geologiya institutunda baş geoloq vəzifəsində çalışmışdır. Elmlər namizədi, dosentdir.

Beynəlxalq dərəcəli hakim, Azərbaycan Boks Federasiyasının vitse-prezidentidir.



## YENİKEYEV RAVİL CAHANŞAH OĞLU

1941-ci il iyulun 17-də Bakıda anadan olmuşdur.

Ravil Yenikeyev boksla 14 yaşında "Neftçi" idman cəmiyyətində məşğul olmağa başlamışdır. 1966-cı ildə Azərbaycan çempionu, 1968-ci ildə isə Ümumittifaq Həmkarlar İttifaqları Mərkəzi Şurasının birinciliyində bürünc mükafatçı olmuşdur.

1975-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib. "Neftçi" idman cəmiyyətində məşqçi kimi boks bölməsinə rəhbərlik etmişdir. 1966-cı ildən 1991-ci ilə kimi "Neftçi" idman cəmiyyətində işlədiyi müddətdə onlarla respublika, ümumittifaq və beynəlxalq yarışların qalib və mükafatçılarını hazırlamışdır. Hal-hazırda Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasında çalışır.

İdman ustası, Azərbaycan Respublikasının Əməkdar məşqçisi, beynəlxalq dərəcəli hakim adına layiq görülmüşdür.

## IX FƏSİL



# AZƏRBAYCAN BOKSÇULARI 1960-1970-CI İLLƏRDƏ



**AXUNDOV ASİF EYNALI OĞLU**

1950-ci il fevralın 14-də Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində anadan olub.

Boksla məşğul olmağa Bakı şəhərində, "Ehtiyat Əmək Qüvvələri" idman cəmiyyətində Tofiq Babanlının məşqçiliyi altında başlayıb.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib.

Dəfələrlə Azərbaycan çempionu, ümumittifaq və beynəlxalq yarışların qalib və mükafatçısı olub.

1973-cü ildə Naxçıvan Uşaq-Gənclər İdman Məktəbində məşqçi-müəllim vəzifəsində çalışmağa başlamış, burada işlədiyi dövrdə onlarla yüksək dərəcəli boksçular, hakimlər və məşqçilər yetişdirmişdir.

Asif Axundov 1980-cı ildə Naxçıvanın "Araz" futbol komandasına inzibatçı təyin olunmuşdur. Təşkilatçılıq bacarığı yüksək qiymətləndirilən A.Axundov 1990-cı ildə Bakıya dəvət olunmuş, əvvəlcə Bakı İdman Kombinatına baş təlimatçı, 1994-cü ildə isə Əl Oyunları Sarayına baş direktor təyin olunmuşdur. Burada da özünü doğruldan Asif Axundov ona göstərilən etimadın əbəs olmadığını sübut etmişdir.

1997-ci ildə dünyasını dəyişmişdir.



**BABAYEV NADİR**

Bakı şəhərində anadan olmuşdur.

Boksun sirlərinə Əməkdar məşqçi, Əməkdar idman ustası Abbas Ağalarovun rəhbərliyi altında yiyələnmişdir.

Dəfələrlə respublika miqyaslı yarışlarda rinqi qələbə ilə tərk etmiş Nadir Babayev gənclərin SSRİ birinciliyində gümüş medala layiq görülmüşdür.

SSRİ-nin tələbə yığma komandası tərkibində Finlandiya, Macarıstan, Fransa və Norveçdə keçirilən beynəlxalq yarışlarda uğurla çıxış edərək, Azərbaycan boks məktəbinin gözəl ənənələrini layiqincə davam etdirmişdir.

SSRİ idman ustası adına layiq görülmüşdür. Bauman adına Moskva Ali təhsil ocağını bitirmiş, 10 ildən çox müddətdə Daxili İşlər Nazirliyində polis polkovniki rütbəsinədək yüksəlmişdir. Əmək fəaliyyətinin ən yüksək çağında vəfat etmişdir.



**EYNULLAYEV BALAHƏSƏN SEYFULLA OĞLU**

1943-cü il iyulun 5-də Bakı şəhərinin Bül-bülə qəsəbəsində anadan olmuşdur.

1957-ci ildə B.Eynullayev ilk dəfə olaraq idmanın boks idman növü ilə "Neftçi" idman cəmiyyətində məşğul olmağa başlamışdır. Onun ilk məşqçisi, Azərbaycan Boks Federasiyasının indiki prezidenti Ağacan Abiyev olmuşdur. Sonralar "Burevestnik" və "Dinamo" idman cəmiyyətlərində öz idman ustalığını artırmışdır. 11 dəfə Azərbaycan çempionu olmuş, Qazaxıstan respublika komsomolu mükafatı uğrunda keçirilmiş turnirdə gümüş, ümumittifaq tələbə oyunlarında (1964) bürünc, SSRİ birinciliyinin zona yarışında (1965) gümüş, "Burevestnik" idman cəmiyyətinin mərkəzi şurasının ümumittifaq birinciliyində qızıl (1966) və bürünc (1968), "Dinamo" idman cəmiyyətinin mərkəzi şurasının ümumittifaq birinciliyində gümüş medallara layiq görülmüş, müxtəlif illərdə Finlandiyada, Kambocada və Azərbaycanda keçirilən beynəlxalq görüşlərdə qalib gəlmişdir.

Yüksək idman göstəricilərinə görə SSRİ fəxri idman ustası, Azərbaycanın Əməkdar məşqçisi və beynəlxalq dərəcəli hakim adlarına layiq görülmüşdür.

Azərbaycan Neft və Kimya İnstitutunu bitirib. Hal-hazırda "Barmek-Azərbaycan" elektrik şirkətində çalışsa da idmandan ayrılmamışdır. 1974-cü ildən bu günə kimi boş vaxtlarını yeniyetmə və gənc boksçuların tərbiyə olunmasına, yüksək dərəcəli idmançıların yetişdirilməsinə sərf etmişdir. Uzun illər "Dinamo" və "Təhsil" idman mərkəzlərində məşqçi-müəllim kimi fəaliyyət göstərərək onlarla ümumittifaq və beynəlxalq yarışların qalib və mükafatçılarını hazırlamışdır.



**ƏLİYEV SƏFƏR ABBASƏLİ OĞLU**

1948-ci ildə Bakıda anadan olmuşdur.

1960-cı ildə “Ehtiyat Əmək Qüvvələri” idman cəmiyyətində Əməkdar məşqçi Tofiq Babanlının rəhbərliyi altında boksun sirlərinə yiyələnməyə başlamışdır.

Boksla məşğul olduğu illər ərzində dəfələrlə Azərbaycan çempionu, ümumittifaq “Ehtiyat Əmək Qüvvələri” idman cəmiyyətinin mərkəzi şurası birinciliklərinin, beynəlxalq yarışların qalib və mükafatçısı, yeniyetmə və gənclər arasında SSRİ birinciliklərinin gümüş mükafatçısı olmuşdur.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirdikdən sonra məşqçilik fəaliyyətinə öz doğma idman cəmiyyətində başlamışdır. Onlarla respublika və ümumittifaq miqyaslı yarışların qaliblərini hazırlamışdır.

SSRİ idman ustası, beynəlxalq dərəcəli hakim adlarına layiq görülmüşdür. Hal-hazırda Polşada məşqçi vəzifəsində çalışır.



**ƏLİMZANOV ŞAMİL ƏHMƏDCANOVİÇ**

1946-cı il avqustun 28-də Bakıda anadan olmuşdur.

1960-cı ildən boksla məşğul olmağa başlamışdır. Müxtəlif illərdə Bakı və Azərbaycan çempionatlarında iştirak edərək, mükafata layiq yerlər tutmuşdur. Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirdikdən sonra fəaliyyətini məşqçi kimi davam etdirmişdir.

Məşqçi-müəllim vəzifəsində çalışdığı müddət ərzində onun yetirmələrindən Ədalət Məmmədov gənclər arasında Avropa birinciliyinin qalibi, dünya birinciliyinin bürünc mükafatçısı (1992), Atlanta Olimpiya Oyunlarının iştirakçısı (1996-cı il, V yer), Fərhad Acalov iki dəfə yeniyetmələr arasında Avropa birinciliyinin gümüş mükafatçısı və gənclər arasında dünya çempionu olmuşdur. Onlarla idman ustaları hazırlamışdır.

Hal-hazırda "Rabitəçi" idman klubunda və respublikanın gənclərdən ibarət yığma komandasında baş məşqçi vəzifəsində çalışır. Respublika dərəcəli hakim, Azərbaycan Respublikasının Əməkdar məşqçisidir.



**GÖZƏLOV VAQİF YUSİF OĞLU**

1942-ci il fevralın 16-da Əli-Bayramlıda anadan olmuşdur.

1959-cu ildən Əli-Bayramlıda "Məhsul" idman cəmiyyətində boksla məşğul olmağa başlamışdır. 1961-ci ildə gənclər arasında Azərbaycan birinciliyinin qalibi, 1963-cü ildə isə ümumittifaq "Lokomotiv" idman cəmiyyəti mərkəzi şurası birinciliyində bürünc mükafatçı olmuşdur. Boks üzrə beynəlxalq dərəcəli hakimdir.

1966-cı ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İstitutunu bitirdikdən sonra idman sahəsində çalışmağa başlamışdır. İlk əmək fəaliyyətinə 1960-cı ildə Əli-Bayramlı rayon elektrik stansiyasında çilingər vəzifəsində başlamışdır. 1966-cı ildə 1 saylı məktəbdə, 1968-ci ildə isə 14 saylı beynəlmiləl məktəbdə bədən tərbiyəsi müəllimi işləmişdir. Hərbi xidməti bitirdikdən sonra 14 saylı beynəlmiləl məktəbə qayıtmış və bu günə kimi öz müəllimlik vəzifəsini yerinə yetirir.



**HÜSEYNOV VAQİF HÜSEYN OĞLU**

1954-cü il oktyabrın 18-də Bakıda anadan olub.

1965-ci ildə Bakıdakı "Ehtiyat Əmək Qüvvələri" idman cəmiyyətinin boks bölməsində Əməkdar məşqçi Tofiq Babanlının rəhbərliyi altında öz idman ustalığını artırmış, Azərbaycan çempionatlarının, Zaqafqaziya və SSRİ Silahlı Qüvvələri, Almaniyada Sovet hərbçiləri qrupu birinciliklərinin, ümumittifaq və beynəlxalq yarışların mükafatçısı olmuşdur.

1976-cı ildə Bakı Ali Ümumqoşun Komandanlıq məktəbini bitirib. Əmək fəaliyyətinə də həmin ildən başlamışdır. Bakıda, Gürcüstanda, Almaniyada müxtəlif hərbi vəzifələrdə çalışmış və polkovnik rütbəsinə kimi ucalmışdır.

Hal-hazırda Azərbaycan Respublikası Müdafiə Nazirliyində fiziki hazırlıq və idman şöbəsinin rəisi vəzifəsində çalışır. İdman ustasıdır.



**İBRAHİMOV NAZİM NƏRÇƏ OĞLU**

1939-cu il yanvarın 16-da Bakı şəhərində anadan olmuşdur.

N.İbrahimovun boksla məşğul olması 1956-1966-cı illərə təsadüf edir. O, “Dinamo” idman cəmiyyətinin üzvü olmuşdur. Əməkdar məşqçi Aleksandr Kryuçkovun yanında öz idman ustalığını təkmilləşdirmiş və tez bir zamanda respublikanın yığma komandasına daxil edilmişdir.

1960-1962-ci illərdə Bakı və Azərbaycan çempionatı və spartakiadasının, Dağıstanın açıq çempionatının qalibi, “Dinamo” idman cəmiyyəti mərkəzi şurasının, ümumittifaq turnirlərin, Zaqafqaziya və Asiya birinciliyinin mükafatçısı olmuşdur. SSRİ idman ustasıdır.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirdikdən sonra, 1973-cü ildə Azərbaycan Dövlət Universitetinə daxil olaraq 1979-cu ildə hüquqşünas ixtisasına yiyələnmişdir.

Əmək failiyyətinə 1957-ci ildə Tramvay-Troleybus Parkında çilingər vəzifəsində başlayan Nazim İbrahimov uzun illər daxili işlər orqanlarında çalışaraq əməliyyat şöbəsinin rəisi vəzifəsinə kimi ucalmışdır. Polis Podpolkovnikidir.

N.İbrahimov bir sıra dövlət mükafatları - “Sovet millisinin 50 illik yubileyi” medalı, “Milis əlaçısı” və “İctimai məişətin qorunması üzrə yaxşı xidmətlərinə görə” medallarlı ilə təltif edilmişdir.



**QURBANOV DADAŞ ƏBDÜL OĞLU**

1946-cı il aprelin 28-də Bakı şəhərində dünyaya göz açmışdır.

1970-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib.

1960-cı ildən boksla məşğul olmağa başlamışdır. "Burevestnik" idman cəmiyyətinin boks bölməsində məşqçi Rafiq İmanovun rəhbərliyi altında öz ustalığını artıran Dadaş Qurbanov tez bir zamanda respublika yığma komandasına dəvət edilir və yığma komanda tərkibində mötəbər yarışlarda uğurla çıxış edir. O, 1963-1967-ci illərdə Azərbaycan birinciliklərinin qalibi, SSRİ birinciliklərinin bürünc və gümüş mükafatçısı, SSRİ komanda birinciliyinin zona mərhələsinin qalibi, beynəlxalq və ümumittifaq turnirlərin qalibi, gənclər arasında Avropa komanda kuboku yarışının iştirakçısı olmuşdur. SSRİ idman ustası adına layiq görülmüşdür.

Əmək fəaliyyətinə 1970-ci ildə Bakı səyahət və ekskursiya şurasında təlimatçı vəzifəsində başlamış, sonralar şöbə müdiri və şuranın müdiri vəzifələrinədək yüksəlmişdir. 1998-ci ildə isə turizm-servis firmasına keçərək direktor vəzifəsinə kimi ucalmışdır.

2003-cü ildə ağır xəstəlikdən sonra vəfat etmişdir.



**QASIMOV KAMRAN MƏMMƏD OĞLU**

1949-cu il iyunun 1-də Naxçıvanda anadan olmuşdur.

K.Qasımov boksda ilk addımlarını 1965-ci ildə atmağa başlamışdır. “Burevestnik” idman cəmiyyətində gənc məşqçi Rafiq İmanovun rəhbərliyi altında idman ustalığını artıraraq tez bir zamanda respublika yığma komandasına daxil olmuş, 1968-ci ildə Ümumittifaq Tələbələr Universiadasının bürünc, 1970-ci ildə gümüş mükafatçısı olmuş, 1968-ci ildə SSRİ-nin gənclərdən ibarət yığma komandasının tərkibində bir sıra ümumittifaq və beynəlxalq yarışlarda iştirak edərək fəxri kürsünün müxtəlif pillələrinə yüksəlmişdir. Dəfələrlə Azərbaycan və Zaqafqaziya çempionu olmuşdur. İdman ustası, Əməkdar məşqçi adına layiq görülmüşdür.

1970-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirdikdən sonra “Burevestnik” idman cəmiyyətində boks üzrə məşqçi-müəllim vəzifəsində çalışmışdır. 1981-ci ildən bu günə kimi Bakı Uşaq-Gənclər Məktəbinin direktorudur.



**MƏMMƏDOV AYDIN QASIM OĞLU**

1947-ci il aprelin 25-də Naxçıvanın Şərur rayonunun Sədərək kəndində anadan olub.

1965-ci ildə Bakı Sənaye Pedaqoji Texnikumunu, 1971-ci ildə isə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirmişdir.

Əmək fəaliyyətinə 1968-ci ildə 1 saylı Texniki Peşə Məktəbində başlamışdır.

1968-1975-ci illərdə "Ehtiyat Əmək Qüvvələri" idman cəmiyyətində boks üzrə yarımştat, 1977-1978-ci illərdə isə tam ştatla məşqçi vəzifəsində çalışmışdır. 1979-1995-ci illərdə Bakı Sənaye Pedaqoji Texnikumunda bədən tərbiyəsi müəllimi, sonra isə bədən tərbiyəsi rəhbəri vəzifələrində işləmişdir. Hal-hazırda Azərbaycan Milli Aviasiya Akademiyasının bədən tərbiyəsi kafedrasında baş müəllimdir.

Boksla 1963-cü ildə "Ehtiyat Əmək Qüvvələri" idman cəmiyyətində məşğul olmağa başlamışdır. A.Məmmədovun boksçu keyfiyyətlərinin yüksəlməsində, onun güclü idmançılar sırasına düşməsində Əməkdar məşqçi Tofiq Babanlının böyük xidmətləri olmuşdur. Boksla məşğul olduğu müddət ərzində A.Məmmədov dəfələrlə Bakı və Azərbaycan çempionatlarının qalib və mükafatçısı olmuş, Leninqrad hərbi dairəsinin (1976-1977) birinciliyində çempion adına layiq görülmüşdür. Azərbaycan yığma komandası tərkibində A.Məmmədov SSRİ birinciliklərində və məktəblilərin ümumittifaq spartakiadasında çıxış edərək Azərbaycanın idman şərəfini ləyaqətlə qorumuşdur.

Yüksək idman nəticələrinə görə 1970-ci ildə SSRİ idman ustası adına layiq görülmüşdür.



## RAMAZANOV ƏLİAĞA XƏLİL OĞLU

1947-ci il dekabrın 17-də Bakı şəhərində anadan olmuşdur.

1967-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil olmuşdur.

Boksda ilk addımlarını "Lokomotiv" idman cəmiyyətində, məşqçi Əkbər Vəliyevin rəhbərliyi altında atmışdır. Sonra "Dinamo" idman cəmiyyətində Əməkdar məşqçi Aleksandr Kryuçkovun məşqçiliyi ilə təcrübəsini artırmış və 1970-ci ildə SSRİ idman ustası adına layiq görülmüşdür.

Dəfələrlə paytaxt və respublika birinciliklərində qalib, ümumittifaq "Dinamo" İC mərkəzi şurası birinciliyində, ümumittifaq ali təhsil idman məktəbləri birinciliyində bürünc mükafatçı olmuş, Sevastopol hərbi qarnizonunun birinciliyində, Qara dəniz silahlı qüvvələrinin spartakiadasında və A.Ağalarovun xatirəsinə həsr edilmiş ümumittifaq boks turnirində qızıl medallarla təltif edilmişdir.

Əmək fəaliyyətinə vaqon təmiri zavodunda fəhlə kimi başlamış Əliağa Ramazanov polis rəisi vəzifəsinə kimi ucalmışdır. Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu 1971-ci ildə bitirdikdən sonra Azərbaycan Dövlət İncəsənət İnstitutunda müəllim vəzifəsində çalışmış, ordudan qayıtdıqdan sonra "Dinamo" İC respublika şurasında təlimatçı vəzifəsində işləmişdir.

1973-cü ildən daxili işlər orqanlarında işləməyə başlamışdır. 1982-ci ildə SSRİ Daxili İşlər Akademiyasına daxil olmuş və 1986-cı ildə ikinci ali təhsil almışdır. Bir çox mühüm əhəmiyyətli vəzifələrdə çalışmışdır.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri və müharibə veteranıdır. Dövlətimiz tərəfindən 2 medal və fəxri fərmanla təltif olunmuşdur. Hal-hazırda ADBTİA-da müəllim vəzifəsində çalışır.



**RZAYEV NƏSİR
YASƏR OĞLU**

1947-ci il aprelin 12-də Abşeron rayonunun Pirəküşkül kəndində anadan olmuşdur.

1962-ci ildə Sumqayıt şəhərinin "Neftçi" idman cəmiyyətində boksla məşğul olmağa başlamışdır. 1965-73-cü illərdə respublika yığma komandasının üzvü olmuşdur.

1965 və 1968-ci illərdə Azərbaycan çempionu adına, 1967-ci ildə ümumittifaq həmkarlar ittifaqı mərkəzi şurası birinciliyinin bürünc mükafatına, 1971, 1972 və 1973-cü illərdə Rovno, Nikolayev və Xmelnitski şəhərlərində keçirilən ümumittifaq boks turnirlərində qızıl medallara layiq görülmüşdür. SSRİ idman ustasıdır.

N.Rzayevin məşqçiləri T.Fərəcov və O.Hüseynov olmuşdur.

1977-ci ildə Azərbaycan Dövlət Neft-Kimya İnstitutunu bitirmişdir. Müxtəlif idarə və təşkilatlarda çalışmış və Sumqayıt şəhəri icra hakimiyyəti başçısının müavini vəzifəsinə kimi ucalmışdır.



## SÜLEYMANOV SÜLEYMAN MEHDİ OĞLU

1942-ci il noyabrın 15-də Ermənistanın Necullu kəndində anadan olmuşdur.

1959-cu ildə "Ehtiyat Əmək Qüvvələri" İC-də boksla məşğul olmağa başlamış və tez bir zamanda respublika yığma komandasının tərkibində ümumittifaq boks yarışlarında uğurla çıxış etmişdir. 1962-ci ildə ümumittifaq "Ehtiyat Əmək Qüvvələri" İC mərkəzi şurası birinciliyində qızıl, 1965-ci ildə isə gümüş medal qazanmışdır. Dəfələrlə Azərbaycan çempionatının qalib və mükafatçısı olmuşdur.

Bakı Sənaye-Tikinti Texnikumunu bitirmiş və 1970-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil olaraq təhsilini artırmışdır. İnstitutu bitirdikdən sonra öz həyatını tam məşqçiliyə həsr etmişdir. "Ehtiyat Əmək Qüvvələri" idman cəmiyyətində boks üzrə məşqçi-müəllim vəzifəsində əmək fəaliyyətinə başlamış Süleyman müəllim 40 ildən artıqdır ki, gənclərə öz bilik və bacarığını əsirgəmir. Onun yetirmələri müxtəlif illərdə ümumittifaq və beynəlxalq yarışların qalib və mükafatçısı olmuş, respublikamızın idman şərəfini ləyaqətlə qorumuşlar. Yüksək idman göstəricilərinə görə S.Süleymanov SSRİ idman ustası, beynəlxalq dərəcəli hakim, Azərbaycanın "Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi" və Əməkdar məşqçisi adlarına layiq görülmüşdür.



**VORONİN GENNADİ**

1946-cı ildə Bakı şəhərində anadan olmuşdur.

Orta məktəbdə oxuduğu illər boksla məşğul olmuş, "Ehtiyat Əmək Qüvvələri" idman cəmiyyətinin boks bölməsində Əməkdar məşqçi Tofiq Babanlının rəhbərliyi altında öz idman ustalığını təkmilləşdirmişdir.

Dəfələrlə respublika və ümumittifaq yarışlarının qalib və mükafatçısı, məktəblilərin X Ümumittifaq Spartakiadasının bürünc medalçısı olmuşdur.

Hal-hazırda Rusiyada yaşayır.

**MƏMMƏDOV NADİR HƏSƏN OĞLU**

1943-cü il iyulun 3-də Bakıda anadan olmuşdur.

Boks idman növü ilə məşqçi Hacı Məmmədovun rəhbərliyi altında "Burevestnik" idman cəmiyyətində məşğul olmuş, dəfələrlə respublika və ümumittifaq miqyaslı yarışların qalib və mükafatçıları arasında yer almışdır.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu və Ç.İldırım adına Azərbaycan Dövlət Politexnik İnstitutunu bitirib. 1967-ci ildə DBTİ-nu bitirdikdən sonra APİ-nin bədən tərbiyəsi kafedrasında müəllim vəzifəsinə təyin olunmuş və 1982-ci ilə kimi bu təhsil ocağında baş müəllim vəzifəsində çalışmışdır.

SSRİ idman ustası adına layiq görülmüşdür.

1982-ci ildə vəfat etmişdir.



*1965-ci il. Hakim A.Bağırov Litva idmançısı ilə görüş öncəsi, N.Babayevin idman geyimini yoxlayır*




*V.Bıkov SSRİ silahlı qüvvələrinin birinciliyində*

X FƏSİL



# AZƏRBAYCAN BOKSÇULARI 1970-1990-CI İLLƏRDƏ



**ABDULLAYEV NƏRİMAN SADIX OĞLU**

1958-ci il sentyabrın 23-də Yerevanda anadan olub.

Boksla 1970-ci ildə məşğul olmağa başlamış, 1977-ci ildə məşqlərini "Dinamo" idman cəmiyyətində davam etdirmişdir.

Azərbaycan çempionu, SSRİ birinciliyinin gümüş mükafatçısı (1974), üç dəfə ümumittifaq "Dinamo" idman cəmiyyəti mərkəzi şurası birinciliyinin qızıl medalçısı (1975-77), Polşada beynəlxalq (1974-75) turnirin qalibi olmuşdur.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda təhsil almış və "Ehtiyat Əmək Qüvvələri" idman cəmiyyətində boks üzrə məşqçi-müəllim kimi fəaliyyətə başlamışdır.

1997-ci ildən Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının ağır atletika və boks kafedrasında baş müəllim vəzifəsində çalışır. Yeniyetmələrdən ibarət ölkə yığmasının baş məşqçisidir.

SSRİ idman ustası, beynəlxalq dərəcəli hakim, Azərbaycan Respublikasının Əməkdar məşqçisi adlarına layiq görülmüşdür. 2002-ci ildə Avropanın ən yaxşı məşqçisi seçilmiş və Azərbaycan Respublikası prezidentinin Fərmanı ilə "Tərəqqi" medalı ilə təltif edilmişdir.



**AĞAYEV VAQİF XANYAVƏR OĞLU**

1952-ci il iyulun 16-da Astara rayonunun Ərçivan kəndində anadan olmuşdur.

Boksla məşğul olmağa ötən əsrin 60-cı illərinin ortalarında başlamışdır.

Astara rayonu UGİM-in boks bölməsində məşqçi İslam Əliyevin rəhbərliyi altında boksun sirlərinə yiyələnmiş, sonralar tələbəlik illərində, Bakıda öz idman ustalığını məşqçi Nağı Hacıyevin yanında artırmışdır. 1971-1972-ci illərdə respublika çempionu və bir neçə ümumittifaq turnirlərin mükafatçısı olmuşdur.

1975-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirmişdir. Əmək fəaliyyətinə Astara rayonu 3 saylı orta məktəbdə bədən tərbiyəsi müəllimi vəzifəsində başlamışdır. Uzun illər məktəbdə və boks bölməsində müəllim-məşqçi kimi çalışmış, onlarla yüksək dərəcəli idmançılar hazırlamışdır. Onun yetirmələri arasında respublika və beynəlxalq yarışların qalibləri, Avropa və dünya birinciliklərinin mükafatçısı vardır.

Hal-hazırda Astara rayonunun UGİM-də baş məşqçi vəzifəsində çalışır.



**ÇERNOV VALERİ VASİLYEVİÇ**

1950-ci ildə Bakı şəhərində anadan olmuşdur.

1974-cü ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib. Boksla 1965-ci ildə məşğul olmağa başlamışdır. “Burevestnik” idman cəmiyyətinin və Əməkdar məşqçi Boris Kipianinin yetirməsidir. Boksla məşğul olduğu illər ərzində dəfələrlə Azərbaycan birinciliyi və çempionatlarının qalibi, Rusiyada və Gürcüstanda keçirilən ümumittifaq miqyaslı yarışların qalib və mükafatçısı, ümumittifaq “Burevestnik” idman cəmiyyəti mərkəzi şurası birinciliyinin gümüş mükafatçısı olmuş, ümumittifaq tələbə universiadasının bürünc medalına layiq görülmüşdür. SSRİ idman ustasıdır.

1968-ci ildən əmək fəaliyyətinə başlayan V.Çernov 1980-cı ilə kimi “Burevestnik” idman cəmiyyətində idmançı-təlimatçı, sonralar isə məşqçi kimi çalışmışdır.



**DANİLOV VALENTİN ANATOLYEVİÇ**

1971-ci il yanvarın 2-də Kazan şəhərində anadan olmuşdur.

Bakıya köçdükdən sonra, 1984-cü ildə ilk dəfə "Dinamo" idman cəmiyyətinə gələrək məşqçi, idman ustası David Şlyaxovskinin rəhbərliyi altında boksla məşğul olmağa başlamışdır. Sonralar Əməkdar məşqçilər Rauf Cabbarov və Tofiq Babanlının yanında öz idman ustalığını artıraraq, idman ustalığına qədər ucalmışdır. Dəfələrlə Azərbaycan birincilikləri və çempionatlarının qalibi olmuş, ümumittifaq turnirlərdə və Həmkarlar İttifaqı mərkəzi şurası birinciliyində gümüş medala layiq görülmüşdür.

Hal-hazırda "Asif Axundov idman klubu"nun prezidentidir. Asudə vaxtını boks zalında keçirir, bilik və bacarığını gənc nəslin tərbiyəsinə həsr edərək, yeni-yeni gənc idmançılar hazırlayır.



**EYVAZOV MƏMMƏD FƏTƏLİ OĞLU**

1951-ci il noyabrın 17-də Quba rayonunda anadan olmuşdur.

1968-ci ildən Sumqayıtda boksla məşğul olmağa başlamış, 1976-cı ildə Tələbələrin Ümumittifaq Universiadasında II, 1975-76-cı illərdə Azərbaycan çempionatında və Rovno, İvano-Frankovsk şəhərlərində keçirilmiş ümumittifaq turnirlərdə I yeri tutmuşdur.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu və sonra isə, Marksizm-Leninizm Universitetini bitirmişdir. 1977-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun boks kafedrasında müəllim, 1978-1985-ci illərdə Azərbaycan Neft-Kimya İnstitutunun Sumqayıt filialının bədən tərbiyəsi kafedrasında baş müəllim, 1985-ci ildən Həmkarlar İttifaqı İdman Cəmiyyətində boks üzrə baş məşqçi, 1988-1993-cü illərdə Azərbaycan Respublikası yığma komandasının baş məşqçisi və 1993-1997-ci illərdə Türkiyə yığma komandasının məşqçisi vəzifələrində çalışmışdır.

Hal-hazırda Azərbaycan yığma komandasının baş məşqçisidir. Onun yetirməsi Malik Bəylər oğlu Türkiyə yığma komandasının tərkibində Atlanta yay Olimpiya oyunlarında iştirak edərək gümüş medal qazanmışdır.

Azərbaycan Respublikasının Əməkdar məşqçisi, SSRİ idman ustası, beynəlxalq dərəcəli hakimdir.



**HƏSƏNOV FAİQ FİRUDİN OĞLU**

1963-cü il avqustun 13-də Naxçıvan şəhərində anadan olub.

1973-cü ildə Naxçıvanda Əməkdar məşqçi Kamil Salayevin rəhbərliyi altında boksun incəliklərinə yiyələnməyə başlamış və tez bir zamanda istedadlı idmançı olduğunu sübut edərək, respublika yığma komandasına dəvət olunmuşdur. O, dəfələrlə Azərbaycan çempionu, ümumittifaq və beynəlxalq yarışların qalib və mükafatçısı adına layiq görülmüşdür. 1979-cu ildən 1981-ci ilə kimi ümumittifaq "Dinamo" idman cəmiyyəti mərkəzi şurasının birinciliyində bütün rəqiblərinə qalib gələrək üç il ardıcıl olaraq öz çəki dərəcəsində çempion adını qorumuşdur. Məhz buna görə, o, sosialist ölkələrinin yarışında SSRİ-nin yığma komandasının tərkibinə cəlb edilmiş və bu etimadı doğruldaraq Sovet komandasının qələbəsini təmin etmişdir.

Faiq Həsənov yüksək idman nailiyyətlərinə görə dəfələrlə fəxri fərman, medal və xüsusi mükafatlarla təltif edilmiş, SSRİ idman ustası adına layiq görülmüşdür.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib.

Hal-hazırda Daxili İşlər Nazirliyinin Nizami rayon polis idarəsində cinayət axtarışı şöbəsində fəaliyyət göstərir.



**İBRAHİMOV OQTAY**

1968-ci ildə Gəncə şəhərində anadan olmuşdur.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib. Boks idman növü ilə Gəncə şəhərindəki "Ehtiyat Əmək Qüvvələri" idman cəmiyyətində respublikanın Əməkdar məşqçisi Çingiz Piriverdiyevin rəhbərliyi altında məşğul olmağa başlamışdır. Qısa bir müddət ərzində O.İbrahimov boksun sirlərinə yiyələnərək yeniyetmələrin Azərbaycan birinciliyində qalib olub və respublika yığma komandasına daxil edilib. Bu perspektivli idmançı öz texniki-taktiki ustalığını təkmilləşdirmək və təhsilini artırmaq üçün Bakı Olimpiya Ehtiyatı İnternat Məktəbini bitirib.

1984-cü ildə məktəblilərin ümumittifaq spartakiadasında O.İbrahimov bütün rəqiblərinə qalib gələrək qızıl medalla təltif edilib. O, SSRİ yığma komandasına dəvət olunaraq Monqolustanda, İndoneziyada, Kubada, Nikaraquada, Polşada keçirilən beynəlxalq yarışlarda iştirak edərək qızıl və gümüş medallar qazanıb. 1985-ci ildə isə O.İbrahimov gənclərin SSRİ birinciliyində bürünc medala layiq görülüb. O.İbrahimov "Beynəlxalq dərəcəli idman ustası" adı almış ilk azərbaycanlı boksçudur.



**İLYAYEV VALERİ**

1962-ci ildə Bakı şəhərində anadan olmuşdur.

Orta məktəbdə oxuduğu illər (1974-1980) ərzində "Neftçi", sonra isə "Spartak" idman cəmiyyətlərində boksla məşğul olmuşdur. "Neftçi" idman cəmiyyətində məşqçi Balarza Rzayevin, "Spartak" idman cəmiyyətində isə Azərbaycanın Əməkdar məşqçisi Tofiq Babanlının rəhbərliyi altında idman ustalığını təkmilləşdirmişdir. Dəfələrlə respublika və ümumittifaq yarışlarının qalibi, 1977-ci ildə isə yeniyetmələr arasında SSRİ birinciliyinin bürünc mükafatçısı olmuşdur. SSRİ idman ustasıdır.

Hal-hazırda İsraildə yaşayır.



**KƏRİMOV AKİF NADİR OĞLU**

28 sentyabr 1954-cü ildə Bakı şəhərində anadan olmuşdur.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu 1976-cı ildə bitirdikdən sonra hərbi xidmətə yola düşmüşdür.

1963-1969-cu illərdə "Lokomotiv" idman cəmiyyətində 1969-cu ildən isə "Ehtiyat Əmək Qüvvələri" idman cəmiyyətində boksla məşğul olmuşdur. 1963-1982-ci illər ərzində dəfələrlə Azərbaycan çempionu olmuş, 1969-cu ildə "Ehtiyat Əmək Qüvvələri" İC ümumittifaq mərkəzi şurasının birinciliyində I yerə, 1977-ci ildə "Spartak" İC ümumittifaq mərkəzi şurası birinciliyində isə II yerə layiq görülmüşdür.

1979-cu ildə Ximki və İvano-Frankovsk şəhərlərində keçirilmiş ümumittifaq turnirlərdə qızıl medal, 1981-ci ildə Riqa ümumittifaq turnirində, 1982-ci ildə isə Bakıda, Əməkdar idman ustası Abbas Ağalarovun ümumittifaq xatirə turnirində qalib adına layiq görülmüşdür.

1982-ci ildə Smolensk şəhərində keçirilən IV Ümumittifaq Kənd İdman Oyunlarında bürünc medalla təltif olunmuşdur.

1977-ci ildə "Spartak" idman cəmiyyətində, 1979-82-ci illərdə "Məhsul" idman cəmiyyətində boks üzrə məşqçi vəzifəsində çalışmış, 1983-cü ildə isə Bakıdakı 132 saylı orta məktəbdə bədən tərbiyəsi müəllimi vəzifəsinə təyin edilmişdir. Bu vəzifədə çalışmaqla bərabər, "Lokomotiv" idman cəmiyyətində də boks bölməsinə rəhbərlik etmişdir.

Azərbaycan Respublikasının Əməkdar məşqçisi "SSRİ idman ustası" adına və "Beynəlxalq dərəcəli hakim" dərəcəsinə layiq görülmüşdür.



**KAZIMOV VAQİF BABAŞ OĞLU**

1953-cü il mayın 20-də Bakı şəhərində anadan olub.

İdmanın boks növü ilə 1968-1980-cı illərdə məşğul olmuşdur. “Məhsul” KKİC-də öz idman ustalığını Əməkdar məşqçi Tofiq Babanlının yanında artırmış, İvano-Frankovsk, Ximki, Dauqovpils, Rovno, Lvov, Dnepropetrovsk, Donetsk şəhərlərində keçirilən ümumittifaq boks turnirlərində qalib və mükafatçılar sırasına yüksəlmiş və SSRİ idman ustası adına layiq görülmüşdür. Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib.

Rinqdəki karyerasını başa vurduqdan sonra məşqçilik fəaliyyətinə başlamışdır. 1978-1980-cı illərdə Bakı Uşaq Gənclər İdman Məktəbində, 1981-1995-ci illərdə “Məhsul” KKİC-də, hal-hazırda isə “Gömrükçü” idman klubunda məşqçi vəzifəsində çalışır. Yetirməsi Ağası Məmmədov 2003-cü ildə dünya çempionu və 2004-cü ildə XXVIII Olipiya oyunlarının bürünc mükafatçısı olmuşdur.

Bir neçə il qardaş Türkiyədə milli komandanın məşqçisi vəzifəsində çalışmışdır.

Azərbaycanın Əməkdar məşqçisi və respublika dərəcəli hakimdir.



**QULİYEV NİFTALI TANRIVERDİ OĞLU**

1948-ci il iyunun 20-də Zəngəzur mahalında anadan olmuşdur.

Boks idman növü ilə 1965-ci ildə Sumqayıtda məşğul olmağa başlamışdır. 1970-1973-cü illərdə Azərbaycan çempionatlarının qalib və mükafatçısı, 1972-ci ildə ümumittifaq "Spartak" idman cəmiyyəti mərkəzi şurası birinciliyinin bürünc mükafatçısı, 1973-cü ildə isə Moskva şəhərinin çempionu olmuşdur.

1974-cü ildə SSRİ idman ustası, 1993-cü ildə isə beynəlxalq dərəcəli hakim adına layiq görülmüşdür. 2000-ci ildə Macarıstanda keçirilən gənclərin boks üzrə dünya birinciliyində ən yaxşı hakim kimi mükafatlandırılmışdır.

1975-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib. 1975-1976-cı illərdə Sumqayıt şəhərində "Spartak" və "Neftçi" idman cəmiyyətlərinin boks bölmələrində məşqçi-müəllim kimi fəaliyyət göstərib. 1977-ci ildə Sumqayıt şəhər "Ehtiyat Əmək Qüvvələri" idman cəmiyyətində sədr, 1997-ci ildən "Təhsil" Respublika İdman Mərkəzi direktorunun birinci müavini, direktor əvəzi vəzifələrində çalışıb. 2000-ci ildən isə Respublika Bədən Tərbiyəsi və İdman Mərkəzinin direktorudur.

Afina XXVIII Yay Olimpiya Oyunlarının boks yarışlarında hakimlik etmişdir.



**QROMOV YURİ NİKOLAYEVİÇ**

1963-cü il sentyabrın 9-da Bakı şəhərində anadan olub.

1975-ci ildə “Dinamo” idman cəmiyyətində boksla məşğul olmağa başlamışdır. Onun idman ustalığının artmasında və püxtələşməsində Əməkdar məşqçi K.Mollayevin böyük əməyi olmuşdur.

Qısa bir müddət ərzində respublika yığma komandasına daxil edilmiş və müxtəlif yarışlarda Azərbaycanın idman şərəfini layiqincə təmsil etmişdir. Dəfələrlə Azərbaycan çempionatı, ümumittifaq “Dinamo” idman cəmiyyəti mərkəzi şurası birinciliyi, Ryazan, Riqa, Alitus, Bakı ümumittifaq turnirlərində mükafatlara layiq yerlər tutmuş, gənclərin SSRİ birinciliyində V olmuşdur. İdman ustasıdır.

1984-cü ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu, 2001-ci ildə isə Ural Kommersiya və Qanun İnstitutunu bitirib. Əmək fəaliyyətinə 1986-cı ildə Bakı şəhər Bədən Tərbiyəsi və İdman Komitəsində təlimatçı vəzifəsində başlamış, 1992-ci ildə Tümen vilayətinə köçmüş və hal-hazırda Xantı-Mansiyskdə aeroportun təhlükəsizlik xidməti rəisidir.



**QULİYEV ZAKİR MƏZAHİR OĞLU**

1952-ci il martın 12-də Dağıstanın Dərbənd şəhərində anadan olub.

1961-ci ildə Bakıya köçmüş, 1974-cü ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirmişdir.

1966-cı ildə "Dinamo" idman cəmiyyətinə üzv olaraq boksla məşğul olmağa başlamışdır. Azərbaycan birinciliyi və çempionatlarının qalibi, 1971-1973-cü illərdə ümumittifaq "Dinamo" idman cəmiyyəti mərkəzi şurasının gümüş mükafatçısı, 1972-ci ildə isə bürünc mükafatçısı olmuş, 1973-cü ildə SSRİ zona Kuboku yarışında qalib və həmin il Özbəkistan, Ukrayna, Estoniya və Rusiyada keçirilən ümumittifaq boks turnirlərində qalib və mükafatçı adına layiq görülmüşdür.

Əmək fəaliyyətinə 1978-ci ildə "Dinamo" idman cəmiyyətində təlim-məşq şöbəsinin təlimatçısı vəzifəsində başlamışdır. 1979-1982-ci illərdə Daxili İşlər Nazirliyinin kadrlar şöbəsinin təlimatçısı olmuşdur. 1989-cu ildən bu günə kimi İngiltərə Neft Kompaniyasının Azərbaycandakı prezidentidir. 2000-ci ildən öz əsas işi ilə yanaşı olaraq "Dinamo" idman cəmiyyətində gənclərə boksun sirlərini öyrədir.

SSRİ idman ustası, beynəlxalq dərəcəli hakim, Azərbaycan Boks Federasiyasının vitse-prezidentidir.



**LOSEVSKİ VALERİ RASULOVİÇ**

1960-cı il avqustun 14-də Bakıda anadan olmuşdur.

1974-cü ildə “Neftçi” idman cəmiyyətində boks bölməsinə yazılmış və məşqçi B.Rzayevin yanında boksun sirlərinə yiyələnmişdir.

1978-ci ildə “Spartak”, sonra isə “Məhsul” idman cəmiyyətlərində öz idman ustalığını Əməkdar məşqçi T.Babanlının rəhbərliyi altında artırmışdır. Azərbaycan çempionatı, ümumittifaq turnirlərin qalibi, ümumittifaq “Spartak” idman cəmiyyəti mərkəzi şurasının mükafatçısı, SSRİ birinciliyinin iştirakçısı olmuşdur. Yüksək idman nəticələrinə görə ona 1985-ci ildə SSRİ idman ustası adı verilmişdir.

Əmək fəaliyyətinə 1982-ci ildə “Məhsul” idman cəmiyyətində məşqçi vəzifəsində başlamışdır.

Hazırda taksi sürücüsü işləyir.



**MƏMMƏDOV ÇİNGİZ CAHANGİR OĞLU**

1951-ci il mayın 27-də Gəncə şəhərində anadan olmuşdur.

Boksla 1967-ci ildə Gəncədəki "Dinamo" idman cəmiyyətində Əməkdar məşqçi Elman Məmmədovun rəhbərliyi altında məşğul olmağa başlamışdır. Bir il sonra "Neftçi" idman cəmiyyətinə keçmiş və məşqçi Eldar Həsənovun yanında öz idman ustalığını artırmışdır.

1971-1973-cü illərdə Qafqaz hərbi dairəsi çempionu, respublika, eləcə də Kiyev və Donetsk şəhərlərində keçirilən ümumittifaq yarışlarının mükafatçısı olmuşdur.

1979-cu ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib təyinatla Gəncə şəhərindəki "Neftçi" idman cəmiyyətinə göndərilmişdir. 1982-1991-ci illərdə "Məhsul", "Dinamo" idman cəmiyyətlərinin və UGİM-in boks bölmələrində məşqçi vəzifəsində çalışmış, 1992-ci ildə isə Türkiyəyə dəvət olunmuş və hal-hazırda Türkiyə milli komandasının məşqçilərindən biridir. Məşqçilik fəaliyyəti dövründə Avropa, dünya birinciliklərinin və beynəlxalq turnirlərin qalib və mükafatçılarını hazırlamışdır.

Çingiz Məmmədovun yetirmələri Oqtay İbrahimov, Hüseyn Məmmədov, Bayram və İntiqam Bayramov qardaşları, A.Məmmədov keçmiş SSRİ birinciliklərinin və ümumittifaq yarışlarının qalib və mükafatçıları olmuşlar. Oqtay İbrahimov isə SSRİ yığma komandası tərkibində İndoneziya, Nikaraqua və s. ölkələrdə uğurla çıxış edərək müxtəlif medallarla təltif edilmişdir.

Yüksək dərəcəli idmançılar hazırladığına görə 1986-cı ildə Çingiz Məmmədova Azərbaycanın Əməkdar məşqçisi adı verilmişdir.



**MİKAYILOV SÜLEYMAN SURXAY OĞLU**

Süleyman Mikayılov 1962-ci il aprelin 27-də Naxçıvan şəhərində doğulub.

Boksla məşğul olmağa 1976-cı ildə Naxçıvan Uşaq-Gənclər İdman Məktəbində məşqçi Asif Axundovun rəhbərliyi altında başlayıb. Qısa bir müddət ərzində Naxçıvan Muxtar Respublikası, daha sonra isə Azərbaycan çempionatında parlaq qələbələr qazanaraq çempionluğa yüksəlmiş və respublika yığma komandasına daxil edilmişdir. Ötən əsrin 70-ci illərinin sonu, 80-cı illərinin əvvəllərində S.Mikayılov ümumittifaq "Burevestnik" tələbə idman cəmiyyətinin Mərkəzi Şurası birinciliyində, məktəblilərin ümumittifaq spartakiadasında, Qrodno, Nikolayev, Səmərqənd, Benderı, Daşkənd, Tiflis, İvano-Frankovsk, Donetsk və s. şəhərlərdə keçirilmiş ümumittifaq boks turnirlərində qalib və mükafatçılar sırasında olmuşdur.

1984-cü ildə SSRİ idman ustası adına layiq görülmüşdür.

1984-cü ildə Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirdikdən sonra Naxçıvan orta ixtisas musiqi məktəbində bədən tərbiyəsi rəhbəri vəzifəsində çalışmağa başlayıb. 1985-ci ildə ordu sıralarında hərbi xidməti başa vurduqdan sonra əmək fəaliyyətini həmin vəzifədə davam etdirmişdir.

1995-ci ildə Bakı Gömrük İdarəsində şöbə rəisi, daha sonra isə baş idarənin rəisi vəzifələrində çalışmış, 1999-cu ildə Dövlət Gömrük Komitəsinin işlər idarəsinin rəis müavini, 2001-ci ildən isə Vergilər Nazirliyi Operativ Nəzarət İdarəsinin rəisi vəzifəsinə təyin edilmişdir.

Azərbaycan Boks Federasiyasının vitse-prezidentidir.



**MİRHÜSEYNOV NAZİM ƏLİAĞA OĞLU**

1964-cü il fevralın 17-də Bakı şəhərində anadan olmuşdur.

1978-1985-ci illərdə "Dinamo" və "Məhsul" idman cəmiyyətlərində boksla məşğul olmuş və bu müddət ərzində bir sıra respublika və ümumittifaq miqyaslı yarışlarda uğurla çıxış edərək qalib və mükafata layiq yerlər tutmuşdur. 1985-ci ildə V Ümumittifaq kənd oyunlarında Nazim Mirhüseynov komandanın kapitanı kimi nümunəvi çıxış edərək, qızıl medal qazanmış və ümumi komanda hesabında Azərbaycanın I yerə çıxmasını təmin etmişdir. Onun məşqçiləri - Əməkdar məşqçi R.Cabbarov və D.Şlyaxovski olmuşdur. İdman ustası və beynəlxalq dərəcəli hakimdir.

1985-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib. "Məhsul", "Dinamo" və Uşaq-Gənclər İdman Məktəbində boks üzrə məşqçi-müəllim vəzifəsində çalışmışdır.



**MƏHƏRRƏMOV QURBANXAN MƏMMƏD OĞLU**

1964-cü il aprelin 29-da Qazaxıstanın Cambul vilayətinin Marke rayonunda anadan olub.

Orta təhsilini Azərbaycanın Biləsuvar rayonunda alıb. 1990-cı ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İstitutunu bitirib.

Boksla müntəzəm məşğul olmağa 1981-ci ildən başlamışdır. Məşqçisi, Əməkdar məşqçi Şamil Əlimzanov olmuşdur.

1982-1984-cü illərdə hərbi qulluqda olduğu zaman respublika yığma komandasına daxil edilmişdir. 1982-ci ildə gənclərin ümumittifaq idman oyunlarında gümüş, ümumittifaq "Ehtiyat Əmək Qüvvələri" idman cəmiyyəti mərkəzi şurasının birinciliyində qızıl, 1983-cü ildə isə ümumittifaq "Urajay" idman cəmiyyəti mərkəzi şurasının birinciliyində, 1984-cü ildə ümumittifaq həmkarlar ittifaqı mərkəzi şurası birinciliyində və 1985-ci ildə V ümumittifaq kənd idmançılarının oyunlarında qızıl medal qazanmışdır. 1982-ci ildə SSRİ idman ustası adına layiq görülmüşdür.

Hal-hazırda Biləsuvar Uşaq-Gənclər İdman Məktəbində direktor vəzifəsində çalışır.



**MƏMMƏDOV RASİM SAHİB OĞLU**

1966-cı il iyulun 24-də Bakı şəhərində anadan olmuşdur.

Boksla məşğul olduğu illər ərzində bir sıra respublika və ümumittifaq miqyaslı yarışlarda mükafata layiq yerlər tutmuşdur. Azərbaycan Dövlət Bədən Tərbiyə İnstitutunu bitirdikdən sonra məşqçilik fəaliyyətinə başlamışdır.

Onun yetirmələri Natiq Tahirov və Sahib Bağırov Avropa birinciliklərinin mükafatçısı olmuşlar.

Hal-hazırda R.Məmmədov “Rabitəçi” idman kulubunda boks bölməsində baş məşqçi vəzifəsində çalışır. Məşqçi işlədiyi müddət ərzində onlarla respublika və beynəlxalq yarışların qalib və mükafatçılarını hazırlamışdır.

Azərbaycan Respublikasının Əməkdar məşqçisi və beynəlxalq dərəcəli hakimdir.



**MURADOV XALIQ KAMRAN OĞLU**

1950-ci il yanvarın 12-də Qazaxıstanın Çimkənd vilayətində anadan olmuşdur.

Boksda ilk addımlarını 1966-cı ildə Azərbaycanın Əməkdar məşqçiləri İlya Odinov və Yevgeni Melçinin rəhbərliyi altında atmışdır. 1970-1971-ci illərdə Azərbaycan çempionu, 1970-ci ildə ümumittifaq "Burevestnik" idman cəmiyyəti Mərkəzi Şurası birinciliyinin, 1973-cü ildə Litvada keçirilən ümumittifaq turnirin qalibi, Qazaxıstan çempionatının mükafatçısı olmuşdur.

1978-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirmişdir. 1973-cü ildən Bakı şəhər 74 saylı texniki-peşə məktəbində bədən tərbiyəsi rəhbəri vəzifəsində çalışmağa başlamışdır. İdman ustası, beynəlxalq dərəcəli hakimdir.

Hazırda Azərbaycan Boks Federasiyasının vitse-prezidentidir.



**MƏMMƏDOV YADİGAR HƏSƏNBALA OĞLU**

1966-cı il aprelin 15-də Lənkəranın Port İliç qəsəbəsində anadan olmuşdur.

Boksla, məktəbi qurtardıqdan sonra, “Məhsul” KKİC-də respublikanın əməkdar məşqçisi Əlizadə Əsədovun yanında məşğul olmağa başlamışdır. Yadigar qısa bir müddətdə öz yaşıdlarına qalib gələrək Lənkəran komandası tərkibində ilk dəfə respublika birinciliyinin mükafatçısı olmuşdur. Sonrakı illər isə rusiyada, Estoniyada və Gürcüstanda keçirilən ümumittifaq turnirlərdə fəxri kürsünün ikinci və üçüncü pillələrinə qalxmışdır.

Əmək fəaliyyətinə 1989-cu ildə “Məhsul” KKİC-də məşqçi vəzifəsində başlamış, 1992-94-cü illərdə “Neftçi” İSM-də və 1995-ci ildən bu günə kimi Uşaq-Gənclər İdman Məktəbində məşqçi-müəllim vəzifəsində çalışır.

1997-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına daxil olmuş və 2002-ci ildə bu təhsil ocağının qiyabi şöbəsini bitirmişdir. Təhsilini Lənkəran Dövlət Universitetinin magistraturasında davam etdirmişdir.

Respublikanın Əməkdar məşqçisidir. Onun yetirmələri Azərbaycan çempionatlarında, beynəlxalq turnirlərdə uğurla çıxış etmişlər. Y.Məmmədovun yetirmələri Azər Məmmədov 1996-cı ildə İtaliyada, C.Tağıyev 1997-ci ildə Makedoniyada, E.Hacıyev isə 1999-cu ildə Azərbaycanda yeniyetmələrin Avropa birinciliyində gümüş medala layiq görülmüşdür. Yetirməsi C.Tağıyev 2004-cü ildə Avropa çempionatında bürünc medal və XXVIII Yay Olimpiya Oyunlarına vəsiqə qazanmışdır.



**MEHDİYEV ZAHİD ƏMİRASLAN OĞLU**

1972-ci il noyabrın 13-də Lənkəran rayonunun I Nərimanabad qəsəbəsində anadan olub.

Orta məktəbi bitirdikdən sonra Belorusiyaya köçmüş, orada Ali Bədən Tərbiyəsi Məktəbini 1995-ci ildə bitirmiş və Minsk şəhərində boks üzrə məşqçi-müəllim kimi fəaliyyət göstərməyə başlamışdır.

Boksla məşğul olmağa Lənkəran rayonunun Port İliç şəhərində 1985-ci ildə başlamışdır. Onun məşqçisi, Əməkdar məşqçi Əlizadə Əsədov olmuşdur. 1986-cı ildə SSRİ uşaq-gənclər idman məktəblərinin, 1987-1988-ci illərdə ümumittifaq həmkarlar ittifaqı idman cəmiyyətləri birinciliyinin, 1988-ci ildə yeniyetmələr arasında SSRİ birinciliyinin qalibi və 1989-cu ildə SSRİ Kuboku yarışının və 1999-cu ildə Amerikanın Hyüston şəhərində keçirilən dünya çempionatının bürünc mükafatçısı olmuşdur. SSRİ idman ustasıdır.



**MƏMMƏDOV RƏŞİD QAFAR OĞLU**

1956-cı il fevralın 26-da Mingəçevir şəhərində anadan olmuşdur.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirərək, 1978-ci ildə təyinatla doğma şəhərinə göndərilmişdir. Həmin ildən boks üzrə məşqçi-müəllim kimi Uşaq-Gənclər İdman Məktəbində, "Spartak" idman cəmiyyətində və "Neftçi" idman sağlamlıq mərkəzində fəaliyyət göstərib. Onun yetirmələri dəfələrlə keçmiş ümumittifaq yarışlarında, respublika çempionatlarında, beynəlxalq turnirlərdə uğurla çıxış edərək mükafata layiq yerlər tutmuşlar.

Rəşid Məmmədovun ən böyük uğuru 2000-ci ildə Sidney Yay Olimpiya Oyunlarında yetirməsi Vüqar Ələkbərovun bürünc medal qazanmasıdır. Bu məşqçinin yetirməsi Azərbaycan boksu tarixində ilk olimpiya medalını əldə etməklə ölkəmizə yeni şöhrət və nüfuz qazandırmışdır.

Rəşid Məmmədov bu yüksək nəticəyə görə "Tərəqqi" medalı və Respublikanın Əməkdar məşqçisi adına layiq görülmüşdür.



**NİK-NİCAT ŞAHİN BARAT OĞLU**

1960-cı il iyulun 18-də Şəmkir rayonunda anadan olmuşdur. Məktəbdə oxuduğu illərdə boksla məşğul olmuşdur. 1978-ci ildə Şahin respublika çempionu adını qazanmış və 1981-ci ilə kimi bu adı özündə saxlamışdır. 1980-cı ildə Ehtiyat Əmək Qüvvələri İdman Cəmiyyəti mərkəzi şurası birinciliyində III, Lvovda, Jdanovda, Riqada keçirilən ümumittifaq miqyaslı turnirlərdə II yer tutaraq SSRİ idman ustası normasını yerinə yetirmişdir.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib. Əmək fəaliyyətinə 1977-ci ildə başlamışdır. Onun yetirmələri arasında Avropa və dünya birinciliklərinin mükafatçıları vardır. Hal-hazırda Gəncədəki 2 saylı Uşaq-Gənclər İdman Məktəbində məşqçi-müəllim vəzifəsində çalışır. Azərbaycan Respublikasının Əməkdar məşqçisidir.



**NOVRUZOV QİSMƏT ƏLİKİŞİ OĞLU**

1953-cü il iyulun 23-də Neftçala rayonunun Bankə qəsəbəsində anadan olmuşdur.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib. Tələbəlik illərində "Neftçi" və "Spartak" idman cəmiyyətlərində boksla məşğul olmuş, tez bir zamanda respublika yığma komandasına daxil edilmişdir.

Boksla məşğul olduğu müddət ərzində ümumittifaq "Spartak" idman cəmiyyəti mərkəzi şurası birinciliyində gümüş, ümumittifaq turnirlərdə (İvano-Frankovsk, Rovno, Jdanov və Lvov) bürünc medallara layiq görülmüş, Azərbaycan çempionatının qalibi, ümumittifaq həmkarlar ittifaqları şurası kuboku yarışlarının iştirakçısı olmuşdur.

Əməkdar məşqçi Tofiq Babanlının yetirməsi olub. Göstərdiyi idman nəticələrinə görə SSRİ idman ustası adına layiq görülmüşdür.

Rinqdə çıxışlarını bitirdikdən sonra Q.Novruzov hakimlik fəaliyyətinə başlamış, əvvəlcə EABA sonra isə AİBA beynəlxalq hakimlik dərəcəsi almışdır.

Əmək fəaliyyətinə Dövlət Bədən Tərbiyəsi İnstitutunu 1979-cu ildə bitirdikdən sonra Sumqayıt şəhər UGİM-ində məşqçi-müəllim kimi başlamışdır. 1993-96-cı illərdə Sumqayıt şəhərinin boks üzrə baş məşqçisi olmuşdur.

1996-cı ildən bu günə kimi Sumqayıt şəhəri 2 saylı uşaq-gənclər idman məktəbində direktor vəzifəsində çalışır.



**PİRİVERDİYEV ÇİNGİZ MƏMMƏD OĞLU**

1950-ci ildə Gəncə şəhərində anadan olmuşdur.

Orta ümumtəhsil məktəb şagirdi olduğu zaman boks idman növünə böyük maraq göstərmişdir. Ardıcıl olaraq ildən-ilə yüksələn nəticələri sayəsində Çingiz idman ustası adını qazanmışdır. Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirdikdən sonra Ç.Piriverdiyev məşqçilik fəaliyyəti ilə məşğul olmağa başlayıb. Onun onlarla yetirməsi respublika, ümumittifaq və beynəlxalq miqyaslı yarışlarda uğurla çıxış edərək vətənə medallarla qayıtmış və böyük rinq ustası kimi özlərini tanıtmışlar. O, respublikanın Əməkdar məşqçisi, Bədən Tərbiyəsi və İdman əlaçısı, milli dərəcəli hakim, idman ustası adlarına layiq görülmüş, “Fəxri ziyalı” diplomu ilə təltif edilmişdir.

1993-1997-ci illərdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti kimi fəaliyyət göstərmiş, Gəncə şəhər Xalq Deputatları Sovetinin deputatı olmuşdur.

Hal-hazırda Ç.Piriverdiyev Gəncə “Təhsil” idman sağlamlıq mərkəzində çalışır.



**RZAYEV POLAD**
**RƏŞİD OĞLU**

1968-ci il yanvarın 26-da Şəmkir rayonunda anadan olmuşdur.

1984-1990-cı illərdə boksla fəal məşğul olmuşdur. 2 saylı Uşaq Gənclər İdman Məktəbində məşqçi İman Qəsiminin yanında idman ustalığını artıraraq, qısa bir zamanda respublika yarışlarında uğurlar qazanmağa nail olmuşdur. Azərbaycanın yığma komandası tərkibində bir sıra mötəbər ümumittifaq və beynəlxalq miqyaslı yarışlarda uğurla çıxış edərək SSRİ idman ustası adına layiq görülmüşdür.

P.Rzayevin kolleksiyasını SSRİ birinciliyinin gümüş, SSRİ silahlı qüvvələri birinciliyinin və Gənclərin Ümumittifaq İdman Oyunlarının bürünc medalları bəzəyir. Polad Rzayev 1992-ci ildə faciə nəticəsində dünyasını dəyişmiş və doğma Şəmkir torpağında dəfn olunmuşdur.



**ŞAXTAXTİNSKİY**
**RAFAEL TƏLƏT OĞLU**

1952-ci ildə Mingəçevirdə anadan olmuşdur.

1978-ci ildə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunu bitirib. Sumqayıt şəhərində Əməkdar məşqçi Yevgeni Melçinin yanında öz idman ustalığını artırmağa başlayan Rafael tez bir zamanda respublika yığma komandasına daxil edilmiş və Əməkdar məşqçi Boris Kipianinin himayəsi altında texniki-taktiki hazırlığını təkmilləşdirmişdir.

1970-79-cu illərdə respublika və ümumittifaq yarışlarında uğurla çıxış edərək dəfələrlə çempion olmuşdur. 1975 və 1979-cu illərdə SSRİ xalqları Spartakiadasının iştirakçısı olmuş, 1972-ci ildə ümumittifaq “Spartak” idman cəmiyyəti mərkəzi şurasının qalibi, 1976-cı ildə ümumittifaq “Burevestnik” idman cəmiyyəti mərkəzi şurası birinciliyinin və tələbələrin ümumittifaq universiadasının gümüş mükafatçısı, Penza, Kaunas, Daşkənd, Jdanov şəhərlərində keçirilən beynəlxalq turnirlərin qalib və mükafatçısı olmuşdur. 1973-cü ildə SSRİ Silahlı Qüvvələri və Qafqaz hərbi dairəsinin çempionu adına layiq görülmüşdür.

SSRİ idman ustasıdır.



## XI FƏSİL

# AZƏRBAYCAN BOKSÇULARI 1990-2004-CÜ İLLƏRDƏ



**ABBASOV ELMAN FƏRMAN OĞLU**

23 avqust 1966-cı ildə Oğuz rayonunda dünyaya göz açıb.

1979-90-cı illərdə "Ehtiyat Əmək Qüvvələri" idman cəmiyyətində respublikanın Əməkdar məşqçisi Şamil Əlimzanovun rəhbərliyi altında boksla məşğul olmuşdur.

Dəfələrlə Azərbaycan birinciliyi və çempionatlarının, ümumittifaq "Ehtiyat Əmək Qüvvələri" idman cəmiyyəti mərkəzi şurasının, Özbəkistan, Qazaxıstan, Ukrayna və digər respublikalarda keçirilən ümumittifaq miqyaslı turnirlərin qalibi olmuşdur. 1986-cı ildə Əməkdar idman ustası A.Ağalarovun xatirəsinə həsr olunmuş turnirdə 57 kq çəki dərəcəsində birinci yeri tutmuş və turnirin baş mükafatını qazanmışdır. E.Abbasov həmçinin SSRİ hərbi qüvvələri birinciliyinin mükafatçısı olmuşdur. Bu yüksək nailiyyətlərinə görə SSRİ idman ustası adına laiyq görülmüşdür.

"İdman" qəzetinin 15 iyun 1990-cı il tarixli 69-cu (5704) sayında Elmanın həmin il İstanbulda keçirilən beynəlxalq turnirin yarımfinalında rumın idmançısı Leondrazinlə görüşü barədə maraqlı yazı dərc olunub:

- Birinci raundda rəqibə aman verməyən Elmanın burnundan qan açılır və bu ikinci raundda da təkrarlanır. Hər iki halda hakim ona döyüşməyə icazə verir. Lakin üçüncü raundun başa çatmasına beş saniyə qalmış italiyalı hakim Elmanın zədələnməsi səbəbiylə oyunu saxlayır. Bu anda zalda baş verən qarışıqlığı təsəvvür etmək çətin idi. Hakim tabloya baxaraq Elmanın qələbənin bir addımlığında olduğunu görsə də qərarını dəyişmir. Beləliklə finala layiqli olan idmançımız haqsızlığın qurbanı olur. Lakin öz həmkarlarının səhvini bağışlatmaq üçün çarə axtaran hakimlər kollegiyası E.Abbasovu "Turnirin centlmen idmançısı" mükafatı ilə təltif edirlər.



**ASLANOV FUAD ALXAN OĞLU**

1976-cı il iyunun 28-də Sumqayıt şəhərində anadan olub. Boksla 1986-cı ildən "Ehtiyat Əmək Qüvvələri" İC-də məşğul olmağa başlayıb. İlk məşqçisi Q.Novruzov olmuşdur. 1990-1997-ci illərdə Azərbaycan birinciliyi və çempionatlarının, ümumittifaq turnirlərin qalib və mükafatçısı, MDB ölkələri birinciliyinin qalibi, Avropa və dünya çempionatlarının iştirakçısı olmuşdur.

Əmək fəaliyyətinə 1995-ci ildə Sumqayıt şəhərinin uşaq-gənclər idman məktəbində məşqçi vəzifəsində başlamışdır. 1999-2002-ci illərdə Donetsk vilayətinin Kramatorsk şəhərində məşqçi kimi fəaliyyət göstərmişdir. Onun yetirmələri Ukrayna birinciliklərində uğurla çıxış edərək qalib və mükafatçı olmuşlar.

Afina XXVIII Yay Olimpiya Oyunlarında uğurla çıxış edərək bürünc medala layiq görülmüşdür.



**AĞAYEV MALİK BƏYLƏR OĞLU**

1970-ci il yanvar 21-də Beyləqan rayonunda anadan olmuşdur.

Boksla Əməkdar məşqçi Məmməd Eyvazovun rəhbərliyi altında məşğul olmağa başlamışdır. Öz istedadı sayəsində tez bir zamanda nəinki Azərbaycan, eləcə də keçmiş SSRİ yığma komandasına cəlb edilmişdir. O, dəfələrlə Azərbaycan çempionu, 1986-1988-ci illərdə SSRİ birinciliklərinin, bir sıra mötəbər beynəlxalq turnirlərin qalibi və Atlanta yay Olimpiya Oyunlarının gümüş mü-



kafatçısı olmuşdur.

**ABİYEV CEYHUN ŞAMİL OĞLU**

1974-cü il oktyabrın 24-də Bakıda anadan olub.

Boksla 1986-cı ildən "Neftçi" İC-də məşğul olmağa başlamışdır. 1995-ci ildə Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirdikdən sonra, hərbi xidmətini Ordu İdman Klubunda keçirərək, idman ustalığını artırmışdır. 1996-cı ildən ardıcıl hər il öz çəkisində rəqib tanımayaraq Azərbaycan çempionu adını qazanan Ceyhun, müxtəlif illərdə Pakistanda, Polşada, İranda, Dağıstanda, Rusiyada keçirilən beynəlxalq turnirlərdə qalib və mükafatçı olmuşdur. 2003-cü ildə hərbçilərin olimpiya oyunlarının bürünc medalını qazanıb. İdman ustasıdır. Məşqçisi Əməkdar məşqçi Ravil Yenikiyevdir

Afina XXVIII Yay Olimpiya Oyunlarının iştirakçısı olub.



**ACALOV FƏRHAD ELDAR OĞLU**

1982-ci il dekabrın 24-də Bakıda doğulub.

Boksun sirlərinə 1995-ci ildən "Təhsil" RİM-də yiyələnməyə başlayıb. İki dəfə yeniyetmələr arasında Avropa birinciliyinin gümüş və bir dəfə qızıl mükafatını qazanıb. 2000-ci ildə gənclər arasında dünya çempionatının qalibi və ən texnikalı boksçusu, dəfələrlə Azərbaycan çempionatlarının və bir sıra beynəlxalq turnirlərin qalibi olub.

2003-cü ildə hərbçilərin olimpiya oyunlarında bürünc mükafat qazanıb.

Beynəlxalq dərəcəli idman ustasıdır. Məşqçisi Şamil

Əlimzanovdur.



**BAĞIROV SAHİB CANƏLİ OĞLU**

1980-cı il mayın 27-də Bakıda anadan olub.

Boksla 1989-cu ildən Bakı Uşaq-Gənclər İdman Məktəbində məşğul olmağa başlamış, sonra "Təhsil" RİM-də öz idman ustalığını artırmışdır. İki dəfə yeniyetmələr arasında Avropa birinciliyinin **(1995-1996)** bürünc və bir dəfə gənclər arasında qitə birinciliyinin **(1997)** gümüş mükafatına layiq görülmüşdür. Dəfələrlə respublika çempionu, beynəlxalq turnirlərin qalib və mükafatçısı olmuşdur.

İdman ustasıdır. Əməkdar məşqçi Rasim Məmmədovun yetirməsidir.



**BAYRAMOV ASLAN TOFİQ OĞLU**

1984-cü il oktyabrın 1-də Şəmkirdə anadan olmuşdur.

Boksla 1996-cı ildən məşğul olmağa başlayıb. 1999-cu ildə təhsilini davam etdirmək üçün Respublika Olimpiya İdman Liseyinə daxil olmuşdur. Hal-hazırda Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təhsil alır.

Boksla məşğul olduğu müddət ərzində dəfələrlə respublika və beynəlxalq miqyaslı yarışlarda uğurla çıxış etmiş, qalib və mükafatçılar sırasında olmuşdur.

İki dəfə yeniyetmə boksçuların Avropa birinciliyinin iştirakçısı olub. 2001-ci ildə keçirilən yeniyetmələrin boks üzrə ilk dünya çempionatında qızıl medala layiq görülmüşdür.

İdman ustasıdır. Hal-hazırda Əməkdar məşqçi Rasim Məmmədovun yanında öz idman ustalığını artırır.



**ƏBİLOV ELDAR ZÖHRAB OĞLU**

1970-ci il oktyabrın 28-də Sumqayıtda anadan olmuşdur.

Boksla 1982-ci ildən məşğul olmağa başlamışdır. 1985-92-ci illərdə Azərbaycan birinciliyi və çempionatlarının qalibi, 1986-cı ildə SSRİ birinciliyinin gümüş mükafatçısı, 1987-ci ildə Zaqafqaziya çempionu, müxtəlif illərdə Türkiyə, Afrika, MDB ölkələrində keçirilən beynəlxalq turnirlərin qalib və mükafatçısı olmuşdur.

1992-ci ildə Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib, Sumqayıtda boks üzrə məşqçi-müəllim vəzifəsində əmək fəaliyyətinə başlamışdır. Yetirməsi Ş.İmranov Avropa çempionatının gümüş mükafatçısı olmuş və Afina Yay Olimpiya Oyunlarında ölkəmizi təmsil etmişdir.

SSRİ idman ustası və respublikanın Əməkdar məşqçisidir.



**ƏHMƏDOV TOFİQ NEMƏT OĞLU**

1978-ci il avqustun 19-da Bakıda anadan olub.

Boksla "Təhsil" respublika idman mərkəzində məşğul olmağa başlamışdır. 1999-cu ildə Xorvatiyada hərbçilərin Ümumdünya Olimpiya Oyunlarında və 2003-cü ildə Tailandda dünya çempionatında bürünc medala layiq görülmüşdür.

Dəfələrlə respublika yarışlarının və beynəlxalq turnirlərin qalib və mükafatçısı olmuşdur. Məhz bu nəticələrə görə ona idman ustası adı verilmişdir.

Əməkdar məşqçi Rasim Məmmədovun yetirməsidir.

**ƏLƏKBƏROV VÜQAR**



**MÜRSƏL OĞLU**

1981-ci il yanvarın 5-də Mingəçevir şəhərində anadan olub.

1994-cü ildə avarçəkmə idman növü üzrə məşğul olmağa başlamışdır. 1994-1995-ci illərdə bu idman növündə Azərbaycan çempionu olmuşdur.

1995-ci ildə boksa həvəs göstərmiş və tez bir zamanda respublika yarışlarında uğurla çıxış edərək yığma komandaya daxil edilmişdir. 1997-1998-ci illərdə AİBA prezidenti A.Çoudrinin Kuboku uğrunda keçirilən beynəlxalq turnirlərdə qızıl medala layiq görülmüşdür.

1999-cu ildə Almaniyada və Rumıniyada keçirilən beynəlxalq turnirlərdə iştirak edərək mükafatçı olmuş və Sidney XXVII Yay Olimpiya Oyunlarına lisenziya qazanmışdır.

Sidneydə təcrübəli və güclü rəqiblərinə qalib gələrək bürünc medal qazanmışdır.

“Azərbaycan Respublikasının Əməkdar idman ustası” adına layiq görülmüş, “Tərəqqi” medalı ilə təltif edilmişdir.

2003-cü ildə hərbçilərin olimpiya oyunlarının gümüş medalını qazanıb.

Afina XXVIII Yay Olimpiya Oyunlarının iştirakçısı olub.

**ƏLİMURADOV RUSLAN RAMAZANOVİÇ**

1983-cü il iyunun 27-də anadan olub.

Boksla 1996-cı ildən məşğul olur. 1999-cu ildə Azərbaycan birinciliyinin və yeniyetmələr arasında Avropa çempionatının qalibi olmuşdur. 2001-ci ildə gənclərin Avropa çempionatında bürünc medala layiq görülmüşdür. “Təhsil” idman-sağlamlıq mərkəzinin üzvüdür. Bir neçə beynəlxalq turnirin qalib və mükafatçısıdır. İdman ustası adına layiq görülmüşdür. Məşqçisi fəxri idman ustası Nadir Abbasovdur.

**ƏLİZADƏ ELÇİN**



**RAFİQ OĞLU**

1986-cı il yanvarın 2-də Gəncə şəhərində anadan olub.

Boksla 10 yaşından məşğul olmağa başlamışdır. Tez bir zamanda Azərbaycan birinciliyində öz istedadı ilə mütəxəssislərin diqqətini cəlb etmiş və respublika yığma komandasına daxil edilmişdir.

Azərbaycan birinciliyinin qalibi Elçin Əlizadə artıq 2001-ci ildə yeniyetmələrin I dünya çempionatının gümüş madalını qazanmağa nail olmuş, 2002-2004-cü illərdə dünya çempionatlarının bürünc və həmin illərdə yeniyetmələrin Avropa çempionatlarının qızıl medallarına layiq görülmüşdür. İdman ustasıdır.



**HÜSEYNOV RÖVŞƏN MƏMMƏDƏLİ OĞLU**

1975-ci il dekabrın 17-də Ermənistanın Çarentsevan şəhərində anadan olmuşdur.

Bakıya köçdükdən sonra "Dinamo" idman cəmiyyətində respublikanın Əməkdar məşqçisi Rauf Cabbarovun rəhbərliyi altında öz idman ustalığını təkmilləşdirmiş və artırmışdır. Dəfələrlə ümumittifaq və beynəlxalq yarışların, SSRİ birinciliklərinin qalibi, gənclər və kişilər arasında Avropa çempionu, Dünya Kubokunun sahibi olmuş və milli komandamız tərkibində bir sıra beynəlxalq yarışlarda uğurla çıxış edərək Azərbaycan boks məktəbinin nüfuzunu artırmışdır. Yüksək idman nəticələrinə görə respublikanın Əməkdar idman ustası adına və "Tərəqqi" medalına layiq görülmüşdür. Afina XXVIII Yay Olimpiya Oyunla-

rında iştirak etmişdir.

**XAİROV RUSLAN SABİROVİÇ**



1976-cı il yanvarın 7-də Dağıstanın Kaspiysk şəhərində anadan olub.

Məşqçi N.Talibovun rəhbərliyi altında öz ustalığını artırmış, sonralar Azərbaycan Boks Federasiyasının dəvəti ilə Bakıya gəlmiş, məşqlərini "Neftçi" İSM-də Əməkdar məşqçi Ə.Eyvazovun yanında davam etdirmişdir. Dəfələrlə Azərbaycan çempionatının, beynəlxalq turnirlərin qalibi və mükafatçısı olmuş, 2000-ci ildə Sidney Yay Olimpiya Oyunlarında V yeri tutmuş, 2003-cü ildə isə Tailandda keçirilən Dünya çempionatında bürünc medala layiq görülmüşdür.

2004-cü ildə Xorvatiyanın Pula şəhərində Avropa çempionatının bürünc medalını qazanıb. Afina XXVIII Yay Olimpiya Oyunlarının iştirakçısı olub.

Beynəlxalq dərəcəli idman ustasıdır.



**İSMAYILOV ƏLİ ŞAMİL OĞLU**

1974-cü il mayın 8-də Ukraynada anadan olmuşdur.

Uzun illər "Dinamo" İC-də Əməkdar məşqçi Rauf Cabbarovun rəhbərliyi altında öz idman ustalığını artırmışdır.

Dəfələrlə Azərbaycan çempionu adını qazanıb. Avropa və Dünya, kubok və çempionatlarının bürünc medallarını qazanıb. Hərbçilərin dünya çempionatının qızıl mükafatçısıdır.

Azərbaycan Respublikasının Beynəlxalq dərəcəli idman ustası adına layiq görülmüşdür.

Sidney və Afina Olimpiya Oyunlarının iştirakçısı olub.



**İSRAFİLBƏYOV EMİL RÜFƏT OĞLU**

1972-ci il aprelin 27-də Bakıda anadan olub.

Boksla 1983-cü ildə "Dinamo" İC-də Əməkdar məşqçi Rauf Cabbarovun yanında məşğul olmağa başlamışdır.

Dəfələrlə Azərbaycan birinciliyi və çempionatlarının qalibi olmuş, 1987-1988-ci illərdə ümumittifaq "Dinamo" İC mərkəzi şurası birinciliklərində fəxri kürsünün ən yüksək pilləsinə qalxmış, Soçi, Taqanroq, Narva, Luqansk, Minsk, Suxumi şəhərlərində keçirilən ümumittifaq və beynəlxalq turnirlərin qızıl medalına layiq görülmüşdür.

İdman ustasıdır. Hal-hazırda ABŞ-da yaşayır, peşəkar boksçular arasında müxtəlif səviyyəli və miqyaslı yarışlarda uğurla çıxış edir.



**İSRAFİLBƏYOV RÜFƏT RÜFƏT OĞLU**

1976-cı il avqustun 26-da Bakıda anadan olmuşdur.

Boksla 1983-cü ildən "Dinamo" İC-də, Əməkdar məşqçi Rauf Cabbarovun rəhbərliyi altında məşqul olmağa başlamışdır.

Respublika yığma komandası tərkibində Azərbaycanın idman şərəfini ümumittifaq yarışlarda ləyaqətlə qorumuşdur.

Dəfələrlə Azərbaycan birinciliklərinin, ümumittifaq və beynəlxalq turnirlərin qalibi olmuşdur.

Ponevejis, Narva, Taqanroq, Luqansk, Brest və başqa şəhərlərdə keçirilmiş yarışlarda onlarla medal qazanmışdır. Hal-hazırda ABŞ-da yaşayır və karyerasını peşəkar



boksda uğurla davam etdirir.

**İSMAYILOV ELŞƏN NURƏDDİN OĞLU**

1986-cı il iyunun 13-də Bakı şəhərində anadan olmuşdur.

1999-cu ildən "Sədərək" idman klubunda məşqçi Vaqif Xanəliyevin rəhbərliyi altında boksla məşğuldur. Qısa müddət ərzində Elşən paytaxt və respublika birinciliklərinin qalibi olmuş, milli komandaya daxil edilmişdir. 2001-ci ildə yeniyetmələrin I dünya birinciliyində uğurla çıxış edərək bürünc medala layiq görülmüşdür. 2002-2004-cü illərdə də Elşən Avropa və dünya çempionatlarının bürünc medallarını qazanıb. 2003-cü ildə ilk dəfə böyüklər arasında Azərbaycan çempionatında iştirak edərək bütün yaşlı rəqiblərinə qalib gəlmiş və fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır.

2004-cü ildə ilk dəfə gənclər arasında dünya çempionatında iştirak edərək bürünc medal qazanmışdır.

İdman ustasıdır.



**İSMAYILOV RƏŞAD VAQİF OĞLU**

1984-cü il aprelin 17-də Bakıda anadan olub.

1995-ci ildən "Dinamo" İC-də Əməkdar məşqçi R.Cabbarovun rəhbərliyi altında boksun sirlərinə yiyələnməyə başlamışdır. Dəfələrlə Azərbaycan birinciliklərində, ümumittifaq və beynəlxalq turnirlərdə uğurla çıxış edərək qalib adına layiq görülüb. 1999-cu il yeniyetmələrin Avropa çempionatının iştirakçısı olub. 2000-2003-cü illərdə Almaniyada keçirilən bir çox yarışlarda peşəkar boksçular arasında öz gücünü sınamış Almaniya və İBF versiyası üzrə dünya çem-



pionu titulunu qazanmışdır.

**İMRANOV ŞAHİN SƏLİM OĞLU**

1980-cı il sentyabrın 23-də Sumqayıt şəhərində anadan olmuşdur.

1993-cü ildən boksla məşğul olur. Sumqayıt şəhəri "Təhsil" idman-sağlamlıq mərkəzinin yetirməsidir. Dəfələrlə Azərbaycan çempionu olmuş, beynəlxalq yarışlarda mükafatlara layiq görülmüşdür. Respublika yığma komandasının üzvü, idman ustasıdır. Məşqçisi idman ustası Eldar Əbilovdur. 2002-ci ildə Avropa çempionatının gümüş medalını, hərbçilərin dünya çempionatının bürünc medalını qazanıb. Şahin digər bürüncü isə 2003-cü ildə hərbçilərin olimpiya oyunlarında qazanıb. Afina XXVIII Yay Olimpiya Oyunlarının iştirakçısı olmuşdur.



**KƏRİMOV İLHAM ŞİRZAD OĞLU**

1976-cı il iyulun 2-də Naxçıvan şəhərində anadan olub.

Boksla 1994-cü ildə məşğul olmağa başlamışdır. "Dinamo" idman cəmiyyətinin yetirməsidir. Respublika çempionu, beynəlxalq turnirlərin qalib və mükafatçısı, Atlanta Yay Olimpiya Oyunlarının iştirakçısı olmuşdur. İdman ustası adına layiq görülmüşdür.

Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirdikdən sonra məşqlərini Ordu İdman Klubunda davam etdirmişdir.

Hal-hazırda "Təhsil" RİM-də Əməkdar məşqçi Rasim Məmmədovun yanında öz idman ustalığını artırır.



**QƏDİROV ELNUR ELLAZİ OĞLU**

1985-ci il iyunun 8-də Ağsu rayonunda anadan olub.

2002-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına daxil olmuşdur. 1999-cu ildə Bakıdakı "Təhsil" idman sağlamlıq mərkəzinin boks bölməsində ilk məşqlərə başlamışdır. Məşğul olduğu ilk günlərdən öz qeyri-adi keyfiyyətləri və istedadı ilə həmyaşıdlarından seçilən Elnur qısa bir müddət ərzində dünyanın ən güclü boksçuları sırasına çıxmağa nail olmuşdur.

2001-ci ildə yeniyetmələrin ilk dünya çempionatında gümüş medal qazanmış Elnur Qədirov 2002-ci ildə növbəti çempionatda bu nəticəni artıraraq qızıl medalla təltif olunmuşdur.

2003-cü ildə isə öz kolleksiyasına gənclər arasında Avropa birinciliyi gümüşünü, 2004-cü ildə dünya birinciliyi bürüncünü əlavə etmişdir. Bu gənc idman ustasının yetişməsində Əməkdar məşqçi Şamil Əlimcanovun misilsiz əməyi vardır.



**QURBANOV SEYMUR DURSUN OĞLU**

1984-cü il sentyabrın 18-də Ermənistanın Amasiya rayonunun Köllü kəndində anadan olmuşdur.

Boksla "Neftçi" idman sağlamlıq mərkəzində 1995-ci ildən qardaşı Cümşüd Qurbanovun rəhbərliyi altında məşğul olmağa başlamışdır. Bakı şəhəri və Azərbaycan birinciliklərinin, Saratovda keçirilən beynəlxalq turnirin, yeniyetmələr arasında Avropa birinciliyinin (1999)



qalibi olmuşdur.

**MAHMUDOV XANLAR ELBRUS OĞLU**

1974-cü ildə Laçın rayonunun Minkənd kəndində anadan olmuşdur.

Valideynləri ilə Sumqayıt şəhərinə köçdükdən sonra boksla məşğul olmağa başlamışdır. Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirib. Tələbəlik illərində öz idman ustalığını artıran Xanlar gənclər və yaşlılar arasında Azərbaycan çempionu, gənclər arasında Avropa çempionatının bürünc, SSRİ birinciliyinin gümüş mükafatçısı olmuş, SSRİ yığma komandası tərkibində Rumınıyada, İranda, Türkiyədə, Kanadada keçirilən beynəlxalq turnirlərdə uğurla çıxış edərək mükafatlara layiq görülmüşdür.

İdman ustasıdır. "Təhsil" RİM-in və Əməkdar məşqçi Sərxan Məmmədovun yetirməsidir.



**MƏMMƏDOV SAMİR AYDIN OĞLU**

1988-ci il mayın 15-də Qazaxda anadan olub.

Boksla məşğul olmağa 1999-cu ildə başlayıb. 2003-cü ildə Azərbaycan çempionu olub. Ölkə yığma komandasının tərkibində, Rumınıyada keçirilən yeniyetmələrin dünya birinciliyində və Rusiyanın Saratov şəhərində keçirilən Avropa birinciliyində qızıl medal qazanıb. Hal-hazırda "Gömrükçü" idman klubunda məşqçi Zahid Əliyevin rəhbərliyi altında məşqlərini davam etdirir.

İdman ustasıdır.

**MƏMMƏDOV ƏDALƏT**



**AYDIN OĞLU**

3 avqust 1974-cü ildə Bakı şəhərində anadan olmuşdur.

Dəfələrlə Azərbaycan çempionu, 1990-cı ildə yeniyetmələr arasında, 1992-ci ildə gənclər arasında SSRİ birinciliyinin, 1991-ci ildə gənclər arasında SSRİ Kuboku yarışının, 1992-ci ildə Avropa birinciliyinin qalibi, həmin ildə dünya birinciliyinin bürünc mükafatçısı olmuş, 1996-cı ildə, Atlantada XXVI Yay Olimpiya Oyunlarında V yeri tutmuşdur.

İtaliya, Fransa, Rumıniya, Türkiyə, İran və bir çox başqa ölkələrdə keçirilən beynəlxalq turnirlərin qalibi adına layiq görülmüşdür.

Yüksək idman göstəricilərinə görə ona beynəlxalq dərəcəli idman ustası adı verilmişdir. Əməkdar məşqçi Şamil Əlimzanovun yetirməsi olmuşdur.

2003-cü ildə, 29 yaşında dünyasını dəyişmişdir.

**MƏMMƏDOV RÜFƏT**



**NİZAMİ OĞLU**

1979-cu il noyabrın 3-də Gürcüstanda anadan olub.

1993-cü ildən boksla məşqçi Q.Qulamovun rəhbərliyi altında məşğul olur. 1997-ci ildə AİBA prezidenti, Ə.Çoudrinin şərəfinə keçirilən ənənəvi beynəlxalq turnirin qalibi olmuş, 1998-ci ildə Avropa Kuboku, 2000-ci ildə neft istehsal edən ölkələrin Dünya Kuboku yarışında bürünc medala layiq görülmüş, 2001-ci ildə Azərbaycan çempionu adını qazanmışdır. Hal-hazırda “Dinamo” İC-də öz idman ustalığını artırır və daxili qoşunlar sırasında hərbi qulluqdadır. İdman ustasıdır.



## MƏMMƏDOV AĞASI AĞAGÜL OĞLU

1980-ci il iyunun 1-də Bakı şəhərində anadan olub.

Hələ 9-10 yaşlarında olarkən Ağası Yasamal rayonunda yerləşən, "Məhsul" KKİC-nin ixtisaslaşdırılmış boks zalında məşqləri böyük maraqla izləyirdi. Günlərin bir günü məşqçi Vaqif Kazımov ona əlcək geyib özünü sınamağı təklif etdi. Balaca Ağasının cəld və çevik hərəkətləri onun yaşına uyğun olmayan qeyri-adi sürət və reaksiyası məşqçini valeh etmişdi. Yaşının azlığına görə Ağası uzun müddət yarışlarda iştirak edə bilmirdi. O, həmişə məşqlərdə döyüşə can atır, özündən böyük uşaqlarla məşq etməyi xoşlayırdı. Tez bir zamanda boksun sirlərinə yiyələnən Ağası bir çox mütəxəssislərin diqqətini özünə cəlb etdi və onun yarışlarda iştirakına razılıq verildi. Əvvəlcə Ağası "Açıq rinq" tipli yarışlarda, sonra paytaxt, eləcə də respublika miqyaslı yarışlarda uğurla çıxış edərək, Azərbaycan yığma komandasına daxil oldu.

1996-cı ildə İtaliyanın Aosta şəhərində keçirilən yeniyetmələrin Avropa çempionatında bütün rəqiblərinə qalib gələrək qızıl medal və ən texnikalı boksçu kimi xüsusi mükafat - kubokla təltif edildi.

Ağası Məmmədov böyüklər arasında keçirilən onlarla beynəlxalq turnirlərdə qalib gəlmiş, 2000-ci ildə Avropa çempionu, 2001-ci ildə dünya çempionatının gümüş mükafatçısı olmuş və həmin ildə Ağ Dəniz Oyunlarında qızıl medal qazanmışdır. Dəfələrlə Azərbaycan çempionu olub. Əməkdar idman ustasıdır.

Ağası Məmmədov öz karyerasında ən böyük qələbəsini 2003-cü ilin iyul ayında Tailandda keçirilmiş dünya çempionatında qazanıb. Gərgin döyüşlər nəticəsində bütün rəqiblərinə mübarizliklə qalib gələn Ağası dünya çempionu adını qazanıb. Ağasının bu yarışdakı qızılı Azərbaycan boksu tarixində dünya çempionatında qazanılmış ilk və hələlik yeganə qızıldır.

Afina XXVIII Yay Olimpiya Oyunlarının bürünc mükafatçısıdır.



**MƏHƏRRƏMOV EMİL SƏFƏRAĞA OĞLU**

1984-cü il dekabrın 3-də Biləsuvar rayonunda anadan olub.

Boksda ilk addımlarını məşqçi Qurbanxan Məhərrəmovun rəhbərliyi altında atmağa başlamışdır. 1994-cü ildə Bakıya köçərək "Lokomotiv" idman cəmiyyətində məşqçi Akif Kərimovun rəhbərliyi altında öz idman ustalığını artıran E.Məhərrəmov tez bir zamanda respublika yığma komandasına daxil edilib. Dəfələrlə Azərbaycan birinciliklərinin qalibi, beynəlxalq turnirlərin mükafatçısı olub. 1999-cu ildə yeniyetmələrin Avropa birinciliyinin bürünc və 2001-ci ildə yeniyetmələrin ilk dünya birinciliyinin qızıl medalını qazanıb.

İdman ustasıdır. Hal-hazırda "Rabitəçi" idman klubunda məşqçi Rasim Məmmədovun yanında öz ustalığını təkmilləşdirir.



**MİRZƏYEV VAQİF MAİLXAN OĞLU**

1971-ci il noyabrın 6-da Biləsuvar rayonunda anadan olub.

1986-cı ildə ilk dəfə yeniyetmələr arasında respublika birinciliyində iştirak edərək boks mütəxəssislərinin diqqətini cəlb etmişdir. 1987-1994-cü illərdə Bakıda öz idman ustalığını Əməkdar məşqçi Tofiq Babanlının yanında artıran V.Mirzəyev dördqat Azərbaycan çempionu, üçqat Atatürk beynəlxalq turnirinin qalibi, Latviya, Polşa, İran beynəlxalq turnirlərinin bürünc mükafatçısı olmuşdur. İdman ustasıdır.

Hal-hazırda "Məşəl" idman kulubunda onlarla yeniyetmə və gənclərə boksun sirlərini öyrədir.



## NAĞIYEV TURAL ELXAN OĞLU

1984-cü il oktyabrın 24-də Bakı şəhərində anadan olub.

Orta məktəbi bitirdikdən sonra Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına daxil olmuşdur.

"Dinamo" idman cəmiyyətinin boks bölməsində əməkdar məşqçi Rauf Cabbarovun rəhbərliyi altında öz idman ustalığını təkmilləşdirir. Yeniyetmələr arasında Azərbaycan birinciliyinin qalibi, bir neçə beynəlxalq turnirlərin mükafatçısı yeniyetmələrin I Dünya çempionatının (2001) gümüş, Avropa birinciliyinin (2003) bürünc medalçısı olmuşdur. İdman ustasıdır.



## SAİLOV CƏBİ BAXŞƏLİ OĞLU

1986-cı il aprelin 18-də Naxçıvan MR Şərur rayonunun Xok kəndində anadan olub.

1999-cu ildə məşqçi İsa Xəlilovun rəhbərliyi altında boksla məşğul olmağa başlamış, 2001-ci ildə isə Bakıya gələrək Əməkdar məşqçi Nəriman Abdullayevin rəhbərliyi altında öz idman ustalığını artırmış və artıq 2002-ci ildə yeniyetmələr arasında Azərbaycan birinciliyinin və Avropa çempionatının qalibi olmuşdur. 2003-cü ildə isə Avropa çempionatında gümüş medal qazanmışdır.

Hal-hazırda "Təhsil" RİM-də məşqlərini davam etdirir. Gələcəkdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında oxuyub məşqçi olmaq arzusundadır.



**TAĞIYEV ROMAN NURƏDDİN OĞLU**

1972-ci il iyunun 15-də Kaliningrad vilayətində anadan olub.

1992-ci ildə "Dinamo" İC-də respublikanın Əməkdar məşqçisi Rauf Cabbarovun yanında boksun sirlərinə yiyələnməyə başlamışdır. Öz əməksevərliyi ilə yaşıdlarından seçilən Roman ilk yarışlarda qazandığı uğurlar sayəsində respublika yığma komandasına daxil edilmişdir. Dəfələrlə respublika və beynəlxalq miqyaslı yarışlarda yüksək iradi keyfiyyətlər nümayiş etdirərək qalib və mükafatçılar sırasına çıxmışdır.

Sonralar Roman özünü kikboksinq idman növündə də sınamış və daha yüksək nəticələr əldə edə bilmişdir. O, 1995 və 2000-ci illərdə kikboksinq üzrə dünya çempionu adına layiq görülmüşdür. SSRİ idman ustasıdır.



**TAĞIYEV VİDADİ ƏLÖVSƏT OĞLU**

1976-ci il avqustun 12-də Gəncə şəhərində anadan olub.

1990-cı ildə məşqçi A.Məmmədovun rəhbərliyi altında boksla məşğul olmağa başlamışdır. Gənclər arasında Azərbaycan birinciliyinin qalibi, mükafatçısı və idman ustası adına layiq görülmüşdür.

Hal-hazırda Gəncə "Təhsil" idman mərkəzində boks üzrə baş məşqçi vəzifəsində çalışır. Qısa bir müddət ərzində özünü bacarıqlı və əməksevər bir məşqçi kimi göstərmişdir. Onun yetirmələri Ş.Nağıyev gənclərin Avropa birinciliyinin bürünc mükafatçısı olmuş, E.Əlizadə isə yeniyetmələrin Avropa birinciliyinin qızıl və dünya birinciliyinin gümüş medalına layiq görülmüşdür.



**TAĞIYEV CAVİD İBRAHİM OĞLU**

1981-ci il oktyabrın 6-da Lənkəranın Port İliç qəsəbəsində anadan olub.

1998-ci ildə Bakıya gələrək Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına daxil olmuşdur. Boksun sirlərinə 1995-ci ildə Əməkdar məşqçi Yadigar Məmmədovun rəhbərliyi altında yiyələnməyə başlamışdır.

Dəfələrlə respublika və beynəlxalq miqyaslı yarışların qalib və mükafatçısı olmuş, 1998-ci ildə isə yeniyetmələrin Avropa çempionatında gümüş medal qazanmışdır. Afina yay Olimpiya Oyunlarında iştirak etmək üçün 2004-cü ilin fevral ayında Xorvatiyada, Avropa çempionatında bürünc medala sahib olmuşdur.

Afina XXVIII Yay Olimpiya Oyunlarının iştirakçısı olub.

İdman ustasıdır.



**TAĞIYEV ETİBAR ÇAPAY OĞLU**

1983-cü il mayın 19-da Bakıda anadan olub.

1994-cü ildə "Təhsil" RİM-də boksla məşğul olmağa başlamışdır. 1998-2001-ci illərdə Azərbaycan birinciliyinin, 1998-ci ildə yeniyetmələr arasında keçirilən Avropa çempionatının bürünc mükafatçısı, 1999-cu ildə isə yeniyetmələr arasında Avropa çempionatının qalibi olmuşdur. Məşqçisi Vaqif Səlimovdur. İdman ustası adına layiq görülmüşdür. Hazırda Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təhsil alır.



**TEYMUROV ZAUR RAMİZ OĞLU**

1985-ci il oktyabr 24-də Bakı şəhərində anadan olub.

Orta təhsil və musiqi məktəblərində təhsil almış, sonra isə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına daxil olmuşdur. Hələ uşaq yaşlarından musiqiyə və idmanın boks növünə böyük maraq göstərmiş və hər iki sahədə uğurları olmuşdur.

Zaur respublika musiqi festivalının laureatı olmuş və Azərbaycan Dövlət Simfonik Orkestri ilə məşhur dirijor David Buxinin rəhbərliyi altında möhtəşəm konsert vermişdir.

Zaur Teymurov müxtəlif ölkələrdə keçirilən yarışlarda olanda da ölkəmizin, xalqımızın gözəl musiqisini asudə vaxtlarında otel foyelərində, restoranlarında fortepianoda ifa edərək respublikamızın incəsənətini və musiqimizin zənginliyini nümayiş etdirir.

Zaur Teymurovun idman uğurları da çox yüksəkdir. O, 2001-ci ildə Avropa və dünya birinciliyinin gümüş, 2002 və 2004-cü ildə isə dünya birinciliyinin bürünc medalına layiq görülmüşdür. İdman ustasıdır.

"Məşəl" idman klubunun üzvüdür və respublikanın Əməkdar məşqçisi Şamil Əlimzanovun rəhbərliyi altında öz idman ustalığını artırır.

## XII FƏSİL



# BEYNƏLXALQ UĞURLAR VƏ BOKS USTALARIMIZ

## AVROPA ÇEMPİONLARI

Ədalət Məmmədov (gənclər) 1992-ci il
Rövşən Hüseynov (gənclər) 1993-cü il
Rövşən Hüseynov (kişilər) 1993-cü il
Ağası Məmmədov (yeniyetmələr) 1996-cı il
Murad Çupalayev (yeniyetmələr) 1998-ci il
Seymur Qurbanov (yeniyetmələr) 1999-cu il
Etibar Tağıyev (yeniyetmələr) 1999-cu il
Ruslan Əlimuradov (yeniyetmələr) 1999-cu il
Əlibəy Dudayev (yeniyetmələr) 1999-cu il
Elçin Əlizadə (yeniyetmələr) 2002-ci il
Cəbi Sailov (yeniyetmələr) 2002-ci il
Elşah Nadirov (yeniyetmələr) 2003-cü il
Elçin Əlizadə (yeniyetmələr) 2003-cü il
Samir Məmmədov (yeniyetmələr) 2004-cü il

## AVROPA ÇEMPİONATININ GÜMÜŞ MÜKAFATÇILARI

Rəşad Süleymanov (yeniyetmələr) 1995-ci il
Azər Məmmədov (yeniyetmələr) 1996-cı il
Sahib Bağırov (gənclər) 1997-cı il
Rüfət Hüseynov (yeniyetmələr) 1997-ci il
Fərhad Acalov (yeniyetmələr) 1997-ci il
Cavid Tağıyev (yeniyetmələr) 1997-ci il
Orxan Sofiyev (yeniyetmələr) 1997-ci il
Fərhad Acalov (yeniyetmələr) 1998-ci il
Aynutdin Abdullayev (yeniyetmələr) 1999-cu il
Zaur Teymurov (yeniyetmələr) 2001-ci il
Rahib Bəylərov (yeniyetmələr) 2002-ci il
Şahin İmranov (kişilər) 2003-cü il
Rəhim Nəcəfov (yeniyetmələr) 2003-cü il
Nurlan Məmmədov (yeniyetmələr) 2003-cü il
Elnur Qədirov (gənclər) 2003-cü il

Rahib Bəylərov (gənclər) 2003-cü il
Cəbi Sailov (yeniyetmələr) 2003-cü il
Anar Sadıqov (yeniyetmələr) 2004-cü il
Namiq Hüseynov (yeniyetmələr) 2004-cü il
Natiq Cəbrayılov (yeniyetmələr) 2004-cü il
Rüfət Behbutov (yeniyetmələr) 2004-cü ilc
Rüstəm Şamilov (yeniyetmələr) 2004-cü il

## AVROPA ÇEMPİONATLARININ BÜRÜNC MÜKAFATÇILARI

Xanlar Mahmudov (gənclər) 1993-cü il
Sahib Bağırov (yeniyetmələr) 1995-ci il
Rüfət Aslanov (yeniyetmələr) 1995-ci il
Rauf İsayev (yeniyetmələr) 1996-cı il
Natiq Tahirov (yeniyetmələr) 1996-cı il
Sahib Bağırov (yeniyetmələr) 1996-cı il
Etibar Tağıyev (yeniyetmələr) 1998-cı il
Emil Məhərrəmov (yeniyetmələr) 1999-cu il
Kazbek Məhəmmədov (yeniyetmələr) 1999-cu il
Elnur Hacıyev (yeniyetmələr) 1999-cu il
Amil Kərimov (yeniyetmələr) 1999-cu il
Şahlar Nağıyev (yeniyetmələr) 1999-cu il
Əli İsmayılov (kişilər) 2000-ci il
Namiq Dadaşov (yeniyetmələr) 2001-ci il
Faiq Həsənov (yeniyetmələr) 2001-ci il
Bəhruz Babayev (yeniyetmələr) 2001-ci il
Fərid Əsədullayev (yeniyetmələr) 2001-ci il
Ruslan Əlimuradov (gənclər) 2001-ci il
Əlibəy Dudayev (gənclər) 2001-ci il
Tural Nağıyev (yeniyetmələr) 2002-ci il
Elşən İsmayılov (yeniyetmələr) 2002-ci il
Turab Məmmədov (yeniyetmələr) 2002-ci il
Turab Məmmədov (yeniyetmələr) 2003-cü il
Natiq Cəbrayılov (yeniyetmələr) 2003-cü il
Elşən İsmayılov (yeniyetmələr) 2003-cü il
Ruslan Xairov (kişilər) 2004-cü il
Cavid Tağıyev (kişilər) 2004-cü il
Asim İskəndərov (yeniyetmələr) 2004-cü il

## DÜNYA ÇEMPİONLARI

Fərhad Acalov (gənclər) 2000-ci il
Emil Məhərrəmov (yeniyetmələr) 2001-ci il

Aslan Bayramov (yeniyetmələr) 2001-ci il
Elnur Qədirov (yeniyetmələr) 2002-ci il
Samir Məmmədov (yeniyetmələr) 2003-cü il
Ağası Məmmədov (kişilər) 2003-cü il

**DÜNYA ÇEMPİONATLARININ GÜMÜŞ MÜKAFATÇILARI**

Elçin Əlizadə (yeniyetmələr) 2001-ci il
Elnur Qədirov (yeniyetmələr) 2001-ci il
Zaur Teymurov (yeniyetmələr) 2001-ci il
Turab Məmmədov (yeniyetmələr) 2003-cü il
Tural Nağıyev (yeniyetmələr) 2004-cü il

**DÜNYA ÇEMPİONATLARININ BÜRÜNC MÜKAFATÇILARI**

Ədalət Məmmədov (gənclər) 1992-ci il
Əli İsmayılov (kişilər) 1999-cü il
Ruslan Məmmədov (gənclər) 2000-ci il
Elşən İsmayılov (yeniyetmələr) 2001-ci il
Elşad Quliyev (yeniyetmələr) 2001-ci il
Nurlan Məmmədov (yeniyetmələr) 2001-ci il
Rüfət Xairbəyov (yeniyetmələr) 2001-ci il
Elçin Əlizadə (yeniyetmələr) 2002-ci il
Zaur Teymurov (yeniyetmələr) 2002-ci il
Elşən İsmayılov (yeniyetmələr) 2003-cü il
Elşah Nadirov (yeniyetmələr) 2003-cü il
Elçin Əlizadə (yeniyetmələr) 2003-cü il
Tofiq Əhmədov (kişilər) 2003-cü il
Ruslan Xairov (kişilər) 2003-cü il

**HƏRBÇİLƏRİN OLİMPİYA OYUNLARI**

Tofiq Əhmədov 1999-cu il - III yer
Vüqar Ələkbərov 2003-cü il - II yer
Ceyhun Abiyev 2003-cü il - III yer
Şahin İmranov 2003-cü il - III yer
Fərhad Acalov 2003-cü il - III yer

**HƏRBÇİLƏRİN DÜNYA ÇEMPİONATI**

Əli İsmayılov (kişilər) 2002-ci il - I yer
Şahin İmranov (kişilər) 2002-ci il - III yer

## SSRİ-nin ƏMƏKDAR İDMAN USTASI

1. Abbas Ağalarov

## SSRİ-nin ƏMƏKDAR MƏŞQÇİLƏRİ

1. Abbas Ağalarov
2. Leonid Krivonos

## AZƏRBAYCAN RESPUBLİKASININ ƏMƏKDAR İDMAN USTALARI

1. Rövşən Hüseynov
2. Vüqar Ələkbərov
3. Ağası Məmmədov

## AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ DƏRƏCƏLİ İDMAN USTALARI

1. Əli İsmayılov
2. Fərhad Acalov
3. Ədalət Məmmədov
4. Rövşən Hüseynov

## OLİMPİYA OYUNLARININ MÜKAFATÇILARI

1. Vüqar Ələkbərov - III yer, 2000-ci il, Sidney
2. Ağası Məmmədov - III yer, 2004-cü il, Afina
3. Fuad Aslanov - III yer, 2004-cü il, Afina

## AZƏRBAYCAN RESPUBLİKASININ ƏMƏKDAR MƏŞQÇİLƏRİ

1. Boris Kipiani
2. Tofiq Babanlı
3. Süleyman Süleymanov
4. Nəriman Abdullayev
5. Rasim Məmmədov
6. Çingiz Pirverdiyev
7. Çingiz Məmmədov
8. Rəşid Məmmədov
9. Niftalı Quliyev
10. Sərxan Məmmədov
11. Vladislav Bıkov
12. Məmməd Eyvazov
13. Əskər Eyvazov
14. Ravil Yenikeyev
15. Şamil Əlimzanov
16. Rauf Cabbarov
17. Yevgeniy Melçin
18. İlya Odinov
19. Aleksandr Kryuçkov
20. Vaqif Kazımov

21. Yadigar Məmmədov
23. Oleq Kuxarenko
24. Oqtay Quliyev
25. Rafiq Baxşəliyev
26. Akif Kərimov
27. Əlizadə Əsədov
28. Balahəsən Eynullayev
29. Eldar Əbilov
30. Kamil Salayev
31. Kamran Qasımov
32. Leonid Krivonos
33. Rəşid Abdulin
34. Zahid Əliyev
35. Şahin Nik-Nicat
36. Zülfüqar Kərimov
37. Rasim Məmmədov
38. Elman Məmmədov

## BEYNƏLXALQ DƏRƏCƏLİ HAKİMLƏR

1. Ağacan Abiyev
2. Abbas Ağalarov
3. Boris Kipiani
4. Niftalı Quliyev
5. Ravil Yenikeyev
6. Nazir Rəhimov
7. Mehman Mürsəlov
8. Nəriman Abdullayev
9. Səfər Əliyev
10. Qismət Novruzov
11. Balahəsən Eynullayev
12. Kamil Aydınov
13. Tofiq Babanlı
14. Anar Babanlı
15. Nazim Mirhüseynov
16. Rasim Məmmədov
17. Zülfüqar Kərimov
18. Zakir Quliyev
19. Ramiz Yusifov
20. Xalıq Muradov
21. Məmməd Eyvazov
22. Rafiq İmanov
23. Süleyman Mikayılov
24. Süleyman Süleymanov
25. Vaqif Gözəlov
26. Yadigar Türkel
27. Sakin Məmmədzadə
28. Elmar Hüseynov
29. Əli Ramazanov
30. Qurban Cəbrayılov
31. Akif Kərimov
32. Əlizadə Əsədov
33. Əhməd Fərəcov
34. Rafiq Baxşəliyev
35. Boris Sxiraşvili
36. Nizami Xələfov

## DÖVLƏT MEDAL VƏ ORDENLƏRİ İLƏ TƏLTİF EDİLMİŞ BOKSÇU VƏ MÜTƏXƏSSİSLƏR

Abbas Ağalarov - “Şərəf nişanı” ordeni
Ağacan Abiyev - “Şöhrət” ordeni
Ənvər Çoudri - “Şöhrət” ordeni (AİBA prezidenti)
Vüqar Ələkbərov - “Tərəqqi” medalı
Rauf Cabbarov - “Tərəqqi” medalı
Rəşid Məmmədov - “Tərəqqi” medalı
Nəriman Abdullayev - “Tərəqqi” medalı
Tofiq Babanlı - “Tərəqqi” medalı

Rövşən Hüseynov - “Tərəqqi” medalı
Ağası Məmmədov - “Tərəqqi” medalı
Fuad Aslanov - “Tərəqqi” medalı
Məmməd Eyvazov - “Tərəqqi” medalı
Vaqif Kazımov - “Tərəqqi” medalı

## MÜXTƏLİF İLLƏRDƏ AZƏRBAYCAN BOKSUNUN ŞƏRƏFİNİ QORUMUŞ DİGƏR BOKSÇU VƏ MÜTƏXƏSSİSLƏR

Abiyev Şamil Qulam oğlu
Abdullayev Etibar Başçıl oğlu
Abidov Nəriman Əlihəsən oğlu
Aydınov Nəsimi Mürvət oğlu
Ağayev Məmməd Ağaəli oğlu
Ağayev Qalib Şəmsəddin oğlu
Ağazadə Miri
Amanov Vüsal Nəbi oğlu
Aslanov Rüfət Alxan oğlu
Babayev Bəhruz Hüseyn oğlu
Babayev Kamal Baba oğlu
Babayev Məmməd Nadir oğlu
Bağırov Hüseyn Bağır oğlu
Bəşirov Mübariz Telman oğlu
Bəylərov Rahib Böyükağa oğlu
Biçuyev Murad Movladiyeviç
Belyavtsev Aleksandr
Behbudov Rüfət
Dadaşov Namiq Nadir oğlu
Dadaşov Əli Qardaşbala oğlu
Eyvazov Əsgər Fətəli oğlu
Əhmədov Vahid Əlisafa oğlu
Əsədov Şahin Eynulla oğlu
Əsədullayev Fərid Vaqif oğlu
Əsgərov Güləhməd İbrahim oğlu
Əliyev Valeh
Əliyev Mübariz Fikrət oğlu
Əsədov Əlizadə İmran oğlu
Mehdiyev Səfər Soltan oğlu
Məmmədov Azər Sahib oğlu
Məmmədov Hüseyn Bəhmən oğlu
Məmmədov Fəxrəddin Xəlil oğlu

Məmmədov Nurlan Hökmüravan oğlu
Məmmədzadə Elşad Süleyman oğlu
Məmmədzadə Sakin Məmməd oğlu
Məmmədov Sərxan Məcid oğlu
Musayev Tofiq Qurban oğlu
Məmmədov Turab Allahverdi oğlu
Məmmədov Vüqar Məmmədəli oğlu
Mikayıllı Adil Eynəli oğlu
Mirməmmədov Qoşqar Seyidhəşim oğlu
Mirzəyev Anar Eldar oğlu
Muxtarov Emil Fəxrəddin oğlu
Nadirov Elsax Ələddin oğlu
Nağıyev Şahlar Xanlar oğlu
Nəsirov Aydın Surxay oğlu
Nəcəfov Rəhim Fətəli oğlu
Hüseynov Elmar Hafis oğlu
Hacıyev Elnur Əvəz oğlu
Həsənov Alik Fəxrəddin oğlu
Həsənov Faiq Vəliş oğlu
Hüseynov Tahir Hüseyn oğlu
Hümbətov Hümbət Əli oğlu
Hüseynov Rüfət Oruc oğlu
Hüseynov Sabir Məmməd oğlu
Salayev Cavanşir Kamil oğlu
Sadıqov Anar Sadıq oğlu
Salmanov Arif Nəriman oğlu
Sofiyev Orxan Elgiz oğlu
Sofiyev Rüstəm Süleyman oğlu
Seydəliyev Rizvan Bayram oğlu
Səddərzadə Ramil Əlirza oğlu
Süleymanov Famil Arif oğlu
Süleymanov Elman
Süleymanov Rəşad Elman oğlu
Şamilov Rüstəm
Şərifov Ceyhun Ağasalam oğlu
Şabanov Rizvan Nəriman oğlu
Kərimov Rauf Əşrəf oğlu
Kərimov Rauf Zakir oğlu
Kərimov Amil Əzizağa oğlu
Koneyev Ramazan Sabir oğlu
Rəhimov Cumalik Nadir oğlu
Rəsulzadə Məmmədəli Aydın oğlu
Rzayev Bala-Rza Rza oğlu

Rəhimov Ağaismayıl Həsənağa oğlu
Rzayev Asif Misir oğlu
Quliyev Vahid Rüstəm oğlu
Quliyev Elşad Zakir oğlu
Qurbanəliyev Emin Qənimət oğlu
Qüdrətov Gülağa Əsəd oğlu
Quliyev Nadir Mütəllim oğlu
Quliyev Oqtay Arif oğlu
Gözəlov Adıgözəl Yusif oğlu
Fərəcov Əhməd Qardaşxan oğlu
Ueltsov Aleksandr Fəxrəddin oğlu
Ocaqquliyev Mətin Balaş oğlu
Orucov Qərib Anar oğlu
Tahirov Natiq Rafiq oğlu
İsayev Rauf Şəmsəddin oğlu
İsgəndərov Asim
Cabbarov Vilayət Həmid oğlu
Cəlilov Yadulla Əhəd oğlu
Cəbrayılov Qurbanxan Məmməd-Sadıq oğlu
Cəbrayılov Natiq Qurban oğlu
Vəliyev Əfsər Heydər oğlu
Vəliyev Asəf Müslət oğlu
Vəliyev Fafiq Nəriman oğlu
Vəkilov İbrahim
Ydigar Türkel Sahibəli oğlu
Yaqubov Mirağası Seyid Zəki oğlu
Yolçuyev Elxan Murtuzəli oğlu
Xayırbəyov Rüfət Vəlibəy oğlu
Xəlilov İsmayıl Ağadadaş oğlu
Xəlilov İsa Məşədi oğlu

## MÜNDƏRİCAT

Müəlliflərdən ........................................................ 7
Boksun Azərbaycanda təşəkkülü və inkişaf yolu ..... 9
Boksçularımız Sovet rinqində ................................ 35
Boksçularımız beynəlxalq turnirlərdə ................... 45
Azərbaycanda beynəlxalq turnirlər........................ 49
Boksçularımız Olimpiya Oyunlarında .................... 53
Azərbaycan boksçuları 1920-1930-cu illərdə........ 65
Azərbaycan boksçuları 1930-1950-ci illərdə......... 69
Azərbaycan boksçuları 1950-1960-cı illərdə......... 89
Azərbaycan boksçuları 1960-1970-ci illərdə.........127
Azərbaycan boksçuları 1970-1990-cı illərdə.........145
Azərbaycan boksçuları 1990-2004-cü illərdə........175
Beynəlxalq uğurlar və boks ustalarımız ...............197

*Müəlliflər:*

Ağacan Qulam oğlu Abiyev
Tofiq Xanlar oğlu Babanlı
Qabil Sabir oğlu Mehdiyev

*Direktor:* Oqtay Hüseynov
*Bədii tərtibat:* Rəhilə Məmmədova
*Dizayner:* Azər Sadıqbəyli
*Mətni yığdı:* Ruhiyyə Şeydayeva

Yığılmağa verilmiş 05. 01. 2004. Çapa imzalanmış 15. 10. 2004.
Kağız formatı 60x90 $^{1}/_{16}$. Ofset çapı. Fiziki ç. v. 14,0. Tirajı 700.
Kitab "Turan Evi" nəşriyyatında hazırlanıb çap edilmişdir.
Bakı, Şərifzadə küç. 3. Tel: 32-11-48 /32-28-93/